Xalqın qəzeti!

# Xalq qəzeti

№ 263 (30957) 13 dekabr 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Əbədiyyətin Heydər Əliyev zirvəsi

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər



**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin vəfatından 22 il ötür.**

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andılar, məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

*(ardı 2-ci səhifədə)*

## Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevlə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu Öndər Heydər Əliyevlə bağlı rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.**

**Paylaşımda deyilir:** *"12 Dekabr - Ümummilli Lider Heydər Əliyevin Anım Günü".*

## Birinci vitse-prezident Mehriban Əliyevanın Ulu Öndərin anım günü ilə əlaqədar paylaşımı




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi sosial şəbəkə səhifələrində Ulu Öndər Heydər Əliyevin anım günü ilə əlaqədar paylaşım edib.**

**Paylaşımda deyilir:** *"Dahi Heydər Əliyev. Xatirimizdədir, sevgi ilə anırıq".*

## Xalqın ulu rəhbərə tükənməz sevgisi, dərin ehtiramı



Səhifə ➪ 4

## Ukraynaya ədalətli sülh gələcəkmi?



Səhifə ➪ 12

## Ermənistan seçim qarşısında: Aİ, yoxsa AİI?



Səhifə ➪ 13

## Azərbaycan Cənubi Qafqazın ən etibarlı investisiya məkanıdır




**Azərbaycanın qlobal nəqliyyat dəhlizləri və tranzit qovşaqları baxımından hab funksiyası daşıyıcısı olması dünya iqtisadiyyatının gündəminə çevrilib. Şimal-Cənub, Şərq-Qərb yükdaşımalarında ölkəmizin ən qənaətcil istiqamət olması bu mövhumu şərtləndirir. Bununla yanaşı, Orta Dəhliz layihəsində də aktivlik deyilənlərə əyani misaldır. Genişlənən yükdaşıma bazarları, artan həcm Azərbaycanın da əldə edəcəyi dividendləri bir o qədər çoxaldacaqdır.**

*(ardı 14-cü səhifədə)*

## Avtomobili harada və necə saxlayaq?

### *Görülən işlər "əlçatanlıq" tələbini də cavablandırmalıdır*

**Azərbaycanın böyük şəhərlərində, ilk növbədə, Bakı, Sumqayıt və Gəncə kimi urbanizasiya səviyyəsi yüksək olan mərkəzlərdə artan avtomobil sayı parklanma infrastrukturunun modernləşdirilməsi zərurətini daha da aktual edib. Son illər dövlətin nəqliyyatın idarə olunması, dayanacaq yerlərinin rəqəmsallaşdırılması və nəqliyyat axınının optimallaşdırılması istiqamətində atdığı addımlar problemin həllində mühüm rol oynayır. Bu baxımdan "Az-Parking" idarəetmə panelinin yaradılması parklanma prosesini daha rahat, səmərəli və şəffaf şəkildə təşkil etmək üçün nəzərdə tutulmuş müasir rəqəmsal həll kimi diqqət çəkir.**



*(ardı 15-ci səhifədə)*

## Türkmənistanın Prezidenti Zati-aliləri cənab Sərdar Berdiməhəmmədova

**Hörmətli Sərdar Qurbanquliyeviç!**

Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə Sizi və qardaş xalqınızı ürəkdən təbrik edirəm.

1995-ci ilin dekabrın 12-də 185 ölkənin yekdil dəstəyi ilə BMT Baş Assambleyası tərəfindən Türkmənistanın daimi bitərəflik statusunu tanıyan qətnamənin qəbul edilməsi ölkənizin tarixinə qızıl hərflərlə həkk olunan əlamətdar hadisə idi. Bitərəflik siyasətini yürüdən ölkəniz ötən dövr ərzində bütün sahələrdə sürətlə inkişaf edərək əhəmiyyətli uğurlara imza atmışdır.

Türkmənistanın bitərəflik statusu sülhsevərlik, dialoq və qarşılıqlı hörmət prinsiplərinə söykənən xalqınızın tarixi irsinə və adət-ənənələrinə əsaslanır. Bu gün Türkmənistanın daimi bitərəflik siyasəti regionda və qlobal səviyyədə sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində vacib rol oynayır.

Biz ölkənizin bitərəflik siyasətinə daim hörmətlə yanaşırıq. Məhz bu səbəbdən Azərbaycan Respublikası həm 1995-ci, həm də 2015-ci illərdə BMT Baş Assambleyasının ölkənizin bitərəflik siyasəti ilə bağlı müvafiq qətnamələrinin həmmüəllifi olmuşdur.

İnanıram ki, qardaş xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Türkmənistan dövlətlərarası münasibətlərinin xoş ənənələrini yaşatmaq və möhkəmləndirmək, strateji tərəfdaşlığımızı dərinləşdirmək yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, qardaş Türkmənistan xalqına isə daim əmin-amanlıq və firavanlıq diləyirəm.

***Hörmətlə,***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 dekabr 2025-ci il**

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin məzarını ziyarət ediblər





*(əvvəli 1-ci səhifədə)*

Azərbaycanın dövlətçilik tarixində xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xidmətləri bütöv bir epoxanı özündə ehtiva edir. Onun dahiyanə siyasi uzaqgörənliyi, dövlət quruculuğu sahəsində atdığı addımlar, müstəqil Azərbaycanın inkişaf strategiyasının əsasını təşkil edən qərarları xalqımızın yaddaşında silinməz iz buraxıb. Ulu Öndərin hakimiyyəti illərində ölkəmizin sabitliyə qovuşması, iqtisadiyyatın dirçəldilməsi, ordu quruculuğunun möhkəmləndirilməsi Azərbaycanın gələcək yüksəlişini təmin edən əsas dayaqlara çevrildi.



Xalqımız ağır və taleyüklü dönəmlərdə Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasını dərin minnətdarlıqla xatırlayır. Məhz onun rəhbərliyi illərində Azərbaycan qarşılaşdığı təhlükələrdən xilas oldu, milli özünüdərk gücləndi, müstəqilliyimizin əbədiliyi üçün möhkəm təməllər qoyuldu. Hər il dekabrın 12-də və mayın 10-da minlərlə insanın Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət etməsi xalqın dahi övladının xatirəsinə əbədi ehtiramının və sədaqətinin bariz ifadəsidir.

Ulu Öndər Heydər Əliyevin ən böyük arzularından biri Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, Qarabağın azad edilməsi idi. Onun bu arzusu illər sonra öz layiqli davamçısı tərəfindən həyata keçirildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli mövqeyi və əzmkarlığı nəticəsində Ordumuz tarixi Zəfər qazandı, ölkəmizin ərazi bütövlüyü, suverenliyi bərpa olundu, üçrəngli Bayrağımız işğaldan azad edilmiş şəhər və kəndlərimizdə ucaldıldı.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycanın gücünü, həmçinin gələcəyə olan inamını əks etdirir. Azad olunan torpaqlarda yeni həyatın başlanması Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ideyalarının davamlılığının və uğurla həyata keçirilməsinin göstəricisidir.

Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf yolu bu gün də ölkəmizin siyasi və iqtisadi tərəqqisinin əsasını təşkil edir. Prezident İlham Əliyevin apardığı siyasət Azərbaycanın beynəlxalq arenada nüfuzunu artırıb, ölkəmizi bölgədə mühüm tərəfdaş və güclü dövlətə çevirib. Dövlətimizin milli maraqlarının qətiyyətlə müdafiə olunması, təhlükəsizlik və inkişaf strategiyasının ardıcıl şəkildə davam etdirilməsi dahi Heydər Əliyev ideyalarının yaşayaraq inkişaf etdiyini göstərir.

Qəti şəkildə demək olar ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin ideyalarına daim sadiq olacaq, onun müəyyənləşdirdiyi inkişaf yolu ölkəmizi daha böyük uğurlara doğru aparmaqda davam edəcək.

***AZƏRTAC***

## Dövlət və hökumət rəsmiləri Fəxri xiyabanda



**Dekabrın 12-si Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günüdür.**

Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri, hərbi qulluqçular, hüquq-mühafizə orqanlarının əməkdaşları, diplomatik korpusun nümayəndələri Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müasir müstəqil Azərbaycanın banisi və qurucusu Ulu Öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri qoyulub.

***XQ***



## Türkmən xalqının Milli Lideri, Türkmənistan Xalq Məsləhətinin Sədri Zati-aliləri cənab Qurbanqulu Berdiməhəmmədova

**Hörmətli Qurbanqulu Məlikquliyeviç!**
**Əziz Qardaşım!**

Əlamətdar tarix – Türkmənistanın daimi bitərəfliyinin tanınmasının 30-cu ildönümü münasibətilə Sizi və qardaş xalqınızı səmimi-qəlbdən təbrik etməkdən böyük məmnunluq duyuram.

Otuz il əvvəl dünya birliyi tərəfindən Türkmənistanın daimi bitərəflik statusunun tanınması ölkənizin dinamik və dayanıqlı inkişafına təkan verən və beynəlxalq aləmdə nüfuzunu gücləndirən mühüm hadisə və böyük tarixi nailiyyət idi.

Türkmənistanın daimi bitərəflik siyasətinin mahiyyəti xalqınızın çoxəsrlik humanizm, sülhsevərlik və mənəvi-əxlaqi fəlsəfəsindən qaynaqlanır. Bu gün Türkmənistanın geniş beynəlxalq əməkdaşlığa yönəlmiş konstruktiv təşəbbüsləri qlobal sülh və təhlükəsizliyin möhkəmləndirilməsi, humanist dəyərlərin təşviqi kimi nəcib məqsədlərə xidmət edir. Eyni zamanda ölkəniz sülhsevər doktrinasını qlobal səhnədə fəal şəkildə təbliğ edərək qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə beynəlxalq dialoqun güclənməsinə töhfə verir.

Azərbaycan qardaş və mehriban qonşu olan Türkmənistanın bitərəflik siyasətinə daim hörmətlə yanaşıb. Təsadüfi deyil ki, Azərbaycan Respublikası həm 1995-ci, həm də 2015-ci illərdə BMT Baş Assambleyasının ölkənizin bitərəflik statusu ilə bağlı müvafiq qətnamələrinin həmmüəllifi olmuşdur.

Azərbaycan ilə Türkmənistan arasında əlaqələrin hazırkı səviyyəsi məmnunluq doğurur. Dövlətlərarası münasibətlərimizin, qardaşlığımızın möhkəmlənməsi istiqamətində şəxsən Sizin davamlı və qətiyyətli səylərinizi xüsusi qeyd etmək istərdim. Fürsətdən istifadə edərək Sizin bu il ərzində Azərbaycana iki səfərinizi, mənim də avqust ayında füsunkar Avazaya səfərimi, Sizinlə səmimiyyət və qarşılıqlı etimad şəraitində keçən görüşlərimizi və söhbətlərimizi ən xoş təəssüratlarla xatırladığımı bildirirəm.

Əminəm ki, Azərbaycan-Türkmənistan qardaşlıq bağlarını daha da möhkəmləndirmək və çoxşaxəli əməkdaşlığımızı yeni mərhələyə yüksəltmək yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Hörmətli Qurbanqulu Məlikquliyeviç, bu bayram günündə bir daha Sizə təbriklərimi çatdırır, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkmənistan xalqına isə daim əmin-amanlıq və firavanlıq diləyirəm.

***Hörmətlə,***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 dekabr 2025-ci il**

## DTX kollektivinin Ulu öndərin xatirəsinə ehtiramı

**Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, müasir Azərbaycanın banisi və xilaskarı, Ümummilli Lider Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə əlaqədar Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyev və xidmətin əməkdaşları Fəxri xiyabanda Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla yad ediblər.**

DTX-nin mətbuat xidmətindən verilən məlumata görə, dahi şəxsiyyət Heydər Əliyevin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarları üzərinə gül dəstələri qoyulub.

***XQ***



## DİN-in şəxsi heyəti Ümummilli lideri yad edib



**Daxili İşlər Nazirliyinin şəxsi heyəti Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, önünə gül dəstələri qoyub, əziz xatirəsini böyük ehtiramla anıb.**

Bu barədə DİN-in mətbuat xidmətindən məlumat verilib.

***XQ***



## Müdafiə Nazirliyi rəhbərliyinin unudulmaz komandana sevgi və sədaqəti

**Dekabrın 12-də Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günündə Müdafiə Nazirliyinin rəhbər heyəti Fəxri xiyabanı ziyarət edib.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi dərin hörmət və ehtiramla yad olunub. Nazirliyin rəhbər heyəti daha sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarı üzərinə gül dəstələri düzərək xatirəsinə ehtiram nümayiş etdirib.

***XQ***

# Əli Əsədov Türkmənistanda Ümummilli liderin xatirəsini yad edib

**Aşqabad şəhərində işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 12-də ölkəmizin Türkmənistandakı səfirliyinə gələrək ümummilli lider Heydər Əliyevin buradakı büstü önünə gül dəstəsi qoyub, Ulu öndərin xatirəsini ehtiramla yad edib.**

Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib.

*XQ*



# Azərbaycanın Baş naziri Aşqabadda Neytrallıq Abidəsini ziyarət edib





**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Aşqabadda keçirilən Beynəlxalq Neytrallıq Günü və Türkmənistanın daimi neytrallığının 30 illiyinə həsr olunmuş beynəlxalq forumda iştirak edib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, Baş nazir Əli Əsədov Aşqabadda Neytrallıq Abidəsinin önünə gül dəstəsi qoyub.

*XQ*

# Prokurorluq əməkdaşları anım mərasimində

**Müstəqil və müasir Azərbaycan dövlətinin qurucusu və memarı, dünyaşöhrətli siyasi xadim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə bağlı Baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları Fəxri xiyabanı ziyarət ediblər.**

Baş Prokurorluğun mətbuat xidmətindən verilən məlumata görə, Ulu Öndərin məzarı önünə gül dəstələri qoyulub, əziz xatirəsi dərin ehtiramla yad edilib.

Həmçinin görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva, tanınmış dövlət xadimi Əziz Əliyev və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üzərinə gül dəstələri düzülüb.

*XQ*



# “Bir millət, iki dövlət” deyimi ilə tarixə düşən lider

**Ümummilli lider Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə əlaqədar Türkiyənin Anadolu Agentliyi geniş məqalə yayımlayıb.**

“Bir millət, iki dövlət” sözü ilə tarixə düşən lider: Heydər Əliyev” sərlövhəli yazıda Ulu öndərin həyat və yaradıcılığına geniş yer verilib.

“Sovet İttifaqı dövründə mühüm vəzifələr icra edən Heydər Əliyev müstəqilliyin ilk illərində böyük böhranlarla üzləşən Azərbaycanın idarəçiliyinə gələrək ölkəni xaosdan çıxaran şəxs oldu” cümləsi ilə başlayan yazıda onun rəhbərliyi illərində Azərbaycanın bütün sahələrdə inkişafından, ölkənin gələcəyi üçün atılan mühüm addımlardan bəhs edilib.

Yazıda Ümummilli liderin Türkiyə–Azərbaycan münasibətlərinə xüsusi əhəmiyyət verdiyi qeyd edilib: “Heydər Əliyev xüsusən Türkiyə ilə münasibətlərdə strateji və qardaşlıq prinsiplərinə əsaslanan siyasət yürüdürdü. Onun məşhur “Bir millət, iki dövlət” kəlamı Türkiyə–Azərbaycan əlaqələrinin əsas prinsipi halına gəlib. Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəllə yaxın dostluğu da iki ölkə arasındakı bağların gücləndirilməsinə mühüm töhfə verib”.

*XQ*




# 606 hərbi qulluqçu da mənzil alacaq



**Dekabrın 12-də Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə” 28 dekabr 2011-ci il tarixli 569 nömrəli fərmanı ilə yaradılmış Komissiyanın növbəti iclası keçirilib.**

Komissiyanın sədri, maliyyə naziri Sahil Babayev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması, dövlət vəsaiti hesabına mənzillə təmin edilməsi istiqamətində Fərmanla qarşıya qoyulan vəzifələrin icrası olaraq indiyədək Azərbaycan Ordusunun minlərlə hərbi qulluqçusunun dövlətin bu mühüm sosial proqramından bəhrələnərək mənzillərlə təmin olunduğunu qeyd edib. Nazir bildirib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik və ordu quruculuğu xəttinin ardıcıl davamı olan bu siyasət hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsinə, onların mənzil-məişət problemlərinin həll edilməsinə mühüm töhfə verir.

S.Babayev Komissiya tərəfindən Müdafiə Nazirliyinin təqdim etdiyi siyahılar əsasında mənzil növbəsinə mütəmadi baxıldığını və vaxtaşırı mənzil almaq hüququ qazanan hərbi qulluqçuların mənzil növbəsinə əlavə edildiyini bildirib.

Komissiyanın iclasında Müdafiə Nazirliyi tərəfindən təqdim olunmuş 606 nəfər hərbi qulluqçunun tam təmirli mənzillərlə təmin olunmasına dair qərar qəbul olunub. Qeyd olunub ki, cari il üzrə dövlət büdcəsində nəzərdə tutulmuş vəsait hesabına alınan tam təmirli mənzillər növbəti il ərzində hərbi qulluqçulara təqdim olunacaq.

Bu günə qədər dövlət vəsaiti hesabına 4167 nəfər hərbi qulluqçu mənzillərlə təmin edilib.

*XQ*

# Azərbaycan Türkmənistanın neytrallıq siyasətini dəstəkləyir



**Dekabrın 12-də Aşqabadda “Beynəlxalq sülh və etimad ili (2025)”, Beynəlxalq Neytrallıq Günü və Türkmənistanın daimi neytrallığının 30 illiyinə həsr olunmuş beynəlxalq forum işə başlayıb.**



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov forumun plenar iclasında iştirak edib.

İclasda çıxış edən Ə.Əsədov vurğulayıb ki, Azərbaycan Türkmənistanın BMT tərəfindən tanınan daimi neytrallıq siyasətinə böyük hörmətlə yanaşır. Azərbaycanın neytrallıqla bağlı Türkmənistan tərəfindən BMT-də irəli sürülən qətnamələri daim dəstəklədiyi və “Beynəlxalq sülh və etimad ili - 2025” qətnaməsinə həmmüəllif qismində qoşulduğu bildirilib.

Həmçinin diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Türkmənistanın BMT-nin himayəsi altında Neytrallıq Universitetinin yaradılması ilə bağlı təşəbbüsünü də yüksək qiymətləndirir və Universitetin işində fəal iştirak etməyə hazırdır.

Bildirilib ki, Azərbaycan və Türkmənistan BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatının fəal üzvləridir və hər iki ölkə Hərəkatın dialoq və həmrəylik prinsiplərinə sadiqliyini nümayiş etdirir.

Azərbaycan-Türkmənistan əlaqələrinə toxunan Baş nazir iki ölkə arasında dərin tarixi köklərə, mənəvi və mədəni dəyərlərə söykənən ənənəvi dostluq və qardaşlıq münasibətlərinin mövcud olduğunu qeyd edib. Dövlətlərarası münasibətlərin son illərdə dinamik inkişaf yolu keçdiyi diqqətə çatdırılıb.

Bildirilib ki, iki ölkə liderləri arasında son dövrdə baş tutmuş qarşılıqlı səfərlər və görüşlər ikitərəfli münasibətlərdə yeni səhifə açıb, onları strateji tərəfdaşlığın keyfiyyətcə yeni səviyyəsinə yüksəldib.

Bu kontekstdə cari ilin avqust ayında Prezident İlham Əliyevin Türkmənistana işgüzar səfərinin önəmi xüsusi qeyd edilib. Səfər çərçivəsində Türkmənistan, Azərbaycan və Özbəkistan arasında keçirilən yüksəksəviyyəli görüşün regional əməkdaşlığın genişləndirilməsi və çoxşaxəli qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsi üçün mühüm platformaya çevrildiyi bildirilib.



Həmçinin iyul ayında Türkmənistanın Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana səfərinin, səfər çərçivəsində Füzuli və Şuşa şəhərlərini ziyarət etməsinin əhəmiyyəti vurğulanıb. Eyni zamanda, cari ilin oktyabr ayında Qəbələdə keçirilmiş Türk Dövlətləri Təşkilatının Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü çərçivəsində Füzulidə təməli qoyulan məscidin inşası ilə bağlı təşəbbüsə görə Türkmənistan tərəfinə minnətdarlıq ifadə olunub.

Ə.Əsədov Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasındakı münasibətlər barədə də bəhs edib. Bu baxımdan Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşünə tamhüquqlu iştirakçı qismində qəbul edilməsinin əhəmiyyəti xüsusi vurğulanıb.

*XQ*

# YAP nümayəndələri Ulu öndərin xatirəsini yad ediblər



**Dekabrın 12-də müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri Fəxri xiyabanda Ulu öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

*XQ*

# Əmanətlərin Sığortalanması Fondunun kollektivi ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib





**12 dekabr – Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Əmanətlərin Sığortalanması Fondunun kollektivi Fəxri xiyabanı ziyarət edib. Fondun rəhbərliyi və kollektivi Ulu öndərin məzarı önünə gül dəstələri qoyub, dahi dövlət xadiminin xatirəsini dərin ehtiramla yad ediblər.**

Ümummilli liderin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

***Q.YUSİFOĞLU***
***XQ***

# Xalqın ulu rəhbərə tükənməz sevgisi, dərin ehtiramı

*Fəxri xiyabandan reportaj*

**Ümummilli lider Heydər Əliyevin ölməz xatirəsi xalqın yaddaşında, dövlətin dayaqlarında, müstəqil Azərbaycanın siyasi təfəkküründə yaşayır. Ulu öndərin vəfatının 22-ci ildönümü günündə Fəxri xiyabana üz tutan insan axını bu həqiqətin növbəti canlı təcəssümünə çevrildi.**





Səhər tezdən xiyabana axışan insanların sayı günboyu azalmadı. Yaşlılar asta addımlarla, gənclər qaynar baxışlarla, uşaqlar maraqla irəliləyirdi. Yaşlı nəsil üçün Heydər Əliyev adı böyük məna daşıyır. Onlar bu insanı həyatda görmüş, bu imzanın mühüm qərarlarını öz talelərində hiss etmişlər. Dövlətçiliyin dağılmaq təhlükəsi ilə üz-üzə qaldığı, qeyri-müəyyənliyin cəmiyyəti bürüdüyü bir dövrdə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqı fəlakətdən xilas etmiş, sabaha inam yaratmışdı. Bu səbəbdən Fəxri xiyabana gələn ağsaqqalların baxışlarında xatirə yox, şahidlik var idi.

Gənclər Heydər Əliyevin hakimiyyətdə olduğu illəri görməsələr də, o dövrün ağırlığını, qərarların hansı şəraitdə verildiyini yaxşı bilirlər. Onlar "Heydər baba" deyəndə bunu evdə, ailədə, böyüklərin söhbətlərində formalaşmış sevgi kimi yaşayırlar. Bu sevgi sabit ölkədə böyüməyin, gələcək barədə tərəddüd etməməyin, dövlət anlayışını gündəlik həyatın bir parçası kimi qəbul etməyin nəticəsidir. Ona görə də gənclər üçün Heydər Əliyev keçmişdə qalan ad yox, reallığın başlanğıc nöqtəsidir.



Fəxri xiyabanda qarşılaşdığımız **Vətən müharibəsi qazisi, 25 yaşlı Sinan Axundov** Heydər Əliyevin adını daha fərqli bir anlayışla çəkir. Onun sözlərinə görə, cəbhədə döyüşərkən tarix barədə düşünməyə vaxt olmur, amma arxanda dayanan dövlətin haradan başladığını bilirsən:

– Biz səngərdə olanda anlayırdıq ki, dövlət təsadüfən yaranmayıb. Arxamızda ordu var idi, nizam var idi. Bunlar bir gündə qurulmur. Heydər Əliyev olmasaydı, bu dövlət bu gün bizə bu qədər arxayınlıq verə bilməzdi. Biz ona görə döyüşə bilirdik. Vətən müharibəsində fəal iştirak etmiş Sinan Axundov "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", həmçinin "Cəsur döyüşçü" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.



Bir qədər kənarda dayanan məktəbli diqqəti cəlb edir. Yaxınlıqdakı **6 nörməli məktəbdə təhsil aldığını deyən 13 yaşlı Elmir Qədirov** Ulu öndəri canlı görməsə də, ailədə və məktəbdə Ümummilli lider haqqında danışılanlar canlı dastana çevrilib. Elmirlə söhbət edəndə o artıq Fəxri xiyabana gün ərzində ikinci dəfə gəlirdi. Səbəbini sadə, amma düşündürücü şəkildə izah etdi.

Gənc yaşına baxmayaraq, dedikləri vətəndaş düşüncəsini ifadə edir: "Mən Heydər Əliyevi görməmişəm, amma onun qurduğu dövlətin içində böyümüşəm. Təhsil alıramsa, məktəbə rahat gedirəmsə, bayrağımız bu qədər güclüdürsə, bu, onun siyasətinin nəticəsidir".

*

Heydər Əliyevin siyasi irsi yalnız keçmişin xatirəsi deyil. Bu irs bu gün də Azərbaycanın dövlətçilik fəlsəfəsində yaşayır. Güclü mərkəzi hakimiyyət, balanslı xarici siyasət, milli maraqlara söykənən qərarlar onun formalaşdırdığı siyasi məktəbin əsas cizgiləridir. Məhz bu məktəb sonrakı dövrdə ölkənin inkişaf yolunu müəyyənləşdirib.

Bu il Fəxri xiyabana, Ulu öndəri ziyarət etməyə gələn insanlar arasında gənclərin sayı xeyli artıb. Bunu ancaq bir amilə bağlamaq olar. Zaman bizi dahi şəxsiyyətdən nə qədər də uzağa aparsa, ona olan sevgi və rəğbət bir o qədər pöhrələşir, yeni nəsillərin düşüncəsində daha sağlam kök salır. Fəxri xiyabanda müşahidə olunan bu mənzərə bir daha sübut edir ki, böyük liderlərin təsiri zamanla zəifləmək əvəzinə, cəmiyyətin yaddaşında daha aydın və daha məsuliyyətli formada yaşayır.

Cəmiyyətin xüsusilə gənc təbəqəsi arasında apardığımız kiçik sorğu onu deməyə əsas verir ki, yaşlı nəsildən fərqli olaraq bugünkü gənclik gözünü açdığı ilk gündən etibarən Azərbaycanı müasir, müstəqil və güclü dövlət kimi görüb. Onlar sovet təfəkkürünün, ideoloji asılılığın və siyasi qeyri-müəyyənliyin içindən keçməyiblər. Dövlətçiliyin sınaqdan çıxdığı çətin mərhələləri yaşamayan bu nəsil sabitlik, təhlükəsizlik və milli özünəinam mühitində formalaşıb. Məhz bu reallıq gənclərin tarixə və onu yaradan şəxsiyyətlərə münasibətini də fərqli şəkildə formalaşdırır.

Ölkəsi ilə birgə boy atan, müstəqil Azərbaycanın inkişaf mərhələlərini gündəlik həyatının ayrılmaz hissəsi kimi qəbul edən gənclər bu gün aydın şəkildə dərk edirlər ki, mövcud reallıq təsadüf nəticəsi deyil. Onların əldə etdiyi imkanlar, təhsil mühiti, dövlət institutlarına inam və beynəlxalq aləmdə güclənən Azərbaycan obrazı ulu öndər Heydər Əliyevin siyasi xəttinin nəticəsidir. Bu baxımdan gənc nəsil öz taleyində böyük rəhbərin yaratdığı təməlin üzərində boy atdıqlarını getdikcə daha çox anlayır.



Ümummilli liderin anım günündə məzarını ziyarət edən **29 yaşlı Nicat İsmayılovun** sözlərinə görə, bu cür ziyarətlər daha çox daxili hesabat, mənəvi borcun xatırlanmasıdır: "Biz sabit dövlətdə yaşayırıqsa, gələcəyə daha arxayın baxırıqsa, bunun haradan başladığını unutmaq olmaz. Bu ziyarətlər dahi şəxsiyyətə olan borcumuzu sözlə yox, mövqeyimizlə ifadə etməkdir". Nicatın fikrincə, Ulu öndərin xatirəsi təkcə anım və doğum günləri ilə məhdudlaşmamalıdır. Onun Azərbaycanın inkişaf yolu naminə atdığı hər bir strateji addım eyni hörmət və diqqətlə xatırlanmalı, bu irsə münasibət gündəlik düşüncənin bir hissəsinə çevrilməlidir. Nicat hesab edir ki, belə məqamlar həm də Fəxri Xiyabanın ziyarət olunması üçün rəmzi tarixlərdir: "Biz Ümummilli liderə olan borcumuzu heç vaxt tam şəkildə qaytara bilmərik. Bu ziyarətlər ona duyduğumuz minnətdarlığın, təşəkkürün kiçik, amma səmimi ifadəsidir. Biz bu gün Ulu öndərin, eləcə də onun layiqli davamçısı Prezident İlham Əliyevin Azərbaycan dövləti qarşısında göstərdikləri xidmətləri yüksək qiymətləndiririk".

22 il… Tarix üçün qısa zaman kəsiyidir. Ancaq Azərbaycan xalqının yaddaşında bu 22 il bir həqiqəti daha da möhkəmləndirib. Heydər Əliyev təkcə müəyyən bir dövrün lideri deyil, həm də qurduğu dövlətin bu gününün və sabahının da yol göstərənidir. Onun formalaşdırdığı siyasi xətt və təsbit etdiyi milli prioritetlər bu gün də yaşayır, işləyir və öz nəticəsini verir. Bu yaddaş nəsildən-nəslə ötürülür. Ulu öndəri görməyən, onunla eyni dövrü yaşamayan gənc nəsil də bu irsin daşıyıcısına çevrilir. Onlar Heydər Əliyevi sabitlikdə, müstəqil qərarlarda, güclü dövlət institutlarında tanıyırlar.

Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin Naxçıvan dövrü xüsusi əhəmiyyət kəsb edir. Həmin dövrdə blokada şəraitində olan regionun xilası naminə atılan addımlar bütövlükdə Azərbaycanın gələcək inkişaf modelinin konturlarını cızmışdır. Fəxri xiyabanda **Naxçıvan Muxtar Respublikanın keçmiş ədliyyə naziri Nizami Nadirxanlı** Ulu öndərin xilaskarlıq missiyasını, onun irsinin keçmiş, indiki və gələcək zaman müstəvisindəki dəyişməz rolunu yüksək qiymətləndirərək bildirdi ki, dahi rəhbərin müəyyənləşdirdiyi siyasi kurs yeni nəsillər üçün mayak rolunu oynayır. Nizami müəllimin fikrincə, müasir Azərbaycanın dövlətçilik təməllərinin müəllifi məhz Heydər Əliyevdir. O, ölkə rəhbərliyinə qayıdışından sonra bütün sahələrdə, xüsusən də hüquq-mühafizə və idarəetmə sistemində institusional quruculuğu sistemli şəkildə həyata keçirmişdir. Mövcud dövlət strukturları, idarəetmə mexanizmləri və qanunvericilik bazası Ulu öndərin zəkasının məhsuludur. O, dərin zəkası və siyasi təcrübəsi ilə dövləti yenidən qurmağı bacarmışdır.



Müsahibimiz Prezident İlham Əliyevin fəaliyyətinə toxunaraq, siyasi varisliyin uğurlu nəticələrindən bəhs edir. O, dövlət başçısına olan inamını ifadə edərək qeyd edir ki, Heydər Əliyevin başladığı, lakin yekunlaşdıra bilmədiyi bütün strateji layihələri Prezident İlham Əliyev tamamlamışdır. Xüsusilə 2003–2020-ci illər aralığında reallaşdırılan iqtisadi islahatlar, ordu quruculuğu, diplomatik həmlələr və sosial proqramlar vahid məqsədə – Qarabağın işğaldan azad edilməsinə xidmət edirdi.

Nəticədə, üçrəngli bayrağımız Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordu tərəfindən tarixi torpaqlarda yenidən dalğalandı.

Nizami Nadirxanlı 44 günlük Vətən müharibəsini illərlə işlənmiş mükəmməl dövlət strategiyasının məntiqi yekunu adlandırır. O, keçmişdə prezidentin iştirakı ilə keçirilən görüşləri xatırlayaraq bildirir ki, dövlət başçısı torpaqların azad olunacağına dair elə böyük inamla danışırdı ki, həmin qətiyyət ətrafdakıları da buna inandırırdı. Hətta bəzən tərəddüd edənlər olsa da, Prezident İlham Əliyevin "Azad edəcəyik" vədi reallığa çevrildi.



Fəxri xiyabanda insan seli arasında qarşılaşdığımız **Milli Məclisin sabiq deputatı Şaitdin Əliyev** ilə söhbətimiz Heydər Əliyev şəxsiyyətinin mənəvi və bəşəri tərəflərinə işıq salır. Sabiq millət vəkili Ulu öndərin məzarını ziyarət edərkən keçirdiyi hissləri dilə gətirərək, dahi rəhbərin siyasi yolunu böyük məktəb adlandırdı. Onun sözlərinə görə, Heydər Əliyev xalqını və dövlətini canından artıq sevən, müdrik kəlamları ilə yaddaşlara həkk olunan lider idi. O, 1990-cı illərin əvvəllərində ölkənin düşdüyü ağır vəziyyəti, torpaqların işğalı və daxili xaosu xatırladaraq, məhz Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycanın fəlakətdən xilas olduğunu bildirir.

Şaitdin müəllim Heydər Əliyevlə birlikdə müqəddəs Məkkə ziyarətində iştirak etdiyi anları unudulmaz xatirə kimi bölüşdü. O, dövlətin ən çətin günlərində Ulu öndərin Kəbə evində etdiyi duaların şahidi olduğunu, həmin dualarda Azərbaycan üçün dirçəliş və xalq üçün rifah diləndiyini qeyd edir. Həmin səmimi duaların qəbul olunduğunu bu gün müstəqil və qüdrətli Azərbaycanın simasında görmək mümkündür.

Müsahibimiz Heydər Əliyevin İslam dünyasına həmrəylik çağırışını, müsəlman ölkələrinin bir-birinə dayaq olması gərəkdiyini vurğulayan fikirlərini xatırladır. Eyni zamanda, xaricdə yaşayan soydaşlarımıza ünvanlanan "Hara gedirsinizsə gedin, Azərbaycan sizin dövlətinizdir" mesajı dünya azərbaycanlılarının təşkilatlanmasında müstəsna rol oynamışdır. Sabiq deputat Prezident İlham Əliyevin atdığı addımların Heydər Əliyev siyasətinin təntənəsi olduğunu, verilən vədlərin yerinə yetirildiyini və torpaqların azadlığa qovuşduğunu iftixar hissi ilə qeyd edir.

Əslən Qərbi Azərbaycanın Əzizli kəndindən olan **şair Tofiq Həsrət** Heydər Əliyevi Türk dünyasının nadir liderlərindən biri kimi xarakterizə etdi. O, sovet ideologiyasının hökm sürdüyü dövrlərdə Heydər Əliyevin cəsarətli addımlarından söz açaraq qeyd etdi ki, 1981-ci ildə tarixi şəxsiyyətlərə abidələrin ucaldılması, 1982-ci ildə Şuşada Vaqif məqbərəsinin açılışı, eləcə də 1971-ci ildə Qərbi Azərbaycanın Göyçə mahalında, doğma torpaqlarda Aşıq Ələsgərin qəbirüstü abidəsinin ucaldılması milli yaddaşın bərpası istiqamətində atılmış tarixi addımlar idi.

Şairin fikrincə, Ermənistan ərazisində belə təşəbbüslərin reallaşdırılması o dövr üçün mümkünsüz görünsə də, Heydər Əliyev iradəsi bunu mümkün etmişdir. Hüseyn Cavidin nəşinin uzaq Sibirdən vətənə gətirilməsi, "Gülüstan" poemasına görə təzyiqlərə məruz qalan Bəxtiyar Vahabzadənin qorunması və ona "Xalq şairi" adının verilməsi kimi faktlar Ulu öndərin milli qeyrət və ədəbiyyat sevgisinin bariz nümunələridir. Belə liderin irsi zamanın sınaqlarından çıxaraq əbədi yol göstəricisinə çevrilmişdir.

Qərbi Azərbaycan İcmasının fəaliyyəti və Heydər Əliyevin bu istiqamətdəki tarixi xidmətlərindən söz açan **Hamamlı rayonunun Qursalı kənd icmasının sədri Vaqif Namazov** bildirdi ki, Heydər Əliyev hər zaman deportasiyaya məruz qalmış soydaşlarımızın taleyi ilə yaxından maraqlanmış, onların hüquqlarının beynəlxalq müstəvidə qorunması üçün zəmin hazırlamışdır. İcma sədri vurğuladı ki, Ulu öndər Qərbi Azərbaycan məsələsini heç vaxt unudulmağa qoymamış, tarixi ədalətin bərpa olunacağına dair inamını hər çıxışında ifadə etmişdir. Heydər Əliyevin məcburi köçkünlərlə keçirdiyi görüşlərdə səsləndirdiyi fikirlər, onlara göstərdiyi qayğı bu gün Qərbi Azərbaycan İcmasının konseptual fəaliyyətinin təməlini təşkil edir.



Vaqif Namazovun sözlərinə görə, Prezident İlham Əliyevin Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını irəli sürməsi məhz Heydər Əliyev ideyalarının davamıdır. İcma sədri əmindir ki, necə ki, Qarabağ azad olundu, eləcə də tarixi torpaqlara dinc qayıdış təmin ediləcəkdir. O, Heydər Əliyevin siyasi irsinin Qərbi azərbaycanlılar üçün də böyük ümid mənbəyi olduğunu, həmin irsin işığında tarixi ədalətin tam bərpa olunacağını bəyan edir.

Müsahiblərimizin söylədikləri bir daha göstərdi ki, Heydər Əliyev Azərbaycan dövlətçiliyinin xilaskarı və memarıdır. Onun müəyyənləşdirdiyi prinsiplər, qoyduğu ənənələr və dövlətçilik fəlsəfəsi müstəqil Azərbaycanın əbədi müstəqilliyinin qarantıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan Zəfər və davam edən genişmiqyaslı quruculuq işləri sübut edir ki, Heydər Əliyev ideyaları yaşayır və qalib gəlir. Azərbaycan xalqı dahi rəhbərinin əziz xatirəsini qəlbində yaşadaraq, onun açdığı yolla işıqlı gələcəyə doğru inamla irəliləyir.

***Tacir SADIQOV,***
***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Heydər Əliyev: Liderin zəka və qətiyyəti



## III MƏQALƏ

### Azərbaycan reallıqları və geosiyasi seçim

Ulu öndərə həsr edilmiş I və II məqalədə gətirilən faktlar və aparılan təhlil göstərir ki, Heydər Əliyev dövrün ümumi geosiyasi xüsusiyyətləri ilə Azərbaycan reallıqlarını mükəmməl nəzərə almışdır. Ümummilli liderin Azərbaycan Respublikası üçün etdiyi geosiyasi seçimi dahiyanə formada dövrün tələblərinə tam cavab verirdi. Milli maraqları regional gerçəkliklər və qlobal ümumi geosiyasi treklərlə harmonik səviyyədə uyğunlaşdıran Ulu öndər milli özşüur, milli özünüdərk və milli identikliklərin vəhdəti əsasında dövlət identikliyini ən müasir tələblərə cavab verən məzmunda müəyyən etmişdi.

İndi hər kəsə aydındır ki, milli özünüdərklə dövlət identikliyinin qarşılıqlı münasibətlərində Azərbaycan reallıqlarının özünəməxsus təsiri mövcuddur. Həm də Azərbaycan bu istiqamətdə təcrübə toplamış dövlətdir. Ona da şübhə yoxdur ki, həmin təcrübənin əsasında ulu öndər Heydər Əliyevin hazırladığı konsepsiya və praktiki fəaliyyət dayanır.

Heydər Əliyev çox dərin qatlarda azərbaycanlıların özşüurunu və bunun fonunda dövlətçilik şüurlarının özəlliklərini dəqiq bilirdi. Hər bir addımında Azərbaycanın özünməxsusluğunu və azərbaycanlılığın mədəni, mənəvi, əxlaqi, psixoloji parametrlərini yüksək həssaslıqla nəzərə alırdı. Bizcə, Ulu öndərin böyük uğurlarında bu məqam ayrıca rol oynamışdır. Bu fikirlərdən çıxış edərək iki aspektdə ümumiləşdirmə apara bilərik.

Birinci aspekt, ümumiyyətlə, milli özünüdərklə dövlət identikliyinin fəlsəfi tədqiqi nəticəsində gəlinən qənaətlərlə bağlıdır. Milli özünüdərk milli özşüurdan daha dərin qatlarda və koqnitiv miqyasda fərdin refleksiyasını ifadə edir. Burada empatiya əsas yer tutur. Fərd özünü anlamağa yönəlmiş şüuri fəaliyyəyti ilə nail olduğu dərkdən kollektiv miqyasda toplum üçün xarakterik olan mənəvi, əxlaqi, ideya özəlliklərinə baş vura bilir. Bunu o, sosial-mədəni və tarixi təcrübədə millətin əldə etdiyi biliklər çərçivəsində "mən-soydaş" qarşılıqlı münasibətləri daxilində edir. Bununla özşüurla kollektiv şüuri təcrübə arasında idraki əlaqə yaranır.

Tədqiqat göstərir ki, bundan çıxış edərək hər bir fərd digər vətəndaşlarla idraki və psixoloji səviyyələrdə refleksiv bağlantı yaradır. Bu, çoxlu sayda insanın ortaq fəaliyyət sahəsi kimi formalaşanda özşüurdan özünüdərkə keçmək mümkün olur. Dövlət identikliyi baxımından burada xüsusi faktorlar aparıcı rol oynayırlar. Bu aspekt üzərində dayanaq.

Öncə, belə bir sual meydana gəlir: vurğuladığımız fəlsəfi xarakterli müqayisələrin fonunda Ümummilli liderin fəaliyyəti sayəsində formalaşmış Azərbaycan nümunəsi hansı özəllikləri meydana çıxarmışdır?

### Heydər Əliyevin milli şüura yanaşmasının bir aspekti

Müasir Azərbaycan dövlətçiliyində milli özşüurun milli şüurun tərkib hissəsi kimi araşdırılması göstərir ki, azərbaycanlıların münasibətlərini və dəyər təsəvvürlərini qiymətləndirmə sisteminin özünəməxsus parametrləri vardır. Onların sırasında adət-ənənə, dil və din xüsusi yer tutur. Araşdırma göstərir ki, bu əsas faktorlar arasındakı münasibətlərin nisbəti də tarixi dönəmdən asılı olaraq dəyişə bilir.

Ulu öndər Heydər Əliyev keçən əsrin 90-cı illərində tarixi dövrün tələblərini nəzərə alaraq adət-ənənə, dil və din faktorlarını vahid azərbaycançılıq məfkurəsi çərçivəsində cəmiyyətdə birlik və harmoniya yarada bilən nisbətdə qarşılıqlı əlaqədə konseptuallaşdırdı. Multikultural dəyərləri bu üç əsas faktoru ziddiyyətsiz birləşdirən başlıca mexanizm etdi.

Beləliklə, milli özşüurun milli özünüdərk səviyyəsinə keçməsində Heydər Əliyev cəmiyyətin bütövlüyünü təmin edə bilən dəyər qiymətləndirməsini aparmışdır. Buna etnosun nümayəndələrinin təsəvvürlərini birgəyaşamı təmin edən və bu anlamda toplumun tamlığına xidmət göstərən məcraya yönəltmək əsaslı təsir etdi.

Vurğulanan aspektdə proseslərin dinamikası baxımından aparıcı məqam birgəyaşamın qeyd olunan vahidliyinin təkrar-təkrar kəsintisiz açıq və qeyri-xətti axıcılıq halına gətirməkdən ibarətdir.

Heydər Əliyev həmin kontekstdə olduqca perspektivli bir ideoloji addım atdı. Ulu öndər bəyan etdi ki, etnik və dini mənsubluğundan asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının Prezidentidir. Yəni burada hər hansı ayrı-seçkilik mümkün deyildir. Bu, hər bir fərdin Azərbaycanın sosial tamlığına daxil edilməsi demək idi. Burada sosial tamlıq cəmiyyətin bütövlüyü anlamındadır.

Həmin kontekstdə dəyər təsəvvürləri və münasibətlərin qiymətləndirilməsi sisteminin əsasını milli özşüur təşkil edir. Bu üsulla insan yerini sosial-mədəni və siyasi həyatda müəyyənləşdirir. Ulu öndər milli şüurun məhz bur funksiyasını ciddi surətdə aktuallaşdırdı və onu azərbaycanlıların həyat tərzinin mühüm aspektinə çevirdi.

### Milli özşüur, cəmiyyətin sosial-siyasi birliyi

Yuxarıda vurğuladığımız kontekstdə məsələnin başqa bir ümumi cəhətinə baxaq. Bu aspekt Heydər Əliyevin bütöv cəmiyyət miqyasında fövqəladə səmərəli fəaliyyətini anlamağa imkan verir.

Məsələ onunla bağlıdır ki, fəlsəfi tədqiqatlara görə, milli özüurun başlıca funksiyası cəmiyyətin mental və sosial-siyasi birliyini yaratmaqdan ibarətdir. Azərbaycan nümunəsində bunun konkret ifadəsi Ümummilli liderin sayəsində azərbaycançılığın cəmiyyətin bütövlüyü aspektində təsirində əksini tapmışdır. Azərbaycançılıq xalqın mentallığına əsaslı təsir etmiş və cəmiyyətin sosial-siyasi həyatında aktiv surətdə xüsusi yer tutmuşdur. Bunun əyani təsdiqlərindən biri dövlət identikliyini müəyyən edərkən Ulu öndərin milli xüsusiyyətləri tam olaraq nəzərə almasıdır.

Fikrimizi sübut etmək üçün Heydər Əliyevin dövlət identikliyinin təməlində gördüyü əsas tezislərə baxaq. Onlar aşağıdakılardır: birincisi, "Azərbaycan tarixən Şərq və Qərb sivilizasiyasını vəhdət halından birləşdirmişdir", ikincisi, "müasir mərhələdə Azərbaycanın "sosial-siyasi yönümündən və tarixi-mədəni ənənələrindən irəli gələn xüsusiyyətlər beynəlxalq münasibətlər sistemində" onun "roluna və yerinə səciyyəvi təsir göstərir", üçüncüsü, "Azərbaycan öz xüsusiyyətlərini dərindən dərk edərək və eyni zamanda müasir dövrdə baş verən dəyişikliklərin irəli sürdüyü tələbləri nəzərə alaraq, addım-addım irəliləyir və "xarici dünya ilə əməkdaşlıq binasını" ucaldır".

Bu ümumi yanaşmanı ifadə edən tezislər əsasında dövlət identikliyinin 3 əsas parametrini Ulu öndər müəyyən etmişdir.

Birincisi, müasir Azərbaycan Respublikası sivilizasiyalı dövlət kimi demokratikliyi və hüquqiliyi özündə ehtiva edir.

İkincisi, azərbaycanlıların milli özşüuru və milli özünüdərki "sülhsevər dövlət identikliyini" formalaşdıran başlıca faktorlardır. Ən krtitik dönəmlərdə belə Azərbaycan dövlətçiliyində sülh, barış, əməkdaşlıq aparıcı yer tutmuşdur. O cümlədən Azərbaycan qonşu ölkələrlə sülh içində yaşamağı dövlət kimi varlığının əsas əlaməti hesab etmişdir. Yəni sülh məsələsi Azərbaycanın dövlət identikliyinin əsas parametridir, bizim dövlət mahiyyət və funksiyaca sülhsevərdir!

Müasir Azərbaycan dövlətçiliyində sülhün yeri və rolunu Heydər Əliyev yüksək dərəcədə dəqiqliklə müəyyən etmişdir ki, bunun nəticəsində Azərbaycan ciddi böhrandan xilas olaraq, dünyanın ən dinamik inkişaf edən dövlətlərindən birinə çevrilmişdir. İndi o, geniş bir geosiyasi məkanda siyasi-diplomatik hərəkətliliyin mərkəzi halına gəlmişdir.

Üçüncüsü, Heydər Əliyev Azərbaycan hər dövlətlə "bərabərhüquqlu, tarazlaşdırılmış münasibələr" yaradır, ümumdünya və regional təşkilatlara daxil olaraq, "beynəlxalq münasibətlərin genişləndirilməsi"nə və "müəyyən səbəblər üzündən itirilmiş əlaqələrin bərpa olunmasını"na çalışır.

Məhz bu məqamda identiklik məsələsində milli özşüur, milli özünüdərk, azərbaycançılıq və multikulturalizm kimi faktorların rolunun əhəmiyyəti ön sıraya çıxır. Belə ki, vurğuladığımız təməl tezislər və onlardan məntiqi alınan 3 qrup parametrin dövlət identikliyinin əlamətləri olması üçün onları sistemləşdirən, məzmunca sintez edən və funksiyaca eyni hədəfə yönəldən mexanizmlər olmalıdır. Onları Ulu öndər məhz milli özşüur və milli özünüdərk prizmasında, lakin tarixi dövrün xüsusiyyətlərini nəzərə alaraq ənənə ilə müasirliyin qarşılıqlı münasibətlərində müəyyən etmişdir.

Konkret olaraq, həmin mexanizmləri Heydər Əliyev azərbaycançılıq məfkurəsi və multikulturalizm siyasəti əsasında müəyyənləşdirmişdir. Azərbaycançılıq məfkurəsi milli özşüurun və milli özünüdərkin "ideya hüdudunu" müəyyən edir. Yəni istənilən halda özşüur və özünüdərk dövlətçilik kontekstində kollektiv birgəyaşamın ortaq şüuri faktına çevrilir (yəni "milliləşir"). Bu keyfiyyətdə azərbaycançılıq məfkurə olaraq milli özünüdərkin dövlət identikliyinin "məna sahəsi"ni stimullaşdıran, formalaşdıran və ona xüsusi istiqamət verən başlıca parametr rolunu oynayır. Bu o deməkdir ki, milli özünüdərk ölkənin ideya məfkurəsi ilə tam harmoniya təşkil etməlidir. Əks halda, dövlət identikliyi real nəticəvericilik funksiyasını yerinə yetirə bilməz.

### Bir fəlsəfi qənaət

Əlbəttə, Heydər Əliyev irsi o qədər zəngindir ki, tədqiqinə uzun illər lazımdır. Burada biz sadəcə bir fəlsəfi qənaəti yekun olaraq ifadə edəcəyik.

Heydər Əliyev nəinki özünün fəaliyyəti dövründə, həm də özündən sonrakı mərhələdə çox uğurlu ola biləcək dövlətçilik strategiyasını hazırlamışdır. Bu strategiyanın digərlərindən əsas fərqi ondan ibarətdir ki, Ulu Öndər çox müxtəlif faktorları müstəqil dövlətçiliyə xidmət edə biləcək üsul və məntiqdə vahid sistem (və ya şəbəkə) halında sintez edə bilmişdir.

Bu üstün xüsusiyyəti bizlər indi dərk edirik, lakin Heydər Əliyev onu ideya, məfkurə, siyasi kurs və dövlətçilik fəlsəfəsi kimi həm emosiyalarında yaşamışdır, həm də konseptuallaşdırmışdır. Bu iki aspektin vəhdətində isə müstəqil dövlət quruculuğuna xüsusi məzmun və məqsəd vermişdir. Onun əsas əlaməti Ümummilli liderin Güclü Azərbaycan yaratmaq strategiyasıdır. Ulu öndərin fəaliyyətinin bütün istiqamətləri bu Ana məqsədə xidmət etmişdir. Bu məqsəd naminə lazımi iqtisadi, hüquqi, mənəvi və sosial-siyasi baza formalaşdırmışdır.

Bu bağlılıqda Heydər Əliyevin ümumi strategiya daxilində xüsusi strateji kurs müəyyən etməsi ayrıca bir fenomenal hadisədir. Keçən əsrin son onilliyində həmin kurs enerji strategiyası (və ya neft strategiyasını) kimi müəyyən edildi. Enerji strategiyası iqtisadi, hüquqi, idarəetmə və bütövlükdə islahatlar həyata keçirmə kimi sferalarla sıx əlaqədə həyata keçirildi. Burada müdafiə qüdrətinin artırılması ayrıca yer tuturdu. Paralel olaraq siyasi-hüquqi institutlaşmada islahatlar aparılırdı (məsələn, məhkəmə sferasında).

Bununla da Ulu öndər Azərbaycana çox böyük uğurlar qazandıran mükəmməl enerji diplomatiyasının möhkəm əsaslı konsepsiyasını yaratdı. Bu tarixi xidməti Azərbaycan xalqı heç zaman unutmayacaq! Bu gün bütövlükdə Azərbaycan Heydər Əliyevi dərin duyğularla yad edir! Ulu öndər millətin qəlbində əbədi yaşayacaq əvəzolunmaz şəxsiyyət və dahi siyasi xadimdir!

Çox fərəhlidir ki, bu gün Ulu öndərin dövlətçilik fəlsəfəsini böyük uğurla davam etdirən Prezidentimiz var! Tam əminik ki, Zəfərlər davam edəcək və Azərbaycan çox qüdrətli dövlət və yüksək rifah cəmiyyəti quruculuğunu tam başa çatdıracaq!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Ulu öndər Gürcüstan azərbaycanlılarının da milli lideridir



**Heydər Əliyev şəxsiyyəti mənim üçün, sadəcə, siyasi lider yox, həm də xalqının tarixi tale yolunu müəyyən etmiş əvəzolunmaz bir dövlət xadimi, milli yaddaşın, mənəvi bütövlüyün təməlidir. Onunla Gürcüstanda bir neçə dəfə görüşmək, bu ünsiyyətin verdiyi mənəvi gücü hiss etmək, Azərbaycan tarixində baş vermiş hadisələrin iştirakçısı olmaq həyatımda silinməz izlər qoyub. Bu görüşlər və yaşanan duyğular təkcə şəxsi xatirə deyil, həm də öndərin Gürcüstanda yaşayan soydaşlarımızın taleyində oynadığı rolun canlı epizodlarıdır.**

İlk dəfə Heydər Əliyevlə 1980-ci illərin əvvəllərində, Qardabani rayon komsomol komitəsinin birinci katibi olduğum dövrdə tanış oldum. O zamanlar Tbilisiyə yaxın, Boris Dzneladzenin adını daşıyan komsomol şəhərciyinin açılış mərasimi keçirilirdi. Toplantı müttəfiq respublikaların komsomol rəhbərlərinin iştirakı ilə böyük bir təntənəyə çevrilmişdi. Gürcüstan komsomolunun birinci katibi Jiuli Şartava məclisin yüksək səviyyədə keçirilməsi üçün bütün imkanları səfərbər etmişdi. Açılış mərasimində iştirak edənlər arasında o zaman SSRİ miqyasında tanınmış və artıq özünü böyük siyasi lider kimi təsdiqləmiş Heydər Əliyev də var idi.

Tədbir çərçivəsində ağacəkmə aksiyası da təşkil edilmişdi. Bu aksiyada iştirak, mənim üçün sıradan bir mərasim deyildi. O gün mən bir şeyi daha aydın dərk etdim – Heydər Əliyev insanlara təkcə sözlə deyil, əməllə də nümunə olurdu. O, təbiətə, gələcək nəsillərə münasibətdə səmimi idi. Ağac əkmək onun üçün rəmzi bir addım idi – yaşamaq, yaşatmaq, kök salmaq, gələcək üçün sabitlik yaratmaq anlamında. O gün, bir gənc lider kimi, Ulu öndərlə birgə fiziki əməkdə iştirak etmək mənim üçün böyük qürur idi. Bu, həm də mənə liderlik məktəbi oldu – sadəliyin, məsuliyyətin və şəxsi nümunənin gücünü həmin anda bütün varlığımla hiss etdim.

İllər keçdi, siyasi şərait dəyişdi, SSRİ dağıldı, regionda yeni geosiyasi reallıqlar formalaşdı. Mən artıq Gürcüstan parlamentinin deputatı idim. Gürcüstanda yaşayan azərbaycanlılar üçün 1990-cı illərin ortaları böyük çətinliklər dövrü idi – həm sosial, həm siyasi, həm də mədəni baxımdan. Belə bir zamanda 1996-cı il yanvarın 5-də Ulu öndərlə ikinci görüşümüz baş tutdu. Bu görüş təkcə xatirə kimi yox, həm də Gürcüstanda yaşayan azərbaycanlıların taleyində dönüş nöqtəsi kimi yadda qaldı.

Həmin vaxt artıq Qardabani rayonundan Gürcüstan parlamentinə deputat seçilmişdim. Gürcüstanda yaşayan azərbaycanlı deputatlar olaraq Heydər Əliyevlə görüşümüz zamanı bir çox məsələlər – o cümlədən azərbaycanlıların sosial vəziyyəti, təhsili və mədəni irsi müzakirə edildi.

Onu da qeyd edim ki, həmin günlərdə azərbaycanlı icmanın sosial, mədəni və iqtisadi hüquqları ilə yanaşı, regionda baş verən geosiyasi proseslər də bizim üçün həssas əhəmiyyət daşıyırdı. Görüşdə bir məsələni – yanacaqla bağlı ciddi narahatlığı – şəxsən mən Ulu öndərin diqqətinə çatdırdım.

Ulu öndər səmimi və açıq söhbət zamanı bildirdi ki, Gürcüstanda yaşayan azərbaycanlılara olan xüsusi münasibəti və hörmətinə görə, Azərbaycan bu ölkəyə yanacaq yardımı göstərir. Bu dəstək, əslində, həm Gürcüstanın çətin iqtisadi durumdan çıxmasına yardım, həm də orada yaşayan soydaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması üçün atılmış humanist addım idi.

Həmin görüşdə mən vacib məsələ qaldırdım: Mirzə Fətəli Axundzadənin Tbilisidəki evinin muzeyə çevrilməsi. Ulu öndər bu təklifə böyük maraqla yanaşdı. Axundzadənin maarifçilik ideyalarını və Azərbaycan ədəbiyyatındakı rolunu yüksək qiymətləndirən Heydər Əliyev onun evinin bərpası və muzey kimi fəaliyyətə başlaması üçün dərhal müvafiq göstəriş verdi. Qısa zamanda bina dövlət vəsaiti ilə alındı, bərpa edildi və muzey kimi fəaliyyətə başladı. Bu, sadəcə bir memarlıq obyektinin qorunması deyildi – bu, milli kimliyin, maarifçiliyin və mədəniyyətin yaşadılması idi.

Sonra Nəriman Nərimanovun doğma ocağı da ədibin ev–muzeyinə çevrildi. Gürcüstan-Azərbaycan mədəni əlaqələr cəmiyyətinin nəzdində İbrahim İsfahanlı adına teatrın fəaliyyəti bərpa olundu. Az qala unudulmaqda olan bu səhnə sənətinin yaşadılması üçün görülən tədbirlər və sənətkarın 100 illik yubileyinin təntənəli şəkildə qeyd edilməsi, milli yaddaşın qorunması istiqamətində ciddi addım idi. Bina üzərində xatirə lövhəsinin vurulması bu irsin unudulmayacağına verilən rəmzi zəmanət idi.

Bundan başqa, Cəlil Məmmədquluzadənin Tbilisidəki ev–muzeyinin yaradılması da həllini tapdı. "Molla Nəsrəddin" jurnalının redaksiyası və "Qeyrət" mətbəəsi də daxil olmaqla bir sıra məkanlarda həyata keçirilən təmir və bərpa işləri nəticəsində həmin məkanlar yalnız xatirə nöqtəsi deyil, həm də canlı mədəniyyət ocaqlarına çevrildi. Burada təşkil edilən sərgilər, tədbirlər və ədəbi gecələr gənc nəsil üçün milli özünüdərk mənbəyi oldu. Heydər Əliyevin təşəbbüsü ilə yaradılan bu muzeylər həm Gürcüstan ərazisindəki azərbaycanlıların milli ruhunu gücləndirdi, həm də Azərbaycan mədəniyyətinin sərhədsizliyini simvollaşdırdı.

Ulu öndərin Gürcüstanda həyata keçirdiyi ən önəmli işlərdən biri də azərbaycanlı şəxsiyyətlərin məzarlarının qorunması və abadlaşdırılması idi. Tbilisidəki nəbatat bağında yerləşən və tarixə şahidlik edən bu müqəddəs məkanlarda Mirzə Fətəli Axundovun büstünün bərpası, Mirzə Şəfi Vazehin qəbirüstü abidəsinin ucaldılması və Həsən bəy Ağayevin məzarının əsaslı şəkildə abadlaşdırılması, Azərbaycanın klassik düşüncə, poeziya və dövlətçilik irsinin fiziki daşıyıcılarının bərpası kimi dəyərləndirilməlidir. Bu məzarlar təkcə ziyarət yerləri deyil, həm də milli yaddaşın və tarixi öhdəliyin canlı simvollarına çevrildi.

1996-cı ilin martında Heydər Əliyevin Fətəli xan Xoyskinin məzarı üzərindəki büstün açılışında iştirakı və orada etdiyi tarixi çıxış bu siyasətin ideoloji dərinliyini ortaya qoydu. Həmin çıxışda o, Azərbaycan Demokratik Respublikasının yaranma şəraiti, Tbilisinin bu prosesdəki rolu və Fətəli xan Xoyskinin müstəqil dövlətçilik tariximizdəki əhəmiyyətini geniş təhlil etdi. Bu nitqdə o həm də tarixi şəxsiyyətlərə dövlət səviyyəsində verilən dəyəri vurğulamaqla yanaşı, Gürcüstanla Azərbaycan arasında tarixi dostluq münasibətlərinin dərin köklərinə diqqət çəkdi.

Sözümə davam edərək elə buradaca qeyd etmək istəyirəm ki, Heydər Əliyevin bu fəaliyyəti yalnız mədəni irsin qorunması ilə yekunlaşmırdı. O, Gürcüstanla Azərbaycan arasında mədəni inteqrasiyanın, xalqların qarşılıqlı hörmət və etimadının möhkəmləndirilməsi üçün mədəniyyətin gücünə inanırdı. Onun Eduard Şevardnadze ilə olan səmimi münasibətləri və Gürcüstanda gördüyü ehtiram, bu münasibətlərin yalnız rəsmi protokol çərçivəsində deyil, eyni zamanda, xalqların dostluq iradəsinə söykəndiyini göstərirdi.

Heydər Əliyev Gürcüstanda gördüyü bu işlərlə bir daha sübut etdi ki, mədəniyyət və tarix dövlətin ideoloji və mənəvi dayaqlarıdır. Onun təşəbbüsü ilə həyata keçirilən hər bir layihə – istər muzeyin yaradılması, istər teatrın bərpası, istərsə də məzarların abadlaşdırılması – xalqın öz kökləri ilə bağının qorunmasına və gücləndirilməsinə xidmət edirdi. Bu siyasət həm də Azərbaycan xalqının dövlətçilik ənənələrinə və şəxsiyyətlərinə olan ehtiramının real təzahür forması idi.

Ulu öndərin Gürcüstanda yaşayan azərbaycanlılara göstərdiyi qayğı bunlarla məhdudlaşmırdı. Təhsil məsələlərinə də xüsusi önəm verən Heydər Əliyev, Marneuli, Qardabani, Bolnisi və digər bölgələrdə Azərbaycan məktəblərinin qorunması və inkişafına şərait yaratdı. Onun ana dilində təhsilə verdiyi üstünlük, əslində, milli özünüdərkin təminatına xidmət edən bir strategiya idi. Bu sahəyə verilən dəstək sayəsində minlərlə uşaq doğma dildə təhsil alaraq öz mədəniyyətinə və kimliyinə bağlı böyüdü.

Milli bayramların, musiqili tədbirlərin, ədəbi gecələrin və mədəni festivalların təşkil olunması, Heydər Əliyevin Gürcüstanda yaşayan azərbaycanlılara verdiyi mənəvi dəstəyin başqa bir təzahür forması idi. Bu tədbirlər milli ruhun qorunmasına, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasına və ictimai birliyin güclənməsinə xidmət edirdi. Heydər Əliyevin yeritdiyi siyasətin nəticəsi idi.

1997-ci ildə Gürcüstan parlamentinin sədri Zurab Jvaniyanın rəhbərliyi ilə nümayəndə heyəti Azərbaycana səfərə gəldi. Heyətin tərkibində dörd azərbaycanlı deputat da var idi. Görüşdən sonra Heydər Əliyevin adından şam yeməyi təşkil olundu. Həmin ziyafətdə mənə də sözü verildi. Bu, mənim üçün böyük şərəf idi.

Görüş zamanı Zurab Jvaniya 1901-ci ildə Zubalaşvililər tərəfindən inşa edilmiş bir binanın Gürcüstan səfirliyinə verilməsini xahiş etdi. Heydər Əliyev Azərbaycanın xarici işlər naziri Həsən Həsənov söhbətin hansı bina ilə bağlı olduğunu soruşdu. Söhbətin hansı binafan getdiyini bildikdə Heydər Əliyev həmin bina haqqında geniş və ətraflı məlumat verdi. Biz onun bu məlumatlılığına heyran qaldıq. Ertəsi gün gedib həmin binaya baxdıq – çox gözəl və tarixi bir bina idi. Qeyd edim ki, həmin bina Bakı şəhəri 26 Bakı Komissarı (İndiki Sabail) rayonun raykom binası idi.

Sonralar Azərbaycanda Eduard Şevardnadze ilə gedən nemayəndə heyətində mən də vardım. Bu binada Gürcüstan səfirliyi açışanda hər iki prezident çıxış etmiş və çoxlu zarafatlar etmişdilər. Onların hər ikisi də mahir söz ustadı və yumora meyilli idilər. Ertəsi gün nümayəndə heyətimizin şərəfinə konsert təşkil olundu. Konsertdən sonra Heydər Əliyev bizi səhnəyə çıxartdı, müğənni və rəqqasələrə təşəkkür etdi. Qeyd edim ki, bu, onun üçün səciyyəvi idi – tədbir bitdikdən sonra təşəkkür etməyi heç vaxt unutmazdı. Onun güclü hafizəsi bizi hər zaman heyrətləndirirdi.

1998 və ya 1999-cu ilin yazında Vətəndaş İttifaqı Partiyasının baş katibi M.Maçavarianinin rəhbərliyi ilə Gürcüstan parlamentinin nümayəndə heyəti yenidən Bakıya gəldi. Heyətdə milliyyətcə erməni olan deputat Givi Şuğarov da var idi. Onun iştirakı bəziləri tərəfindən birmənalı qarşılanmadı, hətta bizi bu səbəbdən qınayanlar da oldu.

Heydər Əliyevlə görüşdə bu məsələni qeyd etdim: "Bizimlə birlikdə erməni deputat da var. Gürcüstan parlamentinin azərbaycanlı və erməni deputatları olaraq, Azərbaycanla Ermənistan arasında gələcəkdə dost münasibətlərin formalaşmasına töhfə vermək istəyirik".

Ümummilli lider bu yanaşmanı çox bəyəndi. Onun bu səmimi dəstəyi bizi ruhlandırdı. Bəli, ulu öndər Heydər Əliyevin Gürcüstanda yaşayan soydaşlarımıza verdiyi dəstək, onların mədəni, siyasi və mənəvi inkişafına göstərdiyi qayğı unudulmazdır. Bu siyasət nəticəsində təkcə bir dövrün problemləri həll olunmadı, eyni zamanda, gələcək nəsillər üçün sağlam və güvənli bünövrə quruldu. Onun irsi, ideyaları və xatirəsi bu gün də yaşayır, bizi birləşdirir, ruhlandırır və yolumuza işıq salır. Biz bu dostluğu möhkəmləndirməli, inkişaf etdirməliyik.

***İsak NOVRUZOV,***
***Gürcüstan Azərbaycanlıları Ağsaqqallar Şurasının sədri,***
***energetika nazirinin keçmiş müavini,***
***Parlamentin sabiq deputatı***

# Heydər Əliyevin ümummilli liderlik salnaməsi



*(əvvəli qəzetin ötən saylarında)*

## 9. Azərbaycana ikinci rəhbərlik (Bakı, 1993–2003)

Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycan Respublikası dünyanın əsas neft istehsalı mərkəzlərindən birinə çevrilmişdir.

Neftlə bərabər, sənayenin digər sahələri, xüsusilə qabaqcıl texnika və texnologiyaya əsaslanan sahələrin inkişafı diqqət mərkəzində olmuşdur. Bunun üçün sənayenin əsas göstəricilərinə və sahələr üzrə sənaye məhsullarının həcminə dair məlumatlara nəzər salmaq kifayətdir. Heydər Əliyev 1993-cü ildə hakimiyyətə gələrkən Azərbaycan Respublikasında olan sənaye müəssisələrinin sayı 2 min 306 idisə, 2002-ci ildə bu rəqəm 5 min 202, yaxud 2 min 896 (55, 67 faiz) müəssisə çox idi. Sənaye sahələri üzrə məhsulun həcmində də irəliləyişlər çox idi. Mədənçıxarma sənayesi üzrə bu göstərici 1993-cü ildəki 9,4 milyard manatdan artaraq 9,7 milyard manata çatmışdı. Emal sənayesində bu göstərici müvafiq olaraq 99,2 faiz və 8,3 milyard manat olmuşdu.

Sənaye ilə birgə kənd təsərrüfatının ümumi məhsulunda da ciddi artım müşahidə edilmişdi. Əgər 1993-cü ildə kənd təsərrüfatında ümumi məhsul istehsalı 52,3 milyard manat idisə, 2002-ci ildə bu rəqəm 6,4 milyard manata yüksəlmişdi.

Respublika iqtisadiyyatının əsaslı tikinti, rabitə-nəqliyyat və digər sahələri də sabit inkişaf yoluna qədəm qoymuşdu. Heydər Əliyev iqtisadi siyasətinin ən uğurlu cəhətlərindən biri də planlı-sosialist təsərrüfatından azad bazar iqtisadiyyatina keçilməsinin təmin edilməsi olmuşdu. Özəlləşdirmə siyasəti uğurla həyata keçirilmiş, yeni sahibkarlar təbəqəsi təşəkkül tapmış, istehsalın strukturunda özəl bölmənin payı artmışdı.

Heydər Əliyevin idarəetmə siyasətində xalqın rifahının yüksəldilməsi, həyat səviyyəsinin yaxşılaşdırılması, bir sözlə, bütün tədbirlərin sosialyönümlü olması həmişə önəmli yerə malik olmuşdur. Bu, ilk növbədə, dövlət büdcəsindən sosial məsələlərin həlli üçün ayrılan vəsaitin ildən-ilə artırılmasmda əksini tapmışdır. Digər tərəfdən, əhalinin pul gəlirləri də yüksələn xətlə çoxalmışdır. Əgər 1993-cü ildə hər nəfərə düşən pul gəlirləri 18,4 manat olmuşdusa, 2002-ci ildə bu rəqəm 2 min 629 manat olmuşdur. Əhalinin pul gəlirlərinin əsasını təşkil edən əmək haqqı, pensiya təminatı artırılmışdır. Bununla birgə, pul gəlirlərinin yüksəlməsində sahibkarların rolu genişlənmişdir. Qaçqınların və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılmışdır. Bunun üçün 1998-ci il sentyabrın 17-də xüsusi Dövlət Proqramı qəbul edilmişdir. Yoxsulluğun azaldılması da əsas istiqamətlərdən biri idi. Bunun üçün dövlətin sosial sahədə tədbirlərinin genişləndirilməsi ilə birgə, yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə xüsusi fikir verilirdi.

Heydər Əliyevin səyi nəticəsində Azərbaycanda vətəndaş cəmiyyəti qurulması sahəsində uğurlu addımlar atılmışdır.

O, vətəndaş cəmiyyətinin tərkib hissəsi kimi çoxpartiyalı sistemin təşəkkülünə diqqət yetirirdi. Partiya quruculuğu sahəsində böyük təcrübəyə malik olan Heydər Əliyevin rəhbərliyi ilə YAP-ın cəmiyyətdə mövqe və nüfuzu artmağa başladı. YAP müxalifət partiyasından hakim partiyaya çevrildi. YAP-ın aparıcı qüvvə olduğu çoxpartiyalı sistem yarandı.

Azərbaycanda qeyri-hökumət təşkilatlarının yaranması və fəaliyyətinin genişlənməsində də yeniliklər özünü göstərmişdi. Ölkədə qeydiyyatdan keçmiş 1400-dən çox qeyri-hökumət təşkilatının fəaliyyət göstərməsi bunun bariz nümunəsi idi.

Heydər Əliyev cəmiyyət həyatının inkişafında söz və mətbuat azadlığına böyük önəm vermişdir. Bu sahədə ardıcıl və kompleks tədbirlər həyata keçirilmişdir. Onların içərisində "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman xüsusi yer tutur. Bu fərmanla, faktiki olaraq, senzura qurumu olan Mətbuatda Dövlət Sirlərini Mühafizə edən Baş İdarə ləğv olunmuşdur.

Heydər Əliyev Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsini daim diqqət mərkəzində saxlamışdır. Bu məqsədlə milli təhlükəsizlik orqanları möhkəmləndirilmiş, Azərbaycan xalqına qarşı yönəlmiş terror və casusluq fəaliyyətinin üstünün açılması üzrə işlər gücləndirilmişdir. Azərbaycanda əsl ordu quruculuğu, bilavasitə, Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin əməli fəaliyyəti nəticəsində ordudakı başıpozuqluq aradan qaldırıldı. 1993-cü il noyabrın ortalarından Ermənistanın yeni hücumlarının qarşısı alındı. 1994-cü il yanvarın 5-də Füzuli rayonunun Horadiz qəsəbəsilə birgə 22 kənd düşməndən təmizləndi. Cəbrayıl və Kəlbəcər rayonunun bir sıra yaşayış məskənləri azad edildi.

Azərbaycana alçaldıcı müqaviləni qəbul etdirmək üçün düşmən aprelin 10-da güclü hücuma keçdi. Azərbaycan ordusu bunun qarşısını ləyaqətlə alıb, düşmənin planını boşa çıxardı. 1994-cü il mayın 8-də atəşkəs haqqında Bişkek (Qırğızıstan) protokolu imzalandı. Azərbaycan vəziyyətdən istifadə edərək nizami ordu hissələrini möhkəmləndirdi, onun professional zabit kadrları ilə möhkəmləndirilməsini, hərbi texnika ilə təchizatını yaxşılaşdırdı. Azərbaycan ordusunun beynəlxalq əlaqələri də fəallaşmağa başladı.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə olduğu kimi, bu dövrdə də milli-mənəvi inkişafa xüsusi qayğı göstərilmişdir. Elm və təhsil sahəsində yeni uğurlar əldə edilmişdir. Bazar iqtisadiyyatına keçidin elm və təhsil sahəsində yaratdığı problemlərin həllinə xüsusi diqqət yetirilmişdir.

Yeni cəmiyyət formalaşması mədəniyyətin inkişafında daha dərin dəyişikliklərlə müşahidə edilmiş, mədəniyyətin bütün sahələrinə dövlət qayğısı artırılmışdır. Heydər Əliyevin Azərbaycançılıq ideologiyası milli-mənəvi inkişafın əsas zəmini olmuşdur.

Ulu öndər bu barədə demişdir: "Öz ürəyimdən gələn fikirləri bir daha bildirmək istəyirəm ki, hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq...

Azərbaycanlılar harada yaşamalarından asılı olmayaraq, daim öz milli, mənəvi dəyərlərinə, milli köklərinə sadiq olmalıdırlar. Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır. Azərbaycan dövləti müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan bütün azərbaycanlılar üçün əsas ideya olub. Azərbaycançılıq öz milli–mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Heydər Əliyevin Azərbaycana ikinci rəhbərliyi dövründə ən böyük xidmətlərindən biri də müstəqil Azərbaycan Respublikasının xarici siyasət xəttini hazırlaması və həyata keçirməsi olmuşdur. Heydər Əliyev xarici siyasət xəttinin əsas istiqaməti haqqında demişdir: "Azərbaycan öz coğrafi və coğrafi-siyasi mövqeyinə görə Avropa ilə Asiyanın qovşağındadır, lakin həm Avropa, həm Asiya, həm də Qərb yarımkürəsinin ölkələri ilə, dünyanın bütün ölkələri ilə xoş münasibətlər yaratmağa çalışır... Əlbəttə, bu zaman Azərbaycan qonşu ölkələrlə daha sıx əlaqələr yaradılmasına böyük əhəmiyyət verir, şimal qonşumuz Rusiya ilə, habelə bizimlə həmsərhəd olan Türkiyə və İranla aramızda normal münasibətlər var. Biz Gürcüstanla normal münasibətlər yaratmışıq, lakin aramızda böyük sərhəd olan Ermənistanla müharibə vəziyyətindəyik".

Xarici siyasətin mərkəzi məsələsini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətindəki fəaliyyət təşkil edirdi. Ermənistan Azərbaycana qarşı elan edilməmiş müharibəyə başlamış, respublika ərazisinin 20%-ni işğal etmişdir. BMT Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılması haqqında 822, 853, 874 və 884-cü qətnamələr qəbul etmişdir. ATƏM-in (sonralar ATƏT) Nazirlər Şurası isə problemi həll etmək məqsədilə Minsk qrupu yaratmışdır. Bu, Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq planlarının qarşısını ala bilməmişdir.

Heydər Əliyev vəziyyəti nəzarət altına almaq məqsədilə atəşkəs haqqında razılaşmaya nail oldu. ATƏM və onun Minsk qrupu çərçivəsində fəaliyyət gücləndirildi. Heydər Əliyevin səyi nəticəsində ATƏT-in Lissabon sammitində (1996-cı il) Ermənistan istisna olmaqla, 53 dövlət onun ərazi bütövlüyünü tanıdı. Bu sammitdə Minsk qrupu yeni formatda təşkil edildi. 1999-cu ilin aprelindən başlayaraq münaqişənin həlli üçün Azərbaycan və Ermənistan prezidentlərinin dialoqları keçirilməyə başladı. Heydər Əliyev bütün səviyyələrdə Azərbaycanın ərazi bütövlüyünü qətiyyətlə müdafiə etmiş, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi üçün var qüvvəsi ilə çalışmışdır. Azərbaycanın xarici siyasətinin sülh və mehriban dostluq prinsipinə əsaslanması digər qonşular ilə münasibətdə özünü daha aydın göstərmişdir. Heydər Əliyev ilk xarici səfərini Rusiya Federasiyasına etmiş, şimal qonşusu ilə səmərəli münasibətlər yaratmağa nail olmuşdur.



Azərbaycanın strateji tərəfdaşı olan qardaş Türkiyə ilə münasibətlər Heydər Əliyev tərəfindən tarixdə analoqu olmayan bir səviyyəyə qaldırılmış, "bir millət, iki dövlət" aforizmi münasibətlərin sadə və aydın ifadəsinə çevrilmişdir.

Heydər Əliyev Gürcüstanla münasibətləri də strateji əməkdaşlıq səviyyəsinə qaldırmağa nail olmuşdur. Azərbaycan dövlətinin xarici siyasət xəttində ABŞ-la əməkdaşlığa böyük diqqət verilirdi. Bunun nəticəsi idi ki, ABŞ Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etmiş, Azərbaycanın mühüm iqtisadi tərəfdaşlarından birinə çevrilmişdir.

Heydər Əliyev uğurlu diplomatik fəaliyyəti nəticəsində 1992-ci ildə ABŞ Konqresinin "Azadlığı Müdafiə Aktına 907-ci əlavənin" fəaliyyətinin dayandırılmasına nail oldu. Azərbaycan həm Avropa, həm də Asiyanın nüfuzlu dövlətləri ilə yüksək ikitərəfli münasibətlər yaratdı. Heydər Əliyevin xarici siyasət xətti Azərbaycanın dünya birliyində nüfuzunu artırmış, beynəlxalq təşkilatlarla əlaqələrini yeni səviyyəyə yüksəltmişdir. Azərbaycan Respublikası 2001-ci ildə Avropa Şurasına (AŞ) üzvlüyə qəbul olunmuşdur.

Heydər Əliyevin unudulmaz dövlətçilik fəaliyyəti ona ölkə daxilində olduğu kimi, beynəlxalq aləmdə də böyük nüfuz qazandırmış, yüksək mükafatlara, orden və medallara layiq görülmüşdür.

Heydər Əliyev, demək olar ki, həyatının bütün dövrlərində onun miqyasına uyğun olaraq, müəyyən maneələr ilə rastlaşmış, onları dəf etməyə və daim irəliləməyə nail ola bilmişdir.

Məhz bu maneələr, onların dəf edilməsi naminə aparılan mübarizələr onun siyasi iradəsinə təsir edə bilməsə də, tədricən səhhətində problemlər yarada bilmişdir. Moskvada keçirdiyi infarktın nəticələri də özünü göstərməkdə idi. O, 2003-cü il aprelin 19-da öz yetişdirməsi olan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 30 illiyi münasibətilə tədbirdə iştirak etmişdir. Aprelin 21-də isə Respublika Sarayında hərbi liseyin 30 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində nitq söyləmişdir. Kürsüdə nitq söyləyən zaman geniş infarkt keçirmiş, buna baxmayaraq, yenidən səhnəyə qayıtmış və nitqini tamamlamışdır. Bu iki ziddiyyətli proses onun həyatının daha bir mərhələyə qədəm qoyduğunun əksi idi.

Heydər Əliyev ömrünün son, bu dəfə həyat uğrunda mübarizəsinə qədəm qoymuşdur. O, bu hadisədən sonra yenilməz iradə nümayiş etdirərək, may ayının 5-dək fəaliyyətini davam etdirmişdir. O, bu dövrdə (22 aprel–5 may) 3 dəfə - ABŞ-ın Azərbaycandakı səfiri, İranın xarici işlər naziri Kamal Xarrazini və Ukraynanın səfiri Boris Aleksenko ilə görüşlər keçirmiş, 13 dəfə müxtəlif ölklələrin rəhbərlərinə və digər şəxslərə məktub və ya müraciət ünvanlamışdır.

Heydər Əliyev yalnız mayın 5-də müayinə olunmaq üçün Ankaradakı Gülhanə Hərbi Tibb Akademiyasına (5–12 may) getmişdir. Heydər Əliyev 10 mayda anadan olmasının 80 illiyini də məhz burada qeyd etməli olmuşdur. Həmin gün Türkiyənin prezidenti, baş naziri və müavini, doqquzuncu prezident Süleyman Dəmirəl və Türkiyə Silahlı Qüvvələrinin baş qərargah rəisi Heydər Əliyevi ziyarət etmişdir.

May ayının 12-də müayinəsini başa çatdıraraq fəaliyyətini yenidən (13 may–8 iyul) davam etdirmişdir. Müayinədən qayıdan Heydər Əliyev aktiv fəaliyyətini davam etdirmiş, bu müddət ərzində 17 görüş keçirmişdir. Son görüş Kiyev vilayəti administrasiyasının sədri Anatoli Zasuxanın başçılıq etdiyi nümayəndə heyəti ilə olmuşdur. Heydər Əliyev bu dövrdə müxtəlif ünvanlara qırx altı dəfə müraciət etmişdir.

Heydər Əliyev iyulun 8-dən müayinə olunmaq üçün yenidən Gülhanə Hərbi Tibb Akademiyasına getmişdir. Bu barədə Azərbaycan Respublikası Prezidentinin Mətbuat Xidməti məlumat vermişdir. Məlumatda deyilirdi ki, "Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iyulun 8-də Gülhanə Tibbi Akademiyasında tibbi müayinədən keçmək üçün Ankaraya getmişdir". O, iyulun 8-dən-avqustun 6-dək müalicəsini burada davam etdimişdir. Bu dövrdə Azərbaycanın siyasi həyatında mühüm hadisə baş verdi. Heydər Əliyev avqustun 2-də İlham Əliyevin Baş nazir təyin edilməsi üçün Milli Məclisə müraciət etmiş, Milli Məclisin razılığından sonra İlham Əliyev avqustun 4-də baş nazir təyin edilmişdir. Beləliklə, çox qısa olsa da, gələcək prezidentin həyatında baş nazirlik təcrübəsi də yaranmışdır.

Bu dövrdən başlayaraq, Heydər Əliyev üçün məktub və müraciətlər əsas ünsiyyət vasitəsinə çevrilmişdir. Qeyd edilən müddətdə iyirmi bir belə məktub və müraciət qeydə alınmışdır. Heydər Əliyev Gülhanə Hərbi Tibb Akademiyasından sonra müalicəsini ABŞ-ın Klivlend klinikasında (6 avqust–12 dekabr) davam etdirmişdir. Qeyd edilən müddətin birinci dövründə (6 avqust–31 oktyabr) Heydər Əliyev prezidentlik fəaliyyətini davam etdirmiş, əlli bir dəfə müxtəlif ünvanlara məktub və müraciətlər göndərilmişdir.

Bu dövr eyni zamanda, Azərbaycanda növbəti prezident seçkilərinin keçirilməsi ilə əlamətdar idi. Heydər Əliyev oktyabrın 1-də Azərbaycan xalqına müraciət edərək, İlham Əliyevə səs verməyə çağırmışdır. Müraciətdə deyilirdi: "Üzümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

O, oktyabrın 10-dakı ikinci müraciətində isə prezident seçkilərində namizədliyini özünün siyasi varisi, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, Baş nazir İlham Əliyevin xeyrinə geri götürdüyünü bəyan etmişdir. İlham Əliyev 15 oktyabrda Azərbaycan Respublikasının yeni prezidenti seçilmişdir. Oktyabrın 20-də Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının prezident seçkilərinə dair protokolu təsdiq edilmiş, oktyabrın 28-də Konstitusiya Məhkəməsi prezident seçkilərinin nəticələrinin təsdiq etmiş və İlham Əliyevin prezident seçilməsini rəsmən elan edilmişdir.

Oktyabrın 31-də Heydər Əliyevin fərmanı ilə İlham Əliyevin Baş nazir vəzifəsindən azad edilmiş, elə həmin gün onun andiçmə mərasimi keçirilmişdir. İlham Əliyev andiçmə mərasimində demişdir: "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm. Mən bu gün bu yüksək kürsüdən əziz prezidentimiz cənab Heydər Əliyevə müraciət edərək deyirəm: əziz prezident, əsərin olan müasir Azərbaycanı gücləndirəcəyik, zənginləşdirəcəyik, hərtərəfli inkişaf etdirəcəyik, Sizin yolunuzla yeni qələbələrə doğru gedəcəyik".

Beləliklə, Heydər Əliyevin Azərbaycan Respublikasında ikinci hakimiyyəti ən yüksək dövlətçilik ənənəsinə uyğun olaraq başa çatmış, hakimiyyət Konstitusion yol ilə Prezident İlham Əliyevə keçmişdir. Bu siyasi nailiyyət Azərbaycan dövlətçiliyinin tərəqqisi üçün möhkəm baza yaratmışdır.

## 10. Post-prezidentlik dövrü (ABŞ, 2003, 31 oktyabr–12 dekabr)

İlham Əliyevin prezident fəaliyyətinə başlaması ilə Heydər Əliyevin həyatında yeni bir dövr – post-prezidentlik dövrü başlamışdır. Bu dövrdə (31 oktyabr–12 dekabr) görkəmli dövlət xadiminin Klivlend klinikasında müalicəsi davam olunmuşdur. Bu müalicə istənilən nəticəni verməmiş, Heydər Əliyev 2003-cü il dekabrın 12-də gözlərini həyata əbədi yummuşdur.

Bu barədə rəsmi məlumatda deyilirdi: "Azərbaycan xalqı bu günlər sonsuz kədər hissi içərisindədir. Otuz ildən artıq bir dövrdə ölkəmizə rəhbərlik etmiş görkəmli şəxsiyyət, dünya şöhrətli siyasətçi və dövlət xadimi, müstəqil Azərbaycan Respublikasının qurucusu, Yeni Azərbaycan Partiyasının yaradıcısı Heydər Əlirza oğlu Əliyevin əbədiyyətə qovuşması Vətənimiz və xalqımız üçün əvəzsiz itkidir. Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi dövrdə daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır".

Heydər Əliyevin cənazəsi dekabrın 14-də Bakıya gətirilmiş, Ümumxalq matəm günü keçirilmişdir. Bu gündə dünyanın bir sıra dövlətlərinin başçıları və nümayəndə heyətləri Azərbaycanın böyük oğlunun vəfatı ilə əlaqədar Azərbaycan xalqına başsağlığı vermişdir. Heydər Əliyev dekabrın 15-də Birinci Fəxri Xiyabanda dəfn edilmişdir.

Təqdim edilən bioqrafik icmal Heydər Əliyevin ümummilli liderlik tarixinin əsas istiqamətlərini göz önündə canlandırır. Lakin Ümummilli liderin həyat bioqrafiyası onun əbədiyyətə qovuşmasından sonra da yolumuza işıq salan irsi ilə davam edir. Bu baxımdan müasir Azərbaycanın bütün uğurlarında bu irsin xüsusi payı var.

***Kərim ŞÜKÜROV,***
***AMEA Tarix və Etnologiya İnstitutunun direktoru,***
***tarix elmləri doktoru, professor***

# Xalqın qəlbində ucalmış Əbədiyyət zirvəsi




















## Konstitusiya Məhkəməsi

**Dekabrın 12-də, anım günündə Konstitusiya Məhkəməsinin sədri, hakimləri və Aparatın məsul əməkdaşları Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə gül dəstələri qoyublar, əziz xatirəsinə dərin hörmət və ehtiramlarını bildiriblər. Ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.**

Sonra Konstitusiya Məhkəməsində ümummilli lider Heydər Əliyevin anım gününə həsr edilmiş tədbir keçirilib. Sədr Fərhad Abdullayev bildirib ki, Azərbaycan dövlətçilik tarixində müstəsna xidmətləri olan dahi rəhbər öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsində, müasir Azərbaycan dövlətinin qurulmasında və xalqımızın müstəqilliyə qovuşmasında böyük pay sahibi olub. Qeyd olunub ki, Ulu öndərin siyasi kursunun davamçısı Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində müstəqil və suveren Azərbaycanın dinamik inkişafı, beynəlxalq miqyasda sarsılmaz mövqeyi və böyük nüfuzu dahi rəhbərin arzularının çiçək açması, həyata keçməsidir.

Tədbirdə Konstitusiya Məhkəməsinin hakimi Fikrət Məmmədovun "Heydər Əliyev və Azərbaycan ədliyyəsi" kitabının təqdimatı olub. Kitabda dahi şəxsiyyət Heydər Əliyevin həyat yolu, dövlətçilik fəlsəfəsi və Azərbaycan tarixində həlledici rolu sistemli şəkildə təhlil edilib.

## Baş Prokurorluq

**Azərbaycan Respublikasının Baş Prokurorluğunda dünya şöhrətli siyasi xadim Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi rəhbərliyin müstəqil və müasir Azərbaycanın qurucusunun büstünü ziyarət etməsi və önünə gül dəstələri qoyması ilə başlanıb.**

Ulu öndər Heydər Əliyevin və şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla anılıb və Dövlət Himni səsləndirilib. Mərasimdə çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi Heydər Əliyevin dövlət quruculuğundakı misilsiz xidmətlərinin məntiqi davamı olmaqla, onun dövlətçilik irsinə dərin ehtiramın göstəricisidir. Ulu öndərin həm sovet dövründə respublikamızı böyük inkişaf yoluna çıxarması, həm 20 Yanvar faciəsi zamanı xalqın hüquqlarını cəsarətlə müdafiə etməsi, həm də 1993-cü ildə ölkəyə rəhbərliyə qayıdaraq siyasi xaosu aradan qaldırması müasir Azərbaycanın taleyində həlledici rol oynayıb. 1994-cü il atəşkəsi, "Əsrin müqaviləsi"nin imzalanması, qlobal enerji və infrastruktur layihələrinin həyata keçirilməsi, eləcə də hüquq sistemində aparılan islahatlar Azərbaycanın dayanıqlı və güclü dövlətə çevrilməsi üçün möhkəm baza yaratmışdır.

Baş prokuror vurğulayıb ki, Azərbaycanın 1995-ci ildə qəbul edilmiş Konstitusiyasının hazırlanması və qəbul olunması ümummilli lider Heydər Əliyevin tarixi dövlətçilik xidmətlərinin ən mühüm mərhələlərindən biridir. Bu gün ölkədə hüququn aliliyinin təmin olunması və institusional islahatların uğurla həyata keçirilməsi məhz Heydər Əliyevin müəllifi olduğu Konstitusiyanın verdiyi möhkəm hüquqi baza üzərində qurulub.

Eyni zamanda, Heydər Əliyev irsinin prokurorluq orqanlarının fəaliyyətində daim əsas istiqamət kimi rəhbər tutulduğu və hüququn aliliyinin təmin olunması istiqamətində ardıcıl işlər həyata keçirildiyi diqqətə çatdırılıb.

Mərasimdə Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi Sahib İsmayılov "Ümummilli liderin konstitusiya quruculuğu irsi, müstəqil və suveren Azərbaycan modeli" mövzusunda çıxış edib.

Sonda Ulu öndərin xatirəsinə həsr olunmuş "Xalqın Adamı: Xalqını zülmətdən işığa çıxaran böyük xilaskar" sənədli filmə baxılıb.

## Maliyyə Nazirliyi

**Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edən Maliyyə Nazirliyinin kollektivi möhtəşəm abidə önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramını bildirib.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da xatirəsi ehtiramla anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Azərbaycanda milli dövlət quruculuğunda, cəmiyyət və dövlətin bütün sahələrində qazanılan nailiyyətlər Ulu öndərin adı ilə bağlıdır. Məhz ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində əldə olunmuş nailiyyətlər sonrakı illərdə ölkə iqtisadiyyatının və maliyyə sisteminin davamlı inkişafı üçün möhkəm zəmin yaratmışdır. Öz siyasi dühası ilə Azərbaycanın müasir simasını müəyyənləşdirmiş və xalqımızın taleyində silinməz izlər qoymuş ümummilli lider Heydər Əliyevin əziz xatirəsi hər zaman böyük sevgi və ehtiramla yad ediləcək!

## ADNSU

**Dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin bir zaman tələbəsi olduğu Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) unudulmaz dahi şəxsiyyətin anım gününə həsr olunmuş silsilə tədbirlər keçirilib.**

Tələbələrin iştirakı ilə reallaşan "Heydər Əliyev Həftəsi"ndə "Ümummilli lider Heydər Əliyev və gənclərin inkişafında rolu" mövzusunda dəyirmi masa yaddaqalan olub. Çıxışlarda vurğulanıb ki, Ulu öndər hər zaman gəncləri ölkənin gələcəyi hesab etmiş, onların bilikli, dünyagörüşlü və vətənpərvər yetişməsi üçün fundamental dövlət siyasəti formalaşdırmışdır.

ADNSU-nun nəzdində fəaliyyət göstərən Azərbaycan–Fransız Universitetində (UFAZ) təşkil olunan geniş formatlı tədbirlərdə hər iki təhsil müəssisəsinin rəhbərliyi, professor-müəllim heyəti, tələbələr və ictimaiyyət nümayəndələri iştirak ediblər. Ulu öndərin Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi, milli inkişaf strategiyasının formalaşdırılmasındakı misilsiz tarixi xidmətləri xüsusi vurğulanıb. Çıxış edənlər bildiriblər ki, Heydər Əliyevin siyasi irsi yalnız bir dövrün deyil, müasir Azərbaycanın davamlı inkişaf modelinin ideya əsasını təşkil edir. Onun müəyyən etdiyi dövlət quruculuğu kursu, enerji siyasəti, iqtisadi tərəqqi və güclü ordu strategiyası Azərbaycanın bu gün əldə etdiyi nailiyyətlərin təməlində dayanır.

Anım mərasimi çərçivəsində universtetin Kitabxana İnformasiya Mərkəzində Ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş ənənəvi sərgi təşkil edilib. Sərgidə Heydər Əliyevin ölkənin siyasi, iqtisadi, elmi və mədəni tərəqqisinə verdiyi mühüm töhfələri əks etdirən kitablar, sənədlər və fotomateriallar nümayiş etdirilib.

## Bakı Sağlamlıq Mərkəzi

**Heydər Əliyevin anım günü ilə bağlı Bakı Sağlamlıq Mərkəzində keçirilən mərasimin əvvəlində Ümummilli liderin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Mərkəzin icraçı direktoru, dosent Asiman Həsənov, Yeni Azərbaycan Partiyası (YAP) Nərimanov rayon təşkilatının sədri Elçin Quliyev və başqaları mərasimdə çıxış ediblər. Natiqlər bildiriblər ki, Heydər Əliyev müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur. Ümumilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin əzmkar fəaliyyəti ilə ölkəmizin müstəqilliyi daha da möhkəmlənmiş, ərazi bütövlüyü və suverenliyi tam bərpa olunmuşdur. Bu gün Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır.

Mərasimin sonunda Ulu öndərin qurucusu olduğu YAP-ın sıralarına yeni qəbul edilmiş Bakı Sağlamlıq Mərkəzi həkimlərinə üzvlük vəsiqələri təqdim olunub.

## Əqli Mülkiyyət Agentliyi

**Ümummilli lider Heydər Əliyevin anım günündə Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Fəxri xiyabanda onun məzarını ziyarət edib.**

Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov başda olmaqla, ziyarətçilər dünya şöhrətli siyasət və dövlət xadiminin əziz xatirəsinə sonsuz ehtiram duyğularını ifadə edib, abidəsi önünə gül dəstələri düzüblər.

Eyni zamanda, ulu öndər Heydər Əliyevin həyat yoldaşı akademik Zərifə Əliyeva, ictimai-siyasi xadimlər Əziz Əliyev və Tamerlan Əliyevin də xatirəsi ehtiramla yad olunub, abidələri önünə gül dəstələri qoyulub.

## Nəsimi

**"Zamanın sınağından keçən böyük şəxsiyyət" – Paytaxtın Nəsimi rayonunda Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş anım mərasimi bu adı daşıyırdı.**

Mərasimdən öncə gənc rəssam İsmayıl Hacıyevin Ulu öndərə və Qarabağa həsr olunmuş rəsmlərindən ibarət sərgiyə baxış keçirilib. Daha sonra keçirilən tədbirdə Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Elxan İbrahimov, millət vəkili Ziyad Səmədzadə və YAP-ın Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov çıxış ediblər. Ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş videoçarx nümayiş etdirilib, xatirəsinə həsr olunmuş musiqi nömrələri səsləndirilib.

## Binəqədi

**H.Hüseynov adına 83 nömrəli məktəb-liseydə ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Ulu öndərin izi ilə – nəsildən nəsilə" adlı gecə təşkil olunub.**

Rayon icra hakimiyyəti başçısının müavini Sevinc Süleymanova çıxışında qeyd edib ki, müasir müstəqil Azərbaycanın qurucusu ümummilli lider Heydər Əliyev tarixin yetirdiyi ən böyük şəxsiyyətlərdən idi. Azərbaycanın 30 ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi, bu illər ərzində xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişi Ulu öndərin adı ilə sıx bağlıdır.

Məktəbin tarix müəllimi Fatma Abbasəliyeva dahi şəxsiyyətin siyasi hakimiyyətdə olduğu illərdə həyata keçirilən quruculuq, abadlıq işlərindən, müstəqil Azərbaycanın qurulması sahəsində göstərdiyi xidmətlərdən danışıb, Heydər Əliyevin müdrik siyasətə, dönməz əqidəyə və tarixi uzaqgörənliyə malik şəxsiyyət kimi müasir Azərbaycan dövlətinin qurulması istiqamətində atdığı addımlardan bəhs edib.

Gecədə şagirdlərin ifasında Ulu öndərin həyat və fəaliyyətinə həsr olunmuş ədəbi-bədii kompozisiyalar, musiqi nömrələri səsləndirilib.

## Qaradağ

**Lökbatan qəsəbəsindəki Heydər Əliyev adına parkda Ümummilli liderin əziz xatirəsi böyük ehtiramla anılıb.**

Ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz üçün göstərdiyi əvəzsiz xidmətləri, apardığı islahatları və ölkəmizin müstəqilliyini qoruma yolundakı yorulmaz mübarizəsini yad etmək məqsədilə keçirilən mərasimdə yüzlərlə rayon sakini, rayon rəhbərliyi, hüquq-mühafizə orqanlarının nümayəndələri və digər ictimaiyyət üzvləri iştirak edirdi. Dünya şöhrətli dövlət xadiminin abidəsi önünə əklil və gül dəstələri qoyulub, ruhuna minnətdarlıq duyğuları ifadə olunub.

Eyni zamanda, mərasim çərçivəsində rayonun bütün qəsəbələrində yerləşən məscidlərdə Ulu öndərin ruhuna dualar oxunub, Heydər Əliyevin bu gün də yalnız tarixdə deyil, hər birimizin gündəlik həyatında, düşüncələrində və ruhunda yaşadığı vurğulanıb.

YAP Qaradağ Rayon Təşkilatı və Bakı Şəhər Baş Mədəniyyət İdarəsinin Qaradağ Rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Heydər Əliyev – müasir Azərbaycanın memarı" mövzusunda dəyirmi masa da yaddaqalan olub. YAP rayon təşkilatının sədri Qafar Əliyev Ümummilli liderin Azərbaycan xalqı və dövləti qarşısında göstərdiyi misilsiz xidmətlər barədə ətraflı məlumat verib. "Heydər Əliyev – müasir Azərbaycanın memarı" adlı videoçarx nümayiş etdirilib.

Dəyirmi masa ətrafında söz alan natiqlər böyük inamla bildiriblər ki, Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs üzrə uğurla addımlayan Azərbaycan gələcəkdə daha böyük nailiyyətlərə imza atacaq.

## Suraxanı

**Bu rayonda "Bir millətin işığına çevrilmiş lider" adlı anım mərasimi keçirilib.**

İştirakçılar ulu öndərin Heydər Əliyev parkında ucalan abidəsini ziyarət edib, abidə önünə tər güllər düzüblər. Mərasimin əvvəlində ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş, "Mədəniyyət kanalı" tərəfindən hazırlanmış "Yadigarlar" adlı qısametrajlı sənədli film nümayiş etdirilib. Sonra çıxışlar olub.

Rayon icra hakimiyyətinin başçısı Adil Əliyev, YAP rayon təşkilatının sədri Vüqar Seyidov, Dövlət Təhlükəsizlik Xidməti Suraxanı rayon idarəsinin rəisi, polkovnik Rauf Məmmədov ulu öndər Heydər Əliyevin zəngin həyat və fəaliyyətinə ehtiramla nəzər salıb və qeyd ediblər ki, adını XX əsrin siyasi tarixinə qızıl hərflərlə yazdırmış dahi lider Azərbaycan dövlətçiliyini ideoloji, institusional və hüquqi əsaslar üzərində formalaşdırıb, məhz onun qətiyyətli siyasi iradəsi nəticəsində müstəqil Azərbaycan parçalanma və xaos təhlükəsindən xilas olaraq sabitlik və inkişaf yoluna qədəm qoyub. Xüsusi vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət, Azərbaycanın regional və qlobal müstəvidə artan nüfuzu Heydər Əliyev siyasi kursunun alternativsizliyini bir daha sübut edir.

Mərasim Suraxanı rayonu 85 nömrəli tam orta məktəbin müəllim-şagird kollektivinin ifasında ədəbi-bədii kompozisiya ilə davam edib.

## Yasamal

**Rayon ictimaiyyəti ümummilli lider Heydər Əliyevin anım günündə onun əziz xatirəsini dərin ehtiramla yad edib.**

Bununla əlaqədar dünən rayon ictimaiyyəti üçün Təzə Pir məscidində ehsan süfrəsi açılıb. Mərasimdə Ulu öndərin ruhuna dualar oxunub, Qurandan surələr səsləndirilib. Mərasimdə rəsmi şəxslər, ziyalılar, şəhid ailələri və qazilər, aztəminatlı şəxslər iştirak ediblər.

Daha sonra Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənovun rəhbərliyi ilə RİH aparatının kollektivi, hüquq-mühafizə orqanları və YAP Yasamal rayon təşkilatı Fəxri xiyabanda ulu öndərin məzarını ziyarət edib. Burada Ümummilli liderin əziz xatirəsi dərin ehtiramla yad edilib, məzarı önünə gül dəstələri qoyulub.

## Pirallahı

**Ulu öndər Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə əlaqədar Pirallahı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə ehsan süfrəsi təşkil olunub.**

Şəhid ailələri, qazilər və rayon ictimaiyyəti nümayəndələrinin iştirak etdiyi məclisdə rayon icra hakimiyyətinin başçısı Vasif İmanov ümummilli lider Heydər Əliyevin bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etdiyini bildirib. O qeyd edib ki, ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsində, iqtisadi inkişafında, beynəlxalq arenada nüfuzunun artmasında Ulu Öndərin misilsiz xidmətləri olub.

Daha sonra çıxış edən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının sədri Emil Abasov qeyd edib ki, Heydər Əliyev müasir dünya tarixinə böyük dövlət xadimi, fitri istedad sahibi və müdrik lider kimi daxil olmuşdur. N.S.Teymurov adına 231 nömrəli tam orta məktəbin direktoru Vasif Eyvazov və Laçın rayon M.Müseyibov adına Bozlu kənd tam orta məktəbinin direktoru Nuridə Əhmədova Ulu öndərin təhsil sahəsinə göstərdiyi diqqət və qayğıdan minnətdarlıq duyğuları ilə söz açıblar.

*Səhifəni hazırladı:*
*Əli NƏCƏFXANLI*
*XQ*

**Adını hər zaman sevgi və qürurla çəkdiyimiz, əziz xatirəsini daim ehtiramla andığımız ümummilli lider Heydər Əliyev xalqımızın qəlbində əbədi yaşayır. Bu günlər Azərbaycanda müstəqil dövlətimizin memarı və qurucusunun əziz xatirəsinə həsr olunmuş anım mərasimlərində də bu barədə danışıldı, dahi şəxsiyyətin xalqının layiqli övladı olduğu qeyd olundu, onun Vətən və dövlət qarşısında ölçüyəgəlməz xidmətləri yada salındı.**

# Əbədiyaşar liderə ümumxalq ehtiramı












## Naxçıvan

Muxtar respublikada dahi şəxsiyyət Heydər Əliyevin xatirəsi anılıb. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, dövlət və hökumət nümayəndələri, Ali Məclisin deputatları Ulu öndərin Naxçıvan şəhərinin mərkəzi meydanında əzəmətlə ucalan abidəsini ziyarət ediblər. Abidə önünə güllər qoyulub, Ümummilli liderin xatirəsi dərin ehtiramla yad olunub.

Dahi şəxsiyyətin əziz xatirəsi Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın bütün rayonlarında da anılıb. İcra hakimiyyətlərinin, idarə və təşkilatların kollektivləri, ictimaiyyət nümayəndələri, sakinlər Ulu öndərin rayon mərkəzlərindəki abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, xatirəsinə hörmət və ehtiramlarını bildiriblər.

*

Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Babək rayonu ərazisində ayrılmış 1 hektarlıq sahədə keçirilən aksiyada Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov, dövlət və hökumət nümayəndələri, eləcə də ekokönüllülər iştirak ediblər.

Aksiya çərçivəsində ərazidə quraqlığa davamlı və yerli iqlim şəraitinə uyğun 1800 üzüm tənəyi əkilib. Yeni salınan yaşıllıq sahəsində damcı suvarma sistemi qurulub. Həmçinin Uzunoba su anbarı ətrafındakı badam bağında 600 yeni ting əkilib.

## Gəncə

Xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 22 il ötür. Bununla əlaqədar olaraq, ulu öndər Heydər Əliyevin Gəncənin mərkəzi meydanında ucaldılan abidəsi ziyarət olunub.

Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyətin nümayəndələri, şəhid anaları, qazilər ümummilli lider Heydər Əliyevin abidəsi önünə tər çiçəklər düzüb, onun əziz xatirəsinə dərin hörmət və ehtiramlarını ifadə ediblər.

Qeyd edək ki, gün ərzində abidə önünə minlərlə şəhər sakini gəlmiş, böyük şəxsiyyətə öz dərin ehtiramlarını bildirmiş, gül dəstələri düzmüşlər.

## Sumqayıt

Şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov, Milli Məclisin deputatları, vəkilləri ictimaiyyət nümayəndələri ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda Ulu öndərin abidəsini ziyarət edərək, abidə önünə güllər düzüb, dahi şəxsiyyətə hörmət və ehtiramlarını bildiriblər.

Ümummilli lider Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra vurğulanıb ki, Azərbaycanın ictimai-siyasi, iqtisadi və elmi-mədəni həyatında elə bir istiqamət yoxdur ki, xalqımızın dahi oğlu Heydər Əliyevin uzaqgörən siyasətinin, müdrik liderliyinin və misilsiz quruculuq fəaliyyətinin izləri görünməsin. Ölkənin formalaşması və inkişafında böyük əhəmiyyət kəsb edən hər bir layihədə Ulu öndərin düşünülmüş strategiyası, dövlətçilik fədakarlığı və xalqına sonsuz sevgisi özünü aydın şəkildə göstərir.

Bu gün inkişafının yeni mərhələsinə qədəm qoyan Sumqayıtın simasında aparılan genişmiqyaslı sənaye quruculuğu, müasir sənaye parkının yaradılması, yeni ixracyönümlü müəssisələrin inşası, sosial infrastruktur layihələrinin ardıcıl şəkildə həyata keçirilməsi ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji iqtisadi və siyasi kursun bəhrələridir. Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan islahatlar, şəhərin inkişafına yönəlmiş kompleks tədbirlər Sumqayıtın sürətli tərəqqisini təmin edib.

## Lənkəran

Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar Lənkəran şəhərinin Heydər Əliyev Mərkəzində “Sən elə bir zirvəsən!” adlı foto-sərgi və “Gənclərin inkişafında Heydər Əliyev irsinin rolu” mövzusunda forum keçirilib. Tədbir iştirakçıları əvvəl Ulu öndərin şəhərin mərkəzi meydanında əzəmətli abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər.

Forumda xalqımızın əbədiyaşar liderinin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, sonra Dövlət Himni səsləndirilib.

Şəhər icra hakimiyyətinin başçısı Taleh Qaraşov Ümummilli liderin Azərbaycan tarixində müstəsna xidmətlərindən bəhs edib. Bildirib ki, dahi rəhbərin uzaqgörən, qətiyyətli siyasəti nəticəsində ölkəmizin müstəqilliyi, dövlətçiliyi möhkəmləndirilib. Əsası ümummilli lider tərəfindən qoyulan müstəqil, müasir Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələr üzrə dayanıqlı və sürətlə inkişaf edir.

Milli Məclisin üzvü Fariz İsmayılzadə bildirib ki, dünya şöhrətli görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan tarixinin ən parlaq şəxsiyyətlərindən biridir, onun dövlətçilik təfəkkürü, siyasi iradəsi, xalqına olan sonsuz sevgisi hər bir azərbaycanlı, xüsusilə də gənclərimiz üçün əvəzsiz örnəkdir.

## Qazax

Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar Qazax Rayon İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası (YAP) Qazax Rayon Təşkilatının birgə təşkilatçılığı ilə “Nə qədər ki, Azərbaycan var, mən də varam” mövzusunda keçirilən mərasimdə rayon icra hakimiyyətinin, YAP rayon təşkilatının məsul əməkdaşları, idarə, müəssisə, təşkilat rəhbərləri, şəhid ailələri, partiya veteranları, KİV nümayəndələri iştirak ediblər.

Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov mərasim iştirakçıları ilə birlikdə ulu öndər Heydər Əliyevin adını daşıyan parka gələrək dahi şəxsiyyətin abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla anıb. Tədbir iştirakçıları daha sonra Ümummilli liderin adını daşıyan mərkəzdə dahi şəxsiyyətin həyat və fəaliyyətini özündə əks etdirən stendlərlə tanış olublar.

## Balakən

Ulu öndər Heydər Əliyevin xatirəsi rayonda böyük ehtiram və minnətdarlıq hissi ilə yad edilib. Dahi şəxsiyyətin anım günü ilə bağlı rayon icra hakimiyyətinin başçısı Natiq Ağayev, rayon icra hakimiyyəti başçısı aparatının kollektivi, hüquq-mühafizə orqanlarının, idarə və müəssisələrin rəhbərləri, əməkdaşları, şəhid ailələrinin üzvləri, qazilər və müharibə veteranları Ulu öndərin abidəsini ziyarət ediblər. Ümummilli liderin abidəsi önünə tər çiçəklər düzülüb, əziz və unudulmaz xatirəsinə ehtiram ifadə olunub. Ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizə dərin hörmət əlaməti olaraq Şəhidlər xiyabanı ziyarət edilib.

Daha sonra ümummilli lider Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə əlaqədar “Dövlət və xalq üçün yaşanan ömür” mövzusunda konfrans keçirilib. Əvvəlcə ulu öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Balakən Rayon İcra Hakimiyyəti başçısı Natiq Ağayev çıxışında ulu öndər Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib. Ömrünü öz xalqına həsr edən ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərliyinin bütün dövrlərində Vətən və xalq qarşısında misilsiz xidmətlərindən danışıb.

Konfransın sonunda ulu öndər Heydər Əliyevə həsr olunmuş film nümayiş etdirilib. Sonra Ümummilli liderin anım günü ilə əlaqədar ehsan mərasimi təşkil olunub.

## Mingəçevir

Şəhərində ümummilli lider Heydər Əliyevin əziz xatirəsi dərin hörmət və ehtiramla yad edilib. Şəhər icra hakimiyyətinin kollektivi, hüquq-mühafizə orqanlarının əməkdaşları, idarə, müəssisə və təşkilatların, şəhər ictimaiyyətinin nümayəndələri, sakinlər Ulu öndərin şəhərdə ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Vətənini, xalqını sonsuz məhəbbətlə sevən ulu öndər Heydər Əliyevin əziz xatirəsinin Azərbaycan xalqının qəlbində əbədi yaşayacağı bildirilib.

## Ağdam

Xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə əlaqədar rayon sakinləri Quzanlı qəsəbəsinin mərkəzi meydanına gələrək, dahi rəhbərin abidəsini ziyarət edib, xatirəsinə hörmət və ehtiramlarını bildiriblər.

Ağdam Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının rəhbərləri, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları, idarə, müəssisə və təşkilatların kollektivləri böyük siyasi xadim Heydər Əliyevin abidəsi önünə tər gül-çiçək dəstələri qoyublar.

## Xocalı

Rayonun Ballıca kəndində ümummilli lider Heydər Əliyevin anım günü ilə bağlı ağacəkmə aksiyası keçirilib. Aksiya zamanı ərazidə badam, şam və digər müxtəlif növ 220 ağac əkilib.

Aksiyada Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Elçin Yusubov, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Telman Kərimli, xüsusi nümayəndəliyin və xidmətin əməkdaşları, yerli sakinlər və Vüqar Həşimov Memorialının Təşkilat Komitəsinin sədri Sərxan Həşimov, Memorialın baş hakim Rauf Hacılı, Vüqar Həşimov Fondunun direktoru Anar Allahverdiyev də iştirak ediblər. Əkilən ağaclara ilkin qulluq göstərilib, suvarma işləri həyata keçirilib.

Tədbir Heydər Əliyevin yaşıllaşdırma və təbiətin qorunması sahəsində formalaşdırdığı dövlət siyasətinə hörmət və ehtiramın ifadəsi kimi dəyərləndirilib.

## Tərtər

Rayon icra hakimiyyətinin və hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP rayon təşkilatının və Ağsaqqallar Şurasının sədrləri, ziyalılar, idarə, müəssisə və təşkilatların kollektivləri, şəhid ailələri, qazilər, gənclər, ictimaiyyət nümayəndələri dahi rəhbər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək, böyük rəhbərin xatirəsini ehtiramla yad ediblər. Sonra mərasim iştirakçıları Mədəniyyət Mərkəzinin foyesində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən foto-stendlərlə tanış olublar.

Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov və YAP rayon təşkilatının sədri Eldar Əsədov mərasimdə ulu öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı və milli dövlətçiliyin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından danışıb, dahi şəxsiyyətin fəaliyyətinin yalnız bir dövrün deyil, bütövlükdə müasir respublikamızın inkişaf konsepsiyasının əsasını təşkil etdiyini vurğulayıblar.

## Şəmkir

Rayon icra kakimiyyətinin başçısı Rəşad Tağıyev, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə və təşkilat nümayəndələri, eləcə də rayon ictimaiyyəti ulu öndər Heydər Əliyevin Şəmkir şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb və əziz xatirəsini dərin ehtiramla yad ediblər. Daha sonra Ümummilli liderin anım günü ilə əlaqədar rayon ictimaiyyəti üçün ehsan süfrəsi təşkil olunub.

Mərasimdə çıxış edən icra kakimiyyətinin başçısı bildirib ki, Ulu öndərin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə göstərdiyi misilsiz xidmətlər, dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi sahəsində atdığı addımlar xalq tərəfindən daim dərin minnətdarlıqla xatırlanır.

Rəşad Tağıyev vurğulayıb ki, dahi şəxsiyyətin müəyyənləşdirdiyi siyasi kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və məhz bu siyasət nəticəsində Azərbaycan öz tarixinin ən şərəfli dövrünü yaşayır.

Çıxış edən digər natiqlər Ulu öndərin Azərbaycan dövlətçiliyinə verdiyi töhfələrdən bəhs ediblər. Bildirilib ki, Ümummilli lider fəaliyyətinin bütün mərhələlərində ölkənin inkişafı, milli maraqların qorunması və milli-mənəvi dəyərlərin yaşadılması naminə misilsiz işlər görüb.

## Göyçay

Ölkəmizin inkişaf yoluna, dövlətçilik təməllərinin möhkəmlənməsinə və müstəqilliyimizin əbədiliyinə ömrünü həsr etmiş böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin xatirəsi Göyçayda böyük ehtiram və minnətdarlıq hissi ilə yad edilib.

Rayon icra hakimiyyətinin başçısı Orxan Mürsəlov, Milli Məclisin deputatı Sabir Hacıyev, rayonun məhkəmə və hüquq-mühafizə orqanlarının rəhbərləri, dövlət qurumları, idarə, müəssisə və təşkilatların kollektivləri, şəhid ailələri, müharibə iştirakçıları və rayon ictimaiyyətinin nümayəndələri Ulu öndərin abidəsini ziyarət ediblər. Ümummilli liderin abidəsinin önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin əziz xatirəsi dərin hörmət və ehtiramla anılıb.

## Samux

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə bağlı rayonda anım mərasimi keçirilib. Rayon icra hakimiyyətinin başçısı Firdovsi Əliyev, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri, ictimaiyyət nümayəndələri, sakinlər Ulu öndərin şəhərdə ucalan abidəsini ziyarət edərək, əziz xatirəsini böyük ehtiramla anıblar.

Mərasimdə ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin formalaşması və möhkəmləndirilməsində müstəsna tarixi xidmətlərindən bəhs olunub. Ölkəmizin uzunmüddətli inkişaf strategiyasının banisi olan Heydər Əliyevin siyasi xəttinin bu gün də uğurla davam etdirildiyi, regionların sosial-iqtisadi yüksəlişində həmin xəttin həlledici rol oynadığı qeyd edilib.

Anım mərasimi ilə əlaqədar Samux rayonunda ağacəkmə aksiyası da keçirilib. Samux-Kür yolunda rayonun iqlim şəraitinə uyğun 300 ədədə yaxın həmişəyaşıl ağac tingi əkilib.

## Zaqatala

Ümummilli lider Heydər Əliyevin vəfatının 22-ci ildönümü Zaqatalada böyük ehtiramla anılıb. Ulu öndərin şəhərin Heydər Parkında ucalan abidəsi önünə gül dəstələri düzülüb, xatirəsi ehtiramla yad edilib. Sonra rayondakı Heydər Əliyev Mərkəzində “Heydər Əliyev Azərbaycan Konstitusiyasının banisidir” mövzusunda elmi-praktik konfrans keçirilib. Əvvəlcə Dövlət Himni səsləndirilib, Ümummilli liderin və şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb, Ulu öndərin xatirəsinə həsr edilmiş film nümayiş olunub.

Konfransda çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Vəfa Süleymanova zəngin və mənalı həyatını Vətəninə, xalqına həsr edən Ümummilli liderin əvəzsiz xidmətlərindən danışıb. Bildirilib ki, xalqı və dövləti qarşısındakı misilsiz tarixi xidmətləri ilə əbədiyyət qazanmış görkəmli dövlət xadimi Heydər Əliyev həm də dünya miqyasında XX əsrin qüdrətli liderlərindən biri kimi qəbul olunur.

Konfransda Milli Məclisin deputatı Asif Əsgərov, rayon prokuroru Qabil Səfərov, YAP Zaqatala rayon təşkilatının sədri Fərid Ramazanov və Heydər Əliyev Mərkəzinin direktoru Famil Rəhimov çıxış edərək, ulu öndər Heydər Əliyevin Vətən və xalq qarşısındakı tarixi xidmətlərindən ətraflı söz açıblar.

## Şirvan

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli lideri, ulu öndər Heydər Əliyevin vəfatının 22-ci ildönümü Şirvan şəhərində ehtiramla qeyd olunub. İcra hakimiyyətinin başçısı İlqar Abbasov, YAP şəhər təşkilatının sədri Zahir Qəhrəmanov, Şirvan Apellyasiya Məhkəməsinin sədri Vəli Abdullayev, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi, professor Nazim Kazımov, şəhərin hüquq-mühafizə orqanlarının, regional təşkilatların, idarə və müəsissələrin rəhbərləri, şəhid ailəsi üzvləri və müharibə iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək, əziz xatirəsini dərin hörmət və ehtiramla yad ediblər.

Həmçinin Şirvan şəhərində yerləşən idarə, müəssisə və təşkilatların kollektivləri, ictimaiyyət nümayəndələri və şəhər sakinləri gün ərzində şəhərin mərkəzi meydanınında ucalan ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzərək unudulmaz xatirəsinə ehtiramlarını bildiriblər.

## Salyan

Ümummilli lider Heydər Əliyevin xatirəsi Salyan rayonunda da dərin ehtiramla yad edilib. Sübh tezdən RİH başçısı Rüstəm Xəlilov, YAP rayon təşkilatının sədri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə, təşkilatların rəhbərləri, “N” saylı hərbi hissənin əsgər və zabitləri, rayon ictimaiyyətinin çoxsaylı nümayəndələri Ulu öndərin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül-çiçək dəstələri düzərək, dahi şəxsiyyətə hörmət və ehtiramlarını bildiriblər.

Daha sonra anım günü ilə əlaqədar mərasim salonunda ehsan süfrəsi təşkil olunub. Orada da Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda canından keçən qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və ruhlarına dualar oxunub. Mərasimdə rayon rəhbəri R.Xəlilov çıxış edərək bütün həyatını və fəaliyyətini xalqının xoşbəxtliyinə həsr etmiş ümummilli lider Heydər Əliyevin Azərbaycanın inkişafı və tərəqqisi naminə misilsiz xidmətlərindən danışıb, onun əziz xatirəsinin daim qəlblərdə yaşayacağını, heç vaxt yaddaşlardan silinməyəcəyini vurğulayıb.

## Şamaxı

Şamaxıda müasir Azərbaycan dövlətinin memarı, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə bağlı anım tədbiri keçirilib.

Öncə Şamaxı Rayon İcra Hakimiyyətinin başçısı Tahir Məmmədov, rayonun hüquq-mühafizə strukturlarının, eləcə də müvafiq idarə, müəssisə və təşkilat kollektivlərinin məsul şəxsləri və ictimaiyyət nümayəndələri Heydər Əliyev adına parkda Ulu Öndərin abidəsini ziyarət edib, abidə önünə gül dəstələri düzərək onun əziz xatirəsi ehtiramla yad ediblər.

Şamaxı Mədəniyyət Mərkəzində təşkil olunmuş anım tədbirində öncə Ümummilli liderin həyatı və fəaliyyəti barədə “Geosiyasi Kod” adlı film nümayiş olunub.

Daha sonra çıxış edənlər müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı bütün varlığı ilə vətəninə, xalqına bağlı olan böyük dövlət xadimi, ümummilli lider Heydər Əliyevin dövlətçiliyimizin qurulmasında, xalqımızın əmin-amanlığının təmin edilməsində və milli-mənəvi dəyərlərimizin qorunmasındakı əvəzsiz xidmətlərindən geniş söhbət açıblar.

*Hazırladılar:*
***Vaqif BİNYATOĞLU,***
***İlqar HƏSƏNOV,***
***Hamlet QASIMOV***
***XQ***

# Ümummilli liderin xatirəsinə bəşəri ehtiram

## *Dünya Heydər Əliyev dühasını heyranlıqla yad etdi*








**Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin vəfatının ildönümü dünən təkcə ölkəmizdə deyil, dünyanın müxtəlif dövlətlərində də xüsusi ehtiramla yad edildi. Anım mərasimləri Ulu öndərin çoxşaxəli siyasi irsinin, dövlətçilik fəlsəfəsinin, qlobal miqyasda formalaşdırdığı tərəfdaşlıq münasibətlərinin və müasir müstəqil Azərbaycanın qurucusu kimi tarixi rolunun beynəlxalq arenada necə yüksək qiymətləndirildiyini bir daha nümayiş etdirdi. Türkiyədən Gürcüstana, ABŞ-dan Çinə, İrandan İsveçə, Küveytdən Ukraynayadək geniş coğrafiyada keçirilən tədbirlər Heydər Əliyevin fəaliyyətinin regional və qlobal miqyasda yaratdığı dərin izlərin təzahürüdür.**

**Bu mərasimlər bir daha sübut etdi ki, Heydər Əliyev yalnız Azərbaycan xalqının taleyində son dərəcə mühüm rol oynayan lider deyil, həm də beynəlxalq münasibətlər sistemində müdrik siyasətçi, strateji düşüncəli dövlət xadimi kimi qəbul olunur. Onun rəhbərliyi ilə formalaşan dövlətçilik ənənələri, balanslaşdırılmış xarici siyasət xətti, iqtisadi islahatlar, qlobal enerji və nəqliyyat layihələri, həmçinin Cənubi Qafqazda sabitlik və inkişafın təmin edilməsinə yönəlmiş addımlar bu gün də aktual olaraq qalır və müstəqil Azərbaycanın tərəqqisinin ideya bünövrəsini təşkil edir.**

### Türkiyə

**Paytaxt Ankara şəhərində keçirilən anım mərasimində Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, diplomatlar, hər iki ölkənin parlament üzvləri, müxtəlif qurum və təşkilatların əməkdaşları, ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Mərasim iştirakçıları dahi dövlət xadiminin Ankaradakı Heydər Əliyev parkında ucaldılan abidəsi önünə gül dəstələri qoyublar.

Qardaş ölkənin İstanbul, Qars və İğdır şəhərlərində də dahi siyasətçinin xatirəsi ehtiramla yad edilib.

### Qazaxıstan

**Azərbaycanın Qazaxıstandakı səfirliyində keçirilən anım mərasimində səfir Ağalar Atamoğlanov Heydər Əliyevin həyat və fəaliyyəti barədə geniş məlumat verib.**

Bildirib ki, Azərbaycanda sosial rifahın bərbad vəziyyətdə olduğu, iqtisadiyyatın tənəzzülə uğradığı, vətəndaş qarşıdurmasının, eləcə də ermənilərlə müharibə şəraitinin hökm sürdüyü bir dövrdə xalqın çağırışı ilə siyasi hakimiyyətə qayıdan Heydər Əliyev ölkədə sabitlik və əmin-amanlığı bərpa edib. Ümummilli lider ölkə rəhbəri olduğu müddətdə müasir Azərbaycanın memarına çevrilib və gördüyü işlərlə, yürütdüyü siyasətlə xalqın əbədi rəğbətini qazanıb.

Səfir bildirib ki, işğal olunan ərazilərimizin azad edilməsi üçün səylərini əsirgəməyən Ulu öndər Azərbaycanda davamlı və strateji siyasətin əsasını qoyub. "Dünyasını dəyişsə də, onun adı, siyasəti və dəst-xətti xalqımız üçün əbədiyaşar ideologiyaya çevrilib. Ulu öndərin əsasını qoyduğu siyasətin davamı olaraq bu gün torpaqlarımız azaddır", - deyə səfir qeyd edib.

### Özbəkistan

**Ümummilli liderin anım günü ilə əlaqədar Azərbaycanın Özbəkistandakı səfirliyinin və bu qurumun nəzdindəki Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin əməkdaşları Ulu öndərin abidəsi önünə əklil və gül dəstələri qoyublar.**

Səfir Hüseyn Quliyev Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən danışıb, onun zəngin həyat və fəaliyyəti haqqında məlumat verib. Diplomat Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrdən başlayaraq, Moskvadakı fəaliyyəti və ən nəhayət, xalqın təkidli tələbi ilə Bakıya qayıtması və müstəqil Azərbaycanın Prezidenti seçilməsi, ölkəmizi ağır bəlalardan xilas etməsi haqqında söhbət açıb. Səfir 1993-cü ildə Ümummilli liderin siyasi hakimiyyətə gəlməsini ölkəmizin sosial, siyasi, iqtisadi və mədəni həyatında yeni dönüş nöqtəsi olduğunu bildirib. H.Quliyev deyib ki, Ulu öndərin Azərbaycanda ikinci dəfə hakimiyyətə gəlişindən sonra qısa müddətdə siyasi və iqtisadi islahatlar aparıldı, uğurlu nəticələr əldə edilib.

### Tacikistan

**Azərbaycanın Tacikistandakı səfirliyində ümummilli lider Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə bağlı anım mərasimi keçirilib. Tədbirdə səfirliyin əməkdaşları, Azərbaycan diasporunun nümayəndələri, bu ölkədə yaşayan, işləyən və təhsil alan həmvətənlərimiz iştirak ediblər.**

Əvvəlcə ulu öndər Heydər Əliyevin səfirlikdəki büstü önünə gül dəstəsi qoyulub və Ümummilli liderin xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Sonra Azərbaycanın Tacikistandakı səfiri Əlimirzamin Əskərov Heydər Əliyevin müasir Azərbaycan dövlətçiliyinin qurulması və gücləndirilməsində müstəsna xidmətlərindən geniş söhbət açıb, milli maraqlara sarsılmaz sədaqəti və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi naminə gördüyü xidmətlərin tariximizdə silinməz iz qoyduğunu bildirib. Ulu öndər Heydər Əliyevin müdrik dövlətçilik irsinin bu gün onun layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyi qeyd edilib.

Tədbirdə ümummilli lider Heydər Əliyevin həyat və siyasi fəaliyyətini əks etdirən sənədli film nümayiş olunub.

Bildiririk ki, Tacikistan mətbuatında Ümummilli liderin həyat və fəaliyyəti ilə bağlı yazılar yayımlanıb.

### Gürcüstan

**Ümummilli liderin anım günü Gürcüstanda silsilə tədbirlərlə qeyd olunub.**

Gürcüstandakı səfirimiz Faiq Quliyev, səfirlik əməkdaşları, Gürcüstandakı Azərbaycanlı İş Adamları Birliyi İdarə Heyətinin sədri Nəriman Qurbanov, SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbərliyi və əməkdaşları, Tbilisidə səfərdə olan Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndələri, Gürcüstandakı Azərbaycan icmasının üzvləri və tələbələr Tbilisidəki Heydər Əliyev adına Parkda Heydər Əliyevin abidəsi önünə əklil və gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər.

Daha sonra Kür çayının sağ sahilində yerləşən xatirə lövhəsi ziyarət olunub. Ardınca Rustavi şəhərində Ümummilli liderin adını daşıyan parkdakı abidəsi də ziyarət olunub.

### ABŞ

**Azərbaycanın ABŞ-dakı səfirliyinin təşkilatçılığı ilə Vaşinqtonda yerləşən Corc Vaşinqton Universitetində Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimində səfirliyin əməkdaşları, ABŞ-da səfərdə olan dövlət rəsmiləri, burada yaşayan azərbaycanlı icmanın üzvləri, eləcə də müxtəlif universitetlərdə təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.**

Mərasim Ümummilli liderin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Daha sonra səfir Xəzər İbrahim giriş nitqi ilə çıxış edərək diplomatik karyerasının ABŞ-da başladığını və Ümummilli liderin iki ölkə arasında münasibətlərin dərinləşməsində gördüyü işlərə şahid olduğunu deyib. O bildirib ki, Vaşinqtonda 8 avqust görüşündən sonra ikitərəfli əlaqələrdə növbəti mərhələ başlayıb. Bu əlaqələrin təməli məhz Ulu öndər Heydər Əliyev tərəfindən qoyulub.

ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev çıxışında Azərbaycanın bu ölkədəki ilk səfiri kimi o dövrdə gedən çətin siyasi proseslərdən və Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində ikitərəfli əlaqələrin inkişafı istiqamətində görülən işlərdən danışıb. O, Heydər Əliyevin 1994, 1997 və 1999-cu illərdə ABŞ-a səfərləri, səfərlərə hazırlıq prosesindən və Heydər Əliyevin ABŞ siyasətçilərində yaratdığı xoş təəssüratdan bəhs edib. Hafiz Paşayev bildirib ki, Ulu öndər Vətənini sevən güclü diplomat idi və Azərbaycan diplomatiyasının bugünkü uğuru da o dövrdən başlayır.

Tədbirin sonunda Heydər Əliyev Fondunun təşəbbüsü ilə hazırlanan və Ümummilli lider Heydər Əliyevə həsr olunan "İz" sənədli filmi nümayiş etdirilib. Universitetin foyesində Ulu öndərin ABŞ-a səfərləri və ikitərəfli görüşlərdə iştirakı ilə bağlı fotosərgi təqdim olunub.

### Çin

**Ümummilli liderin anım günü ilə əlaqədar Azərbaycanın Çindəki səfirliyində də tədbir keçirilib. Əvvəlcə Ümummilli lider Heydər Əliyevin səfirlikdəki büstü önünə əklil qoyulub, əziz xatirəsi bir dəqiqəlik sükut ilə yad edilib.**

Səfir Bünyad Hüseynov ömrünü qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş görkəmli dövlət xadiminin həyat yolundan, Azərbaycan dövlətinin və dövlətçiliyinin möhkəmləndirilməsində əvəzsiz xidmətlərindən danışıb. Heydər Əliyevin tarixə müdrik rəhbər, böyük strateq və qlobal düşüncəli siyasi Lider kimi düşdüyünü deyib. Heydər Əliyevin Azərbaycan xalqını və dövlətini tarixin ağır və sərt sınaqlarından çıxardığını, işıqlı gələcəyin etibarlı bünövrəsini yaratdığını vurğulayıb.

Səfir bildirib ki, Ulu öndər Azərbaycan–Çin münasibətlərinin inkişafına xüsusi diqqət yetirib. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanın Çində səfirliyi təsis edilib, onun 1994-cü ildə Çinə rəsmi səfəri isə iki ölkə əlaqələrində xüsusi əhəmiyyətə malikdir.

Çində səfərdə olan Azərbaycan Akademik Milli Dram Teatrının direktoru, Əməkdar mədəniyyət işçisi İlham Əsgərov Ulu Öndərin Azərbaycan mədəniyyətinə, teatr sənətinə olan böyük qayğısından bəhs edərək bildirib ki, Ulu öndərimizin böyük diqqəti nəticəsində inkişaf etmiş Azərbaycan teatrı gələcəkdə daha yüksək sənət uğurlarına imza atacaq.

### İran

**İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) İrandakı Mədəniyyət İnstitutunda Ümummilli liderin vəfatının 22-ci ildönümünə həsr olunmuş "Mədəni və mənəvi əlaqələrin möhkəmləndirilməsində liderlərin rolu. Heydər Əliyev və İƏT ölkələri" mövzusunda anım tədbiri keçirilib, eyni adlı fotosərginin açılışı baş tutub.**

Səfirliyimizin təşkil etdiyi tədbirdə İranın Prezident Administrasiyasının və Xarici İşlər Nazirliyinin məsul nümayəndələri, İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin səfirləri, diplomatları, mətbuat və ictimaiyyətin nümayəndələri, eləcə də burada yaşayan Azərbaycan vətəndaşları iştirak ediblər. Tədbir Ümummilli liderin Heydər Əliyevin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

İƏT-in Mədəniyyət İnstitutunun prezidenti Məhəmməd Həsən müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyevin tarixi rolunu və müdrik siyasətini xüsusi vurğulayıb.

Azərbaycanın İrandakı səfiri Əli Əlizadə ölkəmizin İqtisadi Əməkdaşlıq Təşkilatının dövlətləri və xalqları arasında çoxəsrlik tarixi proseslər nəticəsində yaranmış dostluq və qardaşlıq münasibətlərinin, mədəni və mənəvi bağlarının möhkəmləndirilməsi yolunda mühüm addımlar atdığını bildirib. Bu xüsusda Heydər Əliyevin misilsiz xidmətlərinin olduğunu vurğulayıb. Ulu öndərin İƏT dövlətləri və xalqları ilə xüsusi münasibətlərinə nəzər salan səfir Heydər Əliyevin ortaq mədəni və mənəvi dəyərlərə dərindən bələd olduğunu, etnik, dil, din, tarixi və mədəni bağların inkişafındakı töhfələrinin danılmaz olduğunu nəzərə çatdırıb.

Sonra İƏT-in Mədəniyyət İnstitutunda təşkil olunmuş "Mədəni və mənəvi əlaqələrin möhkəmləndirilməsində liderlərin rolu. Heydər Əliyev və İƏT ölkələri" adlı fotosərginin açılışı olub. Tədbirdə Heydər Əliyevin həyat və siyasi fəaliyyətini, müdrik kəlamlarını əks etdirən qısametrajlı film nümayiş etdirilib.

### Misir

**Misirin Qalubiyyə vilayətinin əl-Qanatır əl-Xeyriyyə şəhərində yerləşən Misir–Azərbaycan Dostluq Parkında tədbir keçirilib.**

Tədbirdə vilayətin qubernatoru Əymən Atiyyə, Azərbaycanın Misirdəki səfiri Elxan Poluxov, Misirdəki Azərbaycan icmasının rəhbəri Seymur Nəsirov, eləcə də əl-Qanatır əl-Xeyriyyə şəhərinin meri Əbdüləzim Səid, Azərbaycan icmasının üzvləri, yerli mətbuat nümayəndələri iştirak ediblər. Səfir Elxan Poluxov Ümummilli liderin həyat və fəaliyyəti haqqında danışıb. Misir–Azərbaycan Dostluq Parkındakı Ümummilli liderin abidəsinin iki dövlət arasında dostluq münasibətlərinin şahidi olduğunu qeyd edən səfir Qalubiyyə qubernatorluğunun bu abidənin qorunub saxlanmasında göstərdiyi səyləri yüksək qiymətləndirib.

### Ukrayna

**Paytaxt Kiyevdəki anım mərasimində Azərbaycanın Ukraynadakı səfirliyinin və "SOCAR Energy Ukraine" şirkətinin kollektivi əvvəlcə Ulu öndərin səfirlikdəki büstü önünə tər çiçəklər düzüb, dahi liderin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.**

Səfir Seymur Mərdəliyev Ulu öndərin müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişaf etdirilməsində göstərdiyi misilsiz xidmətlərindən danışıb. Bildirib ki, Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin taleyinin və gələcəyinin təyin olunmasında həmişə həlledici rol oynayıb: "Ümummilli liderin bizə qoyub getdiyi güclü Azərbaycan bu gün onun layiqli davamçısı, Prezident İlham Əliyevin uğurlu, düşünülmüş siyasəti nəticəsində daha da güclənir, dünyada söz sahibinə çevrilir. Məhz ona görə də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu ərazilərimizi işğaldan azad edib. Bu gün həmin ərazilər yenidən qurulur".

"SOCAR Energy Ukraine" şirkətinin baş direktoru Elçin Məmmədov Heydər Əliyevin xalqımız qarşısında xidmətlərindən, Azərbaycanda dövlətçilik ənənələrinin formalaşmasında rolundan danışıb.

### Küveyt

**Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli lideri Heydər Əliyevin vəfatının 22-ci ildönümü ilə bağlı Azərbaycanın Küveyt Dövlətindəki səfirliyində anım mərasimi keçirilib.**

Tədbirdə Küveytdə yaşayan və təhsil alan Azərbaycan icmasının üzvləri, həmçinin Küveyt ictimaiyyətinin nümayəndələri və bu ölkədə yaşayan digər türkdilli dövlətlərilə bağlı vətəndaşları iştirak ediblər.

### İordaniya

**Azərbaycanın İordaniyadakı səfirliyində baş tutan anım mərasimində bu ölkədə yaşayan Azərbaycan diasporunun çoxsaylı nümayəndələri iştirak edib.**

Mərasim Ümummilli liderin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Səfir Şahin Abdullayev Heydər Əliyevin düşünülmüş, praqmatik və strateji baxışlara əsaslanan siyasətinin, yüksək idarəçilik məktəbi və dövlətçilik fəlsəfəsinin müstəqil Azərbaycanın möhkəm təməllər üzərində qurulmasını təmin etdiyini vurğulayıb. Məhz Ulu öndərin müəllifi olduğu inkişaf konsepsiyası sayəsində Azərbaycan siyasi sabitliyə nail olub, ölkəmiz regional və qlobal miqyasda etibarlı tərəfdaş kimi tanınıb.

Ş.Abdullayev hüquqi dövlət quruculuğu, balanslaşdırılmış xarici siyasətin formalaşdırılması və Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqelərinin möhkəmləndirilməsinin Ümummilli liderin uzaqgörən siyasətinin əsas istiqamətlərini təşkil etdiyini bildirib.

### Almaniya

**Azərbaycanın Almaniyadakı səfirliyinin təşkilatçılığı ilə Berlindəki Azərbaycan Mədəniyyət Mərkəzindəki anım mərasimi Ulu öndərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.**

Sonra Heydər Əliyev Fondu tərəfindən çəkilən və dahi şəxsiyyətin xatirəsinə həsr olunan film nümayiş etdirilib.

Səfir Nəsimi Ağayev Ümummilli liderin Azərbaycan dövlətçiliyinin möhkəmlənməsində tarixi rolundan söz açıb. Azərbaycanın müstəqilliyin əvvəlində ağır sınaqlar – Ermənistanın hərbi təcavüzü, daxili qarşıdurmalar və dövlət institutlarının çökməsi, ölkə həyatının bütün sahələrində dərin tənəzzülün yaşanması ilə üzləşdiyi bir dövrdə məhz Ulu öndər Heydər Əliyevin müdrik və qətiyyətli liderliyi sayəsində Azərbaycanı parçalanmaq təhlükəsindən xilas edərək, sabitlik və dinamik inkişaf yoluna çıxardığı vurğulanıb.

### İsveç

**Azərbaycanın İsveç Krallığındakı səfirliyində baş tutan anım mərasimində səfirliyin əməkdaşları ilə yanaşı, Azərbaycan diasporunun nümayəndələri də iştirak ediblər.**

Mərasimdə çıxış edən səfir Zaur Əhmədov bildirib ki, Ümummilli lider bütün həyatını Azərbaycan xalqına həsr edib. Vurğulanıb ki, Ulu öndər fəaliyyətinin hər mərhələsində Azərbaycanın maraqlarını hər şeydən üstün tutub. Diplomat bildirib ki, Heydər Əliyev birinci rəhbərliyi dövründə yorulmaz fəaliyyəti nəticəsində Azərbaycanı Sovet İttifaqının qabaqcıl respublikalardan birinə çevirib, həm də müstəqillik illərində ölkəmizin ordu quruculuğu və iqtisadi inkişaf sahəsində böyük nailiyyətlərə imza atıb. Səfir, həmçinin Ulu öndərin gənclərə və tələbələrə göstərdiyi xüsusi diqqət və qayğıdan söhbət açıb.

*Anım mərasimlərindən xəbərləri hazırladılar:*
***Pünhan ƏFƏNDİYEV,***
***Qulu KƏNGƏRLİ,***
***Səxavət HƏMİD***
***XQ***

# Ulu öndər milli mədəniyyətimizin hamisi idi

**Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.**

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***



**Dünyanın tanınmış siyasi xadimləri sırasında şərəfli yer tutan, müasir müstəqil Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyev mənalı həyatını vətəninə, dövlətinə həsr edərək xalqın tale yükünü çiyinlərində daşımış, onun azadlığa, müstəqilliyə qovuşması uğrunda daim mübarizə aparmışdır. Azərbaycanı sivil bir ölkə kimi zamanın sınaqlarından çıxaran dahi insan milli dövlətçilik ideyasını gerçəkləşdirmiş, xalqımızın çoxəsrlik tarixinin, zəngin mənəvi dəyərlərinin, maddi-mədəni irsinin qorunmasına böyük qayğı göstərmişdir.**

Bu diqqət və qayğının nəticəsidir ki, ötən əsrdə yeni inkişaf mərhələsinə qədəm qoyan milli mədəniyyətimizin inciləri beynəlxalq aləmdə də böyük şöhrət qazanmışdır. Rəssamlarımızın orijinal, yüksək ideyalı əsərləri bir çox ölkələrin sərgi salonlarında nümayiş etdirilmişdir. Bəstəkarlarımızın bəşəri məzmunlu musiqiləri möhtəşəm saraylarda səsləndirilmişdir. Teatrlarımızın istedadlı aktyorları xarici səhnələrdə çıxış etmişlər.

Tarixi ənənələrlə müasirliyin vəhdətində inkişaf edən, bütün dünyada tanınan Azərbaycan mədəniyyəti ədəbiyyata, təsviri sənətə, musiqiyə, teatra xüsusi həssaslıqla yanaşan Heydər Əliyev dühasının müstəsna himayəsi ilə zənginləşib. Vətənini, xalqını, onun zəngin mədəni irsini dərin məhəbbətlə sevən ümummilli lider incəsənət xadimləri, yazıçı, şair, rəssam, heykəltaraş, memar, xanəndə, bəstəkar və aktyorlarla tez-tez görüşür, sənət adamlarının yaradıcılıqları ilə yaxından maraqlanır, korifey sənətkarların yubiley mərasimlərinin keçirilməsi ilə bağlı sərəncamlar verirdi.

Heydər Əliyev ideyalarından güc alaraq qədim tarixə malik milli mədəniyyətmizi zənginləşdirən, beynəlxalq aləmdə təbliğ edən görkəmli sənətkarlarımız da dahi rəhbərə olan sonsuz hörmət, ehtiram və sevgisini onun xatirəsinə həsr etdikləri möhtəşəm sənət əsərlərində yaşadırlar.

**Tofiq BAKIXANOV,**
**"Şöhrət" və "Şərəf" ordenli Xalq artisti, professor:**

– Həyatımda elə anlar var ki, yaddaşımdan silinmir, illər keçdikcə daha dərin məna qazanır. Ümummilli lider Heydər Əliyevlə bağlı xatirələrim buna ən parlaq nümunədir.

Gənc bir bəstəkar kimi "Xəzər balladası" baletini yazanda hələ bilmirdim ki, bu əsər mənim taleyimdə belə böyük yol açacaq. Balet bütün yubileylərdə nümayiş etdirilirdi və hər dəfə də Heydər Əliyev tamaşanı izləməyə gəlirdi. Mən hələ o zaman böyük şəxsiyyətlə şəxsən tanış deyildim, amma mədəniyyətə olan sonsuz sevgi və diqqətini daim hiss edirdim. "Xəzər balladası" dəniz neftçilərinin çətin, rəşadətli və fədakar əməyinə həsr olunmuş yeganə səhnə əsəri idi. Heydər Əliyev bunu xüsusilə qiymətləndirirdi. Elə bu dəyərin davamı kimi əsərim sonradan Fransanın beynəlxalq festival repertuarına daxil edildi. Parisdən tutmuş Monte-Karloya qədər Avropanın bir çox səhnələrində otuz dəfədən artıq səslənmişdi.

1973-cü ildə Ümummilli liderimizin fərmanı ilə mən Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi adına layiq görüldüm. Bu, mənim sənət həyatımda mühüm dönəm, qazandığım ən yüksək ad və Heydər Əliyevlə ilk rəsmi görüşümün başlanğıcı idi.

Ümummilli liderimiz rayonlara tez-tez səfərlər edirdi. Bu səfərlərdə incəsənət xadimləri – şairlər, bəstəkarlar, rəssamlar və digər yaradıcı insanlar onunla birlikdə olurdu. Mən də dəfələrlə onunla Bərdə, İsmayıllı və bir neçə digər rayonlarda olmuşam. Bir dəfə kolxozçularla görüşdən geri qayıdarkən Heydər Əliyevin yanında əyləşən instruktor iştirakçıları bir-bir təqdim edirdi. Mənə çatanda Heydər Əliyev dedi ki, Bakıxanovlar haqqında sözü mən özüm danışacağam.

Ulu öndər alimlər və elm adamları haqqında danışarkən xüsusi olaraq dörd dahi şəxsiyyətin adını çəkirdi. Onların arasında Mirzə Fətəli Axundov və Abbasqulu ağa Bakıxanov da vardı. Bu şəxslərin elmi və mədəni irsi dünyada böyük nüfuz qazanmışdı. Abbasqulu ağa Bakıxanovun qardaşı Azərbaycanın ilk general-leytenantı olmuşdu və Heydər Əliyev qeyd edirdi ki, sərkərdələr arasında ən layiqli generallardan biri də Cəfərqulu ağa Bakıxanov idi. Sonra isə atam Əhməd Bakıxanov haqqında danışdı. Atamın Xalq artisti, Əməkdar incəsənət xadimi və Əməkdar müəllim kimi nailiyyətlərini böyük sevgi ilə xatırlatdı.

Və nəhayət, mənim haqqımda dediyi sözlər sənətə inamı, yaradıcılığa dəyəri, mədəniyyətin əvəzsiz gücünü ifadə edirdi. Dedi ki, Bakıxanov nəslinin ləyaqətli davamçısı öz yaradıcılığı ilə Azərbaycan incəsənətini dünyada təmsil edir. Bu sözlər mənim üçün fəxr idi. Ölkənin ağır yükünü daşıyan bu böyük insan mədəniyyətə, poeziyaya, musiqiyə həssaslıqla yanaşırdı. Onun sənətə verdiyi dəyər, yaradıcı insana göstərdiyi qayğı, mənim həyatımda və sənət yolumda əbədi iz qoydu.

Ümummilli lider 70 illik yubileyimdə incəsənət sahəsindəki xidmətlərimi yüksək qiymətləndirərək məni "Şöhrət" ordeni ilə təltif etdi. Bu mənim üçün mənəvi zirvə idi. Təqdimat zamanı söylədiyi səmimi və dəyərli sözlər isə mən yaşadıqca qəlbimdə yaşayacaq. Mərasimdə öz minnətdarlığımı bildirmək üçün söz aldım. Hörmətli Ulu öndərə söylədim ki, yaxın günlərdə mənim kitabım işıq üzü görüb və həmin kitabın ilk səhifəsində onun mənə göndərdiyi məktubun təsviri yer alır.

Kitabı ona təqdim edəndə Heydər Əliyevin gülümsəməsi qəlbimi sözlə ifadəsi çətin olan duyğularla doldurdu. Dedim ki, bu hadisədən bir neçə gün öncə Kipri ziyarət etmişdim, prezident Rauf Denktaşın dəvəti ilə orada bir sıra görüşlər keçirmişdim. Səfərdən qayıdanda ona da kitabımın bir nüsxəsini təqdim etmişdim. O isə səmimi bir heyranlıqla demişdi: "Siz çox xoşbəxt millətsiniz ki, belə bir prezidentiniz var".

O an hiss etdim ki, sənətə dəyər verən liderin diqqəti bir sənətkarın taleyini deyil, bütöv mədəniyyətin taleyinə işıq tutur. Nitqimə davam etdim, qəlbim dolu idi. Heydər Əliyevin qarşısında çıxış edərkən bildirdim ki, bir zamanlar mənim müəllif konsertim 10 may 1978-ci ildə onun doğum gününə həsr olunmuşdu. O konsertdə dünya ölkələrindən gəlmiş nümayəndələr iştirak edirdi. Amerika, Fransa, İngiltərə və daha neçə-neçə ölkənin təmsilçiləri zalı doldurmuşdu.

Mən fikrimi səsləndirdikdə çıxışımı ingilis dilinə tərcümə etdilər və elə həmin anda gördüm ki, bütün zal ayağa qalxdı. Hamı böyük hörmətlə bildirdi ki, Heydər Əliyevin doğum gününü təbrik edir. Mən də bu təbrikləri ona söylədim, çox xoşuna gəldi. Ardınca əlavə etdim ki, vaxtilə mərhum atama Xalq artisti adının verilməsi bilavasitə onun rəhbərliyi ilə həyata keçmiş bir qərar idi. O, bunu təsdiqlədi, gülümsədi. Mən isə sözümə davam edib bildirdim ki, yenə onun diqqəti sayəsində mənə bəstəkarlar arasında ilk dəfə Əməkdar incəsənət xadimi adı verilmişdi. Bu xatırlatmaya da məmnuniyyətlə "doğrudur" deyə cavab verdi.

Sonra dedim ki, arzu edirəm gələcəkdə Bakıxanovlar nəslinin davamçıları da sizin əlinizdən mükafat alsınlar. Bu sözlər onu sevindirdi, gülümsədi. Elə həmin görüşdən bir müddət sonra mənə Prezident təqaüdünün verildiyini eşitdim. Bu, tam gözlənilməz idi. Hətta yaxın dostlarım – Arif Məlikov, Vasif Adıgözəlov, Xəyyam Mirzəzadə təəccüblə soruşurdular ki, "necə oldu ki, ilk dəfə sənə verildi?" Bu, Heydər Əliyevin sənətə verdiyi yüksək qiymətin nümunəsi idi.

Mən də öz növbəmdə onun xatirəsini əbədiləşdirmək üçün "Həmişə bizimləsən" adlı əsər yazdım. Bu əsər böyük orkestr tərəfindən, Filarmoniyanın səhnəsində dəfələrlə ifa olunub. Dirijorluğunu Xalq artisti Rauf Abdullayev edib. Bir dəfə xaricdən gələn qonaqlar bu əsəri dinlədikdən sonra hamısı ayağa qalxaraq məni təbrik etdilər. "Nə möhtəşəm əsərdir" dedilər.

Sonralar keçirilən qurultaylarda və öz yubileylərimdə çıxışlarımın ilk nömrəsi həmişə Heydər Əliyevə həsr etdiyim simfonik poema ilə başlayırdı. Çünki düşünürəm, nə qədər ki, yaşayırıq, o böyük dahiyə mənəvi borcumuz var. Çünki Ümummilli lider ölkənin hər bir sahəsinə, həm də xüsusilə mədəniyyət və incəsənətə misilsiz qayğı göstərib. Azərbaycan musiqisinin inkişafının möhkəm təməlinin qoyulması məhz onun adı ilə bağlıdır.

**Firəngiz ƏLİZADƏ,**
**Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti, professor:**

– Heydər Əliyevin siması, musiqiyə olan sevgisi, bizimlə səmimi söhbətləri həmişə xatirimdədir. Ulu öndərin musiqiyə münasibəti yüksək zövqün, bədii duyumun təcəssümü idi. Konsertlər bitəndən sonra onun gənc bəstəkarları yanına çağırması, təəssüratlarını bölüşməsi, müəyyən məqamlara dair qeydləri bizə ilham verirdi. Ümummilli lider mədə-



niyyətin, xüsusən də klassik musiqinin Azərbaycan üçün strateji əhəmiyyətini dönə-dönə vurğulayırdı. Biz gənc bəstəkarlar da onun dəyərli fikirlərinə maraqla qulaq asırdıq.

Dahi liderin vəfatı xəbərini eşidəndə Almaniyada idim. Bu xəbərdən dərin sarsıntı keçirdim, çünki məndə belə bir inam yaranmışdı ki, Heydər Əliyevə heç vaxt heç nə ola bilməz. O, bütün çətinliklərin, maneələrin öhdəsindən gələcək və həmişə bizimlə olacaq.

Parisdən Mstislav Leopoldoviç Rostropoviç zəng edib dedi ki, yaxın günlərdə Azərbaycanda simfonik orkestr ilə konserti olacaq və konsertdə Heydər Əliyevin əziz xatirəsinə bir əsər ifa etmək istəyir. Həmin əsəri mənim yazmağımı xahiş etdi. Dahi şəxsiyyətin xatirəsinə əsər yazmaq çox böyük məsuliyyət, eyni zamanda mənəvi borc idi. Dərhal əsərin üzərində işləməyə başladım və simfonik orkestr üçün "İthaf" əsəri yarandı.

Rostropoviçlə bu barədə dəfələrlə danışdıq, o, hər dəfə vurğulayırdı ki, əsər nikbin ruhda yazılmalıdır. Çünki o, inanırdı və əmin idi ki, Azərbaycanı böyük və parlaq gələcək gözləyir. Bu düşüncə mənə çox böyük ilham verdi və əsəri də məhz nikbin ovqatla tamamladım.

Nəhayət, konsert günü gəlib çatdı, möhtərəm cənab Prezident İlham Əliyev də konsertdə iştirak etdi. Premyera çox uğurlu keçdi. Sonralar bu əsər xalq artistləri Rauf Abdullayev və Fəxrəddin Kərimovun rəhbərliyi ilə dəfələrlə bizim simfonik orkestrin repertuarında səsləndirilib. Londonda, "Royal Festival Hall"da məşhur skripkaçı və bəstəkar Dmitri Sitkovetski də əsəri ifa edib. Hər dəfə səhnəyə qoyulanda əsərin Heydər Əliyevin əziz xatirəsinə ithaf olunduğu qeyd edilir. Bu, mənim üçün böyük şərəfdir və belə bir əsərin müəllifi olduğumdan qürur duyuram.

**Natiq ƏLİYEV,**
**Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı, professor:**

– 1978-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirdikdən sonra həyatımda çox mühüm mərhələ başlandı. Həmin dövrdə Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan gənclərinin aparıcı ali rəssamlıq məktəblərinə göndərilməsi məqsədilə xüsusi proqram həyata keçirilirdi. Bu proqram çərçivəsində mən də imtahan verdikdən sonra Leninqrad şəhərində yerləşən Vera Muxina adına Ali Rəssamlıq Məktəbinə qəbul oldum. Qeyd edim ki, bu təhsil ocağı hazırda Baron Ştiqlitz adına Ali Rəssamlıq Akademiyası kimi fəaliyyət göstərir. Təhsil illərim yüksək göstəricilərlə yadda qaldı.



SSRİ-də yaradıcı tələbələr üçün nəzərdə tutulmuş nüfuzlu mükafatlardan biri olan "Lenin" təqaüdünə layiq görülmüşdüm. Bu təqaüd yalnız üçüncü kursu bütün fənlər üzrə əla qiymətlərlə tamamlayan və ictimai fəaliyyətilə fərqlənən tələbələrə verilirdi. Həmin dövrdə bir neçə namizəd vardı, lakin mənim seçilməyimdə əsas rol oynayan amillərdən biri artıq böyük məsuliyyət tələb edən abidə üzərində çalışmağım idi. Söhbət 1985-ci ildə açılışı reallaşan, İkinci Dünya müharibəsi illərində həlak olmuş müəllimlərə, həkimlərə və tələbələrə həsr edilən memorial kompozisiyadan gedir. Abidənin memarlıq hissəsinin müəllifi həmin ali məktəbin rektoru, Rusiya Federasiyasının əməkdar memarı Yakov Nikolayeviç Lukin, heykəltaraşı isə mən idim.

Dördüncü kursda oxuduğum illərdə bir dəfə Bakıya gəlmişdim. Ümummilli lider Heydər Əliyevin xaricə göndərilən tələbələrlə mütləq görüşür, onlara dəyərli tövsiyələrini verirdi. Mən də o görüşlərin birində – sarayda keçirilən tədbirdə iştirak edirdim. Tədbirdə mənə də söz verildi və Ümummilli liderlə bir tribunada əyləşdim. Bu hadisə mənim üçün son dərəcə böyük fəxr və unudulmaz bir an oldu.

Ulu öndər Heydər Əliyevlə növbəti görüşümüz Cəlil Məmmədquluzadənin ev-muzeyi üçün hazırladığım barelyefin təqdimatı zamanı oldu. Açılış mərasimində Heydər Əliyev mənə barelyeflə bağlı bir neçə sual verdi və bu, mənim üçün xüsusi dəyər daşıyan qısa, amma yaddaqalan söhbət oldu. Daha bir görüşümüz isə Gənclərin Birinci Forumunda gerçəkləşdi. Həmin vaxt mən artıq İncəsənət İnstitutunun Rəssamlıq fakültəsinin heykəltaraşlıq kafedrasında müəllim kimi fəaliyyət göstərirdim.

Forum çərçivəsində bizə Heydər Əliyev Sarayının foyesində tələbələrin əl işlərindən ibarət geniş sərgi təşkil etmək tapşırılmışdı. Sərgidə xalça nümunələri, keramika, dekorativ-tətbiqi sənət əsərləri, heykəltaraşlıq və qrafika işləri nümayiş olunurdu. Bu görüş də mənim üçün xüsusi əhəmiyyət kəsb edirdi, çünki dahi şəxsiyyət gənclərin yaradıcılığına və incəsənətə hər zaman böyük diqqət və qayğı ilə yanaşırdı. Onun həmin sərgiyə marağı və verdiyi dəyər bizim üçün həm mənəvi dəstək, həm də yeni yaradıcılıq motivasiyası idi.

Fasilə zamanı Prezident Heydər Əliyev sərgiyə baxmaq üçün foyeyə çıxdı. O, ilk növbədə, nümayiş olunan xalçalardan birinə yaxınlaşdı. Xalçanın üzərinə sanki sənətkar əlini çəkirmiş kimi diqqətlə toxundu, sonra onu ehmalca çevirib arxa tərəfinə baxdı və sakit səslə, lakin peşəkar maraqla "sıxılıq necədir?" – deyə soruşdu. Bu sual həmin an mənə bir qədər qəribə göründü, çünki xalçaçılıqda "sıxlıq" anlayışının nə qədər mühüm texniki göstərici olduğunu o vaxt hələ bilmirdim. Sonradan öyrəndim ki, ilmələrin sayı, düyün sıxlığı, toxunuşun keyfiyyəti xalçanın həm bədii dəyərini, həm də uzunömürlülüyünü müəyyən edir. Bu anlayışı ilk dəfə məhz Ulu öndərdən eşitmişdim. Onun sənət sahələrinə belə incəliklə yanaşması, ən xırda detala belə diqqət yetirməsi məni dərindən təsirləndirmişdi.

O, sərgidə nümayiş olunan bütün əsərlərə eyni həssaslıqla baxırdı. Xüsusilə, heykəltaraşlıq bölməsində bir tələbənin mərmərdən yonduğu iş onun diqqətini cəlb etdi. "Bunu da tələbə hazırlayıb?" – deyə maraqlandı. Biz həmin işin müəllifinin adını qeyd etdikdə onun reaksiyasında həm məmnunluq, həm də gənc yaradıcıların potensialına dair inam hiss olunurdu.

Prezident Heydər Əliyev dünyasını dəyişdikdən sonra mənə Kiyev şəhərində abidəsinin ucaldılması tapşırıldı. Bu, tarixi yükü olan missiya idi. Mən Kiyevə yollandım. Həmin vaxt nə eskiz vardı, nə də hazır layihə. Abidənin qoyulacağı yer göstərildi və işləməyə başladım. Eskizlər hazırlandı, layihə formalaşdı. Memarlıq hissəsini ukraynalı memar Vladimir Skulski, heykəltaraşlıq hissəsini isə mən yerinə yetirdim.

Təbii ki, hər monumental işin ilk mərhələsi Bədii Şurada müzakirə olunur, heç bir abidə eskiz təsdiq olunmadan birbaşa ucaldılmır. Əvvəl gil materialda işlənir, çünki gildə düzəliş etmək, forma üzərində çalışmaq daha asandır. Mənim hazırladığım abidə 11 nəfərdən ibarət Bədii Şuraya təqdim olundu. Şuranın tərkibində həm memarlar, həm də heykəltaraşlar vardı. Onlar işi yüksək qiymətləndirdilər və öz aralarında belə qeyd etdilər ki, uzun müddətdir belə bir fundamental işlənmiş abidə təqdim olunmamışdı. Mən isə içimdə dərin bir həyəcan yaşayırdım.

Abidə bürüncə keçirildikdən sonra quraşdırılma mərhələsinə başladıq. Açılışda Prezident, Ali Baş Komandan İlham Əliyevin də iştirak edəcəyi bildirilmişdi. Səfir mənə "Əgər iş bəyənilsə, sizi Prezidentə təqdim edəcəyik" dedi. Onun bu sözü məsuliyyətimi və həyəcanımı daha da artırdı, çünki həmin vaxta qədər Ulu öndərin ayaqüstü abidəsi işlənməmişdi. Sağlığında Naxçıvanda Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldüyü dövrdə büstü ucadılmışdı. Fəxri xiyabanda isə abidə hələ ucaldılmamışdı. Mənim istinad edə biləcəyim hazır abidə yox idi. Kiyevdə ucaldılan bu abidə öz mahiyyəti və forması ilə ilk idi. Qeyd edim ki, Heydər Əliyevin Kiyevdə ucaldılmış abidəsinin açılışı Fəxri xiyabanda yerləşən abidədən öncə baş tutmuşdu.

Prezident və birinci xanım Mehriban Əliyeva mərasimə təşrif buyurduqdan sonra tədbir daha rəsmi, daha təntənəli bir məzmun aldı. Ukrayna tərəfi də yüksək səviyyədə təmsil olunurdu. Mən isə bütün bu proses boyu daxilən böyük bir həyəcan yaşayırdım. Gözləyirdim ki, məni təqdim edəcəklər, yaradıcı işin müəllifi kimi Prezidentin qarşısına çıxmalı olacağam və bu, mənim üçün böyük imtahan demək idi.

Nəhayət, mənə Prezident İlham Əliyevlə görüşmək qismət oldu. O, çox dəyərli sözlər söylədi. Bu sözləri eşitmək mənim üçün həm böyük şərəf, həm də yaradıcılıq məsuliyyətinin bir daha dərk olunması idi. Çünki hamının tanıdığı, hörmət bəslədiyi, rəğbət duyduğu şəxsiyyətin heykəlini yaratmaq sadəcə, sənətkarlıq deyil, həm də dərin mənəvi məsuliyyət tələb edən prosesdir. Onun daxili aləmini, xarakterini, əzəmətini və qüdrətini abidədə əks etdirmək doğrudan da ən çətin sənət işlərindən biridir. Üstəlik, bu abidəyə çox insan baxacaq, hər kəs öz düşüncəsinə, öz hissinə uyğun olaraq onda nəsə axtaracaq.

Mən bütün bunların fərqində idim və məsuliyyət hissi hər mərhələdə məni müşayiət edirdi. Şükürlər olsun ki, hər şey uğurlu alındı və abidə öz bədii təsir gücü ilə layiqincə qarşılandı. Kiyev layihəsindən sonra mən Tbilisidə Ulu öndərin büstünü hazırladım. Ardınca Belqradda, Taşmaydan parkında onun abidəsini işlədim və digər layihələr meydana gəldi.

Bir məqama xüsusi diqqət yetirmək istəyirəm. Fikrimcə, Rəssamlıq Akademiyasının yaradılması yalnız rəssamlara deyil, bütövlükdə Azərbaycan cəmiyyətinə böyük töhfə idi. Çünki biz bu akademiyanı illərlə gözləmişdik. O vaxtlar Sankt-Peterburqdan başlayaraq Moskva, Kiyev, Xarkov, Lvov, Tbilisi və Daşkənd kimi böyük şəhərlərdə rəssamlıq məktəbləri, akademiyalar fəaliyyət göstərirdi, lakin Azərbaycanda belə bir akademiya yox idi.

Dahi lider bu boşluğu dərhal gördü və 2000-ci ildə Rəssamlıq Akademiyasının yaradılması ilə ölkədə incəsənət təhsili sahəsində yeni bir mərhələ başladı. Bununla yanaşı, Rəssamlar İttifaqının balansında olan bütün emalatxanaların rəssamlara tamamilə pulsuz, şəxsi mülkiyyət kimi verilməsi Ulu öndərin yaradıcı insanlara göstərdiyi diqqətin ən parlaq nümunələrindəndir. Bu addım təkcə maddi dəstək deyil, həm də mənəvi bir təşviq idi.

Bütün bu addımların hər biri Heydər Əliyevin yaradıcı insanlara, ölkənin bədii irsinə və incəsənətinin inkişafına göstərdiyi diqqətin bariz təzahürüdür. Bu gün həmin qayğının nəticələri bütövlükdə mədəniyyətin inkişafında özünü göstərir.

**Faiq SÜCƏDDİNOV,**
**Xalq artisti, bəstəkar:**

– Ulu öndər Heydər Əliyev musiqini dərindən sevən, memarlıq sənətini yüksək səviyyədə bilən, ümumiyyətlə, çoxşaxəli şəxsiyyət idi. Onunla bağlı çoxlu xatirələrim var.

1988-ci ildə uçmaq təhlükəsi olduğuna görə Azərbaycan Dövlət Akademik Musiqili Teatrın (ovaxtkı Musiqili Komediya Teatrı) binası sökülmüş və əməkdar mühəndis Əliş Ləmbəranskinin rəhbərliyi ilə yeni binanın inşasına başlanılmışdı. Teatrın binasının tikilib istifadəyə verilməsinə xüsusi diqqət və qayğı göstərən Ümummilli lider Heydər Əliyev tikinti işləri ilə tanış olarkən bildirdi ki, burada mütləq milli ornamentlər olmalıdır. Sonra gülümsəyərək dedi: "Əliş, sən bunları yaxşı bilirsən axı!"



Mən 1970-ci illərdən etibarən onun çıxışlarını, musiqiyə, mədəniyyətə bağlılığını yaxından izləmişəm. Məsələn, 1941–1942-ci illərdə Azərbaycanda caz orkestri yaradılmışdı. Onun rəhbərləri Tofiq Quliyev və Niyazi idi. Onlar Naxçıvanda 10 konsert vermişdilər. Gənc leytenant Heydər Əliyev həmin konsertlərin hamısına gəlirmiş. Tofiq Quliyevlə də həmin dövrdə tanış olmuşdular.

Ümummilli liderin musiqiyə sevgisini göstərən bir hadisə də yaddaşıma həkk olunub. Bakıdan Neft Daşlarına gəmi yola düşərdi. Heydər Əliyev Zərifə xanımla birlikdə tez-tez həmin səfərlərdə olurdu. Çünki gəmiyə xüsusi olaraq piano gətirilirdi. Orada onlar birlikdə musiqi dinləyərdilər, Zərifə xanım özü də gözəl piano ifa edirdi...

Bir hadisənin də şahidi olmuşam. Moskvadan əməkdar incəsənət xadimi, məşhur bir musiqişünas Bakıya gəlmişdi. Heydər Əliyev onu qəbul edərkən dedi ki, "Gəlin sizə Azərbaycan bəstəkarları məktəbi haqqında danışım". O, böyük məhəbbətlə Fikrət Əmirovun yaradıcılığından, simfonik poemalarından, muğam əsərlərindən, Qara Qarayevin klassik irsindən danışdı. Həmin xanım heyranlıqla dedi: "Heydər Əliyev, siz bunu o qədər gözəl və peşəkar səviyyədə bilirsiniz ki, mən sizə dəfələrlə təşəkkür etməyə söz tapa bilmirəm. Siz son dərəcə bilikli insansınız".

1980-ci ildə Azərbaycanda 8 nəfərə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdi. Onların arasında Mirzə İbrahimov, Rəşid Behbudov, maestro Niyazi, Qara Qarayev də vardı. Həmin dövrdə Ukraynada bu mükafatı yalnız 2 nəfər almışdı, Azərbaycanda isə 8 nəfər. Bu, Azərbaycan mədəniyyətinin təntənəsi idi və bütün bunların arxasında Ulu öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinə olan böyük sevgisi, diqqəti və himayəsi dayanırdı.

Dahi lider teatr sənətini də mükəmməl bilirdi. O, aktyorlarla peşəkar teatr terminologiyası ilə danışır, "bu səhnəni çox bəyəndim", "bu epizodu daha güclü oynamaq olardı" kimi qeydlər edirdi. Bu, onun teatr sənətini necə dərindən bildiyini göstərirdi.

Mən hər zaman deyirəm ki, o, mədəniyyətin böyük dostu idi. Zaman keçdikcə, biz onun böyüklüyünü daha yaxşı anlayırıq. 1993-cü ildə ikinci dəfə ölkə rəhbərliyinə qayıdışından sonra o, ölkə prezidenti kimi yenidən mədəniyyətə, incəsənətə qayğı göstərir, demək olar ki, bütün tədbirlərdə iştirak edirdi. Həmişə maraqlanırdı ki, Tofiq Quliyev hansı əsəri yazıb, Fikrət Əmirovun yeni yeni ifa edilənəsəri hansıdır, Cahangir Cahangirov hansı yeniliyi yaradıb və s. Bir dəfə mənə dedi: "Yaxşı mahnılar yazırsan". O dövrdə mən İlhamə Quliyevaya bir neçə mahnı yazmışdım və deyilənə görə, Ulu öndər həmin onları çox sevirdi.

Mən və sənət dostlarım üçün Ulu öndər hər zaman ilham mənbəyi olub. Biz dahi liderin xatirəsinə əsərlər yazmağı özümüzə borc bilmişik. Heydər Əliyevin xatirəsinə fortepiano üçün yazdığım "Rekviyem" Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında səslənib və Azərbaycan Televiziyasında yayımlanıb.

İllər keçdikcə, biz bu insanın böyüklüyünü daha dərindən anlayırıq, Ulu öndər nəinki müdrik siyasətçi, həm də musiqinin, teatrın, sənətin böyük dostu idi. O, sənət adamlarına həmişə çox diqqətli idi. Onlara təqaüdlərin verilməsinə, evlə təmin olunmalarına şəxsən nəzarət edir, həyat şəraiti ilə maraqlanır, yubileylərində iştirak edirdi. Hətta ən kiçik jestləri belə unutmayan son dərəcə nəcib insan idi.

***Hazırladılar:***
***Mehparə ƏLİYEVA,***
***Fidan ƏLİYEVA,***
***Ləman TƏHMƏZ***
***XQ***

# Naxçıvanın ən böyük ziyarətgahı

*Heydər Əliyev Muzeyinin xatirələr kitabından*




**Naxçıvan şəhərinin mərkəzi meydanında gözəl memarlıq quruluşu ilə diqqəti cəlb edən Heydər Əliyev Muzeyi ölkəmizdə dahi şəxsiyyətin sağlığında yaradılmış ilk muzeydir. 1999-cu il fevralın 18-də istifadəyə verilən muzeyi o zaman Azərbaycan Prezidenti olan Ümummilli liderin özü də həmin ilin oktyabr ayında ziyarət etmişdir.**

Muzey fəaliyyətə 450 eksponatla başlayıb, hazırda isə onların sayı 5700-dən çoxdur. Ziyarətçilər burada dahi rəhbərin ictimai-siyasi fəaliyyəti, keçdiyi şərəfli həyat yolunu özündə əks etdirən materiallar, qəbul etdiyi tarixi qərar və sərəncamlar, imzalanmış protokol və müqavilələr, məktub və teleqramlar, istifadə etdiyi xatirə əşyaları ilə yaxından tanış olmaq imkanı əldə edirlər. Eyni zamanda görkəmli dövlət xadiminin muzey ziyarəti zamanı çəkilmiş tarixi fotoları da buradakı ekspozisiyada nümayiş etdirilir.

**“26 ildir ki, Naxçıvana gələn nüfuzlu, xüsusi statuslu qonaqların ilk üz tutduğu məkan məhz Heydər Əliyev Muzeyidir”.** Heydər Əliyev Muzeyinin direktoru, Azərbaycan Respublikasının Əməkdar Mədəniyyət işçisi Ramil Orucəliyev bu sözlərin davamında bildirdi ki, bu mədəniyyət müəssisəsi Naxçıvanın özündə də ən çox ziyarət edilən məkanlardan biridir. Ümumilikdə, indiyədək yüz minlərlə tamaşaçının ziyarət etdiyi bu muzeyi dünyanın müxtəlif ölkələrindən tanınmış dövlət başçıları, elm və mədəniyyət nümayəndələri, diplomatlar ziyarət edib, dahi şəxsiyyətin böyük irsi ilə yaxından tanış olublar. Bu tanışlıqdan yaranan maraqlı təəssüratlar isə muzeyin Xatirə kitablarının səhifələrinə süzülərək özü tarixə çevrilib. “Xalq qəzeti” ilk dəfə olaraq bu tarixin səhifələrini oxucuları üçün vərəqləyəcək.


Bugün 4. Haziran. 08
Türk Dünyasının yetiştirdiği müstesna liderlerden, Azerbaycan'ın kurucusu merhum Haydar ALİYEV'in doğum yeri olan Nahçıvan'da bulunmaktan ve Onun aziz hatırasını yaşatan bu müzeyi ziyaret etmekten dolayı derin bir hissiyat içindeyim.
Merhum Cumhurbaşkanının seçkin liderliğinin, Azerbaycan'ın bugünkü istikrarlı ve geleceğe güvenle bakan konumundaki rolü büyüktür.
Türk Milleti O'nu daima saygıyla anacaktır.
Ruhu şad olsun.
Recep Tayyip ERDOĞAN
Türkiye Cumhuriyeti
Başbakan

***Muzeyin birinci Xatirə kitabının ilk səhifəsindəki qeydlər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə məxsusdur:***

“Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev öz həyatını Azərbaycanın inkişafına həsr etmişdir. Bütün dövrlərdə öz xalqına ləyaqətlə xidmət etmiş Ulu öndər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində xüsusi rol oynamışdır. 70-80-ci illərdə Azərbaycanın rəhbəri kimi, ondan sonra Moskvada Sovet İttifaqı Kommunist Partiyasının Siyasi Bürosunun üzvü kimi Azərbaycanın hərtərəfli inkişafında hərtərəfli rol oynamışdır. Naxçıvanda, 90-93-cü illərdə ağır, çətin günlərdə naxçıvanlılarla birlikdə muxtar respublikanı erməni işğalçılarından müdafiə etmişdir. Və nəhayət, Azərbaycan dövlətinin Prezidenti kimi Azərbaycanın tərəqqi və çiçəklənmə yoluna qədəm qoymasında əvəzsiz xidmətlər göstərmişdir. Ulu öndər Heydər Əliyev öz doğma Vətənini – Naxçıvanı çox sevirdi. Naxçıvanlılar da həmişə onu sevirdilər və fəxr edirlər ki, dünyaya Heydər Əliyev kimi dahi şəxsiyyəti bəxş etdilər.

Bu gün Heydər Əliyev bizim qəlbimizdə yaşayır, onun ideyaları, siyasi kursu yaşayır və əbədi yaşayacaqdır”.

**İlham Heydər oğlu Əliyev, Azərbaycan Respublikasının Prezidenti, Naxçıvan, 20.12.2006**



***Qardaş Türkiyə Respublikasının indiki Prezidenti Rəcəb Tayyib Ərdoğanın muzeyin xatirə kitabındakı təəssüratları 2008-ci ilə təsadüf edir. Türkiyə liderinin Ümummilli lider Heydər Əliyevlə bağlı rəyi belə ifadə olunub:*** “Türk dünyasının yetişdirdiyi müstəsna liderlərdən, Azərbaycanın qurucusu mərhum Heydər Əliyevin doğum yeri olan Naxçıvanda olmaqdan və Onun əziz xatirəsini yaşadan bu muzeyi ziyarət etməkdən dolayı dərin bir hissiyyat içərisindəyəm. Mərhum dövlət başçısının seçkin liderliyinin Azərbaycanın bugünkü istiqrarlı və gələcəyə güvənli mövqeyində rolu böyükdür. Türk milləti Onu daim hörmətlə anacaqdır. Ruhu şad olsun”.

**Rəcəb Tayyib Ərdoğan**
**Türkiyə Respublikasının Baş naziri**
**4 iyun 2008-ci il**

2009-cu ildə Naxçıvanda keçirilmiş Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısı çərçivəsində Naxçıvana gəlmiş Türkiyə Prezidenti Abdulla Gül isə muzeyi ziyarətinin ona “dahi şəxsiyyətin Azərbaycan Respublikasının inkişafı və dünyada layiq olduğu yeri almaq üçün atdığı addımları bir kərə görmə fürsəti verdiyini” bildirir. Qeyd edir ki, “Prezident Əliyevin “Bir millət, iki dövlət” şüarının Türkiyə və Azərbaycan tərəfindən əsla unutmayacağına inanır, əziz xatirəsi önündə hörmətlə baş əyirəm”.

***ADA Universitetinin rektoru Hafiz Paşayev 2010-cu ildə Heydər Əliyev Muzeyində olarkən muzey haqqında fikirlərini bu cür qeyd edib:*** “Böyük həvəslə muzeyin tərtibatı, fotoşəkillərlə tanış olduq. Ulu öndərə layiq təhsil ocağının yaradılmasında iştirak edənlərə təşəkkürümüzü bildirir, yeni nəslin tərbiyəsində əməklərini yüksək qiymətləndiririk. Yeni uğurlar”.

***AMEA-nın Prezidenti, akademik İsa Həbibbəyli 2007-ci ildə Naxçıvan Dövlət Universitetinin rektoru olarkən muzeyin Xatirə kitabına bu sözləri yazıb:*** “Naxçıvan Dövlət Universitetinin bütün inkişafı görkəmli dövlət xadimi, Ümummilli liderimiz Heydər Əliyevin adı və yorulmaz fəaliyyəti ilə bağlıdır… Universitetimizin çoxminli kollektivi böyük öndərin sınaqlardan çıxmış siyasi kursuna daim sadiq qalmağı özünün şərəfli borcu hesab edir…”.

***Türkiyə Respublikasının Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıcın Xatirə kitabındakı bu qeydləri Heydər Əliyev dühasının böyüklüyünü özündə əks etdirir:*** “Böyük öndər zamanları aşan bir liderdir. Türk dünyasının inkişafını çox istəmiş və böyük xidmətlər etmişdir. Onun Türk dünyasına duyduğu sevgi Türkiyədə yaşayan hər kəs tərəfindən bilinir… Burada tarixə yolçuluq etdim. Böyük öndərin uşaqlığı və xidmətlərini xəyal etdim. Ulu öndər ruhun şad olsun. Hörmətlə anıram… Anacağam…”.

Türkiyədən bir qrup millət vəkilinin 2011-ci ildə muzey ziyarəti zamanı imzaları ilə qeyd olunmuş bir xatirədə isə yazılıb: “Heydər Əliyev Muzeyində yeni bir dövlətin quruluş həyəcanını izlədik. Mərhum Heydər Əliyevin Atatürk kimi dünyaya meydan oxuyaraq, yox olmuş bu torpaqlardan müasir bir Vətən quran bu böyük insana heyət olaraq şükranlarımızı bildiririk”.

**Türkiyə Respublikasının keçmiş müdafiə naziri İsmət Yılmaz 2014-cü ildə Heydər Əliyev Muzeyini ziyarət edən zamanı Ulu öndər Heydər Əliyev haqqında fikirlərini belə ifadə edib:** “Müstəqil Azərbaycan dövlətinin qurucusu və milli lideri Heydər Əliyev Türk dünyasının yetişdirdiyi öndər şəxsiyyətlərdən biridir. Onun dövlətçilik təcrübəsi, siyasi dühası bundan sonra da ardınca gələnlər üçün qiymətli bir yol göstərir”.

Muzeyin Xatirə kitablarının səhifələrində Qazaxstanın keçmiş prezidenti Nursultan Nazarbayevin, Qırğızıstan Respublikasının eks–prezidenti Kurmanbek Bakiyevin, eləcə də digər Orta Asiya respublikalarının dövlət və elm adamlarının, Pakistan, Yaponiya, Rusiya, Belarus, Ukrayna, Fransa, Yunanıstan, ATƏT və digər ölkələrin Azərbaycandakı səfirlərinin, hərbi attaşelərinin, xaricdəki Azərbaycan və türk diaspor nümayəndələrinin dahi Heydər Əliyevlə bağlı təəssüratları, maraqlı fikirləri yer alıb. Təbii ki, sətirlərə süzülən bu xatirələrin hər birindən ayrılıqda bəhs etmək mümkünsüzdür. Amma bu fikirlərin hər birində Ümummilli liderin dövlətçilik təcrübəsinə, siyasi istedadına heyranlıq hiss olunur.

Hiss olunur ki, cəmiyyətdə tutduğu mövqedən, fərqli və ya oxşar mədəniyyətlərə mənsubluğundan asılı olmayaraq dahi liderlə əyani tanışlığı olanın da, olmayanın da Heydər Əliyev şəxsiyyətinə, onun möhtəşəm siyasi fəaliyyətinə bir vurğunluq var.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Bakıda Ümummilli liderin xatirə gecəsi





**Bakıda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirə gecəsi keçirilib.**

Tədbir çərçivəsində Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş “Liderin qəlbi” sənədli filmi nümayiş etdirilib. Filmin müəllifi Mixail Qusmandır.

Filmi Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva izləyib.

Tədbir Ümummilli liderin xatirəsinə bir dəqiqəlik sükutla başlayıb.

İzləyicilər qarşısında çıxış edən Mixail Qusman filmin üzərində iş prosesindən danışıb və bu cür dahi şəxsiyyət haqqında bir saatlıq lent yaratmağın asan olmadığını vurğulayıb. O qeyd edib ki, materiallar Heydər Əliyevin yolunu və xarakterini mümkün qədər dəqiq çatdırmaq üçün hissə-hissə toplanıb.

Filmin müəllifi, həmçinin Ümummilli liderlə bağlı şəxsi xatirələrini bölüşərək onun qeyri-adi daxili gücünü, möhkəm xarakterini və cəsarətini qeyd edib.







M.Qusmanın sözlərinə görə, Heydər Əliyev ləyaqətini və təmkinini itirmədən həyatın bütün çətinliklərinin öhdəsindən gələ bilib və həmişə özünün əsas - Azərbaycana xidmət etmək məqsədinə sadiq qalıb. Heydər Əliyevin bütün həyatı ölkəyə və onun gələcəyinə həsr olunub və o, həqiqətən öz xalqı üçün yaşayıb.

Mixail Qusman filmdə yer almış epizodlardan birinin üzərində ayrıca dayanıb: çıxışı zamanı Heydər Əliyevin özünü pis hiss etdiyi an. Müəllif qeyd edib ki, bu kadr liderin mənəvi gücünü və dözümlülüyünü vurğulayan hekayənin mühüm hissəsinə çevrilib.

***XQ***



# Rustavidə anım mərasimi

**Gürcüstanın ikinci ən böyük şəhəri olan Rustavidə Gürcüstan Azərbaycanlılarının Təhsil və Mədəniyyət Mərkəzinin müəllim və şagirdləri, eləcə də ictimaiyyət nümayəndələri, valideynlər şəhərdəki Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla anıblar.**



Tədbirdə çıxış edən Mərkəzin rəhbəri Raida Dərziyeva Ulu öndərin həyat və fəaliyyəti haqqında gənclərə ətraflı məlumat verərək bildirib ki, Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişafına, dünya ölkələri arasında layiqli yer tutmasına həsr etmişdir. Onun yürütdüyü müdrik və uzaqgörən siyasəti bu gün uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycan və Gürcüstan arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafına xüsusi diqqət və qayğı ilə yanaşır.

Raida Dərziyeva daha sonra deyib ki, xalqımız 12 dekabrı ulu öndər Heydər Əliyevin anım günü kimi böyük el məhəbbəti, minnətdarlıq hissi ilə qeyd edir. Tarixə öz adını əbədi həkk etmiş nadir şəxsiyyətin, qüdrətli siyasi xadimin həyat və fəaliyyəti hər bir Azərbaycan vətəndaşının qürur mənbəyinə çevrilmişdir: “Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Həmin dahilər öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib rolu oynamışlar.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür. Heydər Əliyevin həyat yolu yüksək insani-əxlaqi keyfiyyətləri özündə təcəssüm etdirən nümunəvi məktəbdir. Onun ölkəmizə rəhbərlik etdiyi illər tariximizə intibah, milli tərəqqi, milli oyanış, nəhayət, müstəqil dövlət quruculuğu dövrü kimi daxil olub”.

***Ə.PAŞA***
***XQ***

# Slovakiya ilə əməkdaşlıq Azərbaycanı Avropaya daha da yaxınlaşdırır



**Siyasətdə böyük işlər görmək üçün hər incə detalı düşünmək lazımdır. Əsrlərdən bəri indiyə qədərki hadisələr göstərir ki, siyasi proseslərdəki incə detallar böyük uğurların və qələbələrin başlanğıcı olur. Çünki bu sahədəki hər bir addım, hər bir söz və hər bir qərar gələcək hadisələrin istiqamətini müəyyənləşdirir.**

Bratislavada imzalanan sənədlər, keçirilən görüşlər onu sübut etdi ki, Azərbaycan artıq Avropanın tam mərkəzindədir. Son 5 il ərzində, ələlxüsus Vaşinqton sazişinə qədər Fransa və Makronistlərin Avropa ilə Azərbaycanın əlaqələrini pozması cəhdləri fonunda Şərqi Avropa ölkələrinin ardından artıq Mərkəzi Avropa istiqamətində Azərbaycan öz müttəfiqlərinin sayını durmadan artırmaqdadır. Bu, kiçilən dünyada böyük dövlət olmaq deməkdir!

Avropa siyasəti uzun illərdir ki, ideyalar və maraqlar arasında tarazlıq axtarışı üzərində qurulub. Bu məkan təkcə iqtisadi və siyasi ittifaqların coğrafiyası deyil, həm də qlobal sivilizasiya yönümlü düşüncənin laboratoriyasıdır. Məhz bu səbəbdən Avropaya edilən hər diplomatik səfər özündə siyasi məna ilə yanaşı, daha dərin fəlsəfi məzmun da daşıyır.

Azərbaycan Prezidenti İlham Əliyevin Slovakiyaya səfəri Avropanın yeni təhlükəsizlik arxitekturası formalaşdığı bir dövrdə baş verdi. Bu dəyişən sistemin fəlsəfəsində iki əsas çalar önə çıxır. Müasir Avropa siyasi düşüncəsində güc anlayışı yenidən şərh olunur. Artıq yalnız iri dövlətlərin diktəsi deyil, etibarlı, proqnozlaşdırıla bilən və funksional tərəfdaşlıq təklif edən dövlətlər də strateji mərkəzə çevrilir. Azərbaycan enerji sabitliyi, nəqliyyat arteriyalarının açılması və regional sülhün təşviqi ilə Avropanın yeni güc konseptinə uyğun gəlir.

Avropa postsənaye dövrünün enerji asılılığını azaltmaq, təchizatı şaxələndirmək, siyasi fraqmentasiyadan qaçmaq kimi çağırışlarını yaşayır. Bu mənada, Azərbaycanla əməkdaşlıq sadəcə siyasi qərar deyil, Avropanın öz siyasi - fəlsəfi seçiminin nəticəsidir – əsaslı, dayanıqlı və etik tərəfdaş seçimi.

2020-ci ilin 44 günlük müharibəsindən və 2023–cü ilin payızında antiterror tədbirlərindən sonra Azərbaycan xarici siyasətinin paradiqmalarında suverenlik fəlsəfəsi, funksional tərəfdaşlıq modeli kimi istiqamətlər ön plana çıxdı. Azərbaycan postmüharibə dövründə xarici siyasətini heç bir blokdan asılı olmayan, lakin bütün qütblərlə əməkdaşlığa açıq model əsasında qurur.

Slovakiya Mərkəzi Avropa regionunda yeri və enerji təhlükəsizliyinə artan tələbatı ilə Azərbaycan üçün yeni siyasi meydan açır. Bu əməkdaşlıq təkcə ikitərəfli deyil, həm də Azərbaycan–Aİ əlaqələrinin dərinləşməsi üçün körpü rolunu oynayır.

Prezident İlham Əliyevin Slovakiyaya rəsmi səfəri iki ölkə münasibətlərində yeni strateji mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir. Səfər zamanı Slovakiya rəhbərliyinin ölkəmizə göstərdiyi yüksək siyasi diqqət, aparılan danışıqların məzmunu və imzalanan sənədlər tərəflərin əməkdaşlığı dərinləşdirmək iradəsini açıq şəkildə ortaya qoydu.

Təsadüfi deyil ki, Slovakiyanın aparıcı media orqanları – TASR xəbər agentliyi, "TA3" telekanalı, "Dennik", "Slovak Spectator", "Hospodarske noviny" qəzetləri və digər mətbu orqanları rəsmi səfər, keçirilən görüşlər və imzalanan sənədlərlə bağlı geniş silsiləli xəbərlər yayıblar. Yerli media orqanları və ekspertlər səfər zamanı keçirilən görüşləri və imzalanan sənədləri Azərbaycan–Slovakiya münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsində mühüm addım kimi qiymətləndiriblər.

Vurğulanıb ki, Slovakiya Prezidenti Peter Pelleqrini və Baş nazir Robert Fitso ilə danışıqlar dostluq və qarşılıqlı hörmət ruhunda keçib.

Görüşlərdə enerji təhlükəsizliyi və təbii qaz təchizatının şaxələndirilməsi məsələləri əsas mövzulardan biri olub. Prezident İlham Əliyev bəyan edib ki, "ənənəvi əməkdaşlıq sahəsi olan energetika üzrə konkret layihələr icra edilir. Keçən il ilk dəfə olaraq Azərbaycan qazı Slovakiyaya təchiz edilmişdir və Slovakiyanın ehtiyacları olan səviyyədə, istənilən həcmdə Azərbaycan enerji resurslarını təmin edə bilər". Prezident İlham Əliyevin Slovakiyaya istənilən vaxt əlavə qaz tədarük etməyə hazır olması barədə bəyanatı Avropada enerji xəritəsinin yenilənməsində Azərbaycanın davamlı rolunun təsdiqidir.

Bu, həm də Slovakiyanın gələcək enerji strategiyasında Azərbaycanın xüsusi yer tutacağını göstərir. Tərəflər "yaşıl enerji" layihələri, elektrikötürmə xətləri və logistika zəncirinin genişləndirilməsi üzrə əməkdaşlığın inkişaf etdirilməsi barədə razılığa gəliblər.

Danışıqlar zamanı hər iki ölkənin müdafiə sənayesi müəssisələrinin əməkdaşlığının genişləndirilməsi ilə bağlı fikir mübadiləsi də aparılıb. Qeyd edilib ki, Azərbaycan və Slovakiya birgə istehsal sahələrini inkişaf etdirməklə beynəlxalq bazarlara yeni məhsullar çıxara bilərlər. Hərbi–texniki əməkdaşlıqda yeni meyillər Azərbaycanın postmüharibə dövründə müdafiə sənayesinin modernləşdirmə strategiyasının davamıdır və bu aspektsən Slovakiya təcrübəsi də kifayət qədər maraq kəsb edir.

Görüşlərdə iki ölkə arasında iqtisadi əməkdaşlığın, ticarət dövriyyəsinin və investisiya əlaqələrinin genişləndirilməsi məsələləri də diqqət mərkəzində olub.

Beləliklə, Prezident İlham Əliyevin Slovakiyaya səfəri təkcə ikitərəfli münasibətlərdə yeni səhifə açmadı, həm də Azərbaycan–Avropa münasibətlərinin strateji dərinliyini bir daha nümayiş etdirdi. Enerji, nəqliyyat, müdafiə sənayesi və iqtisadiyyat sahələrində əldə olunan razılaşmalar qarşıdakı illərdə əməkdaşlığın çoxşaxəli inkişafını təmin edən möhkəm siyasi baza formalaşdırır.

Yuxarıda qeyd edilənlərdən bir daha aydın olur ki, Azərbaycanın postmüharibə dövründə formalaşdırdığı xarici siyasət xətti təkcə praktiki diplomatiyanın deyil, həm də geosiyasətin fəlsəfəsi nəzəriyyəsi kimi dəyərləndirilməlidir. Bu yanaşmanın mahiyyətində bir neçə təməl dayanır: suverenlik prinsipi, funksional tərəfdaşlığın praqmatik konstruksiyası və çoxtərəfli münasibətlər sistemində tarazlıq yaratmaq bacarığı.

Nəticə etibarilə, Azərbaycanın postmüharibə dövrü xarici siyasəti artıq regional siyasət çərçivəsindən çıxaraq müəyyən fəlsəfi-ideoloji məktəb formalaşdırır. Bu məktəb suverenliyə söykənən dövlətçilik modelinin, funksional əməkdaşlıq platformalarının inşası ilə seçilir. Bu mənada, Azərbaycan Respublikasının xarici siyasətdə əldə etdiyi son uğurlar yalnız diplomatik nailiyyətlər toplusu kimi deyil, həm də ölkənin müasir beynəlxalq sistemdə öz strateji mövqeyini ideoloji, fəlsəfi və konseptual əsaslar üzərində möhkəmləndirdiyini göstərən siyasi-fəlsəfi manifest kimi dəyərləndirilə bilər.

***Zaur MƏMMƏDOV,***
***Dövlət İdarəçilik Akademiyasının müəllimi,***
***Bakı Politoloqlar Klubunun sədri***

*Beynəlxalq həyat*

**Ukraynada davamlı və dayanıqlı sülhün təmin edilməsi üçün səylər davam edir. Doğrudur, hələ konkret nəticələrə gəlinməsi mümkün olmayıb, amma məsələ ətrafında dialoq və səfərlər intensiv xarakter alıb. Hətta son zamanlar Ukrayna mövzusu ilə bağlı ABŞ və Avropa İttifaqı arasında müəyyən ziddiyyətlər də yaranıb. ABŞ-ın təklif etdiyi sonuncu sülh təklifi istər Ukrayna, istərsə də avropalı müttəfiqlər tərəfindən birmənalı qarşılanmamış, ciddi fikir ayrılıqları ilə müşayiət olunmuşdu.**

# Ukraynaya ədalətli sülh gələcəkmi?

Son günlərdə aparılmış intensiv ABŞ-Aİ-Ukrayna danışıqları ziddiyyətləri bir qədər aradan qaldırmağa imkan vermiş olsa da, yenə də konkret qərarların qəbuluna nail olunmayıb. Məsələni çətinləşdirən sülh təkliflərində Ukraynanın ərazi bütövlüyünün təmin edilməsi ilə bağlı sualların qalmasıdır. Bu, Ukrayna rəhbərliyinin başlıca narahatlığı olaraq qalır.

Avropa İttifaqında hesab edirlər ki, məqsəd təkcə Ukraynadakı müharibəyə son qoymaq deyil, bununla yanaşı, bu ölkə üçün ədalətli və davamlı sülh təmin edilməlidir. Aİ hazırda bu istiqamətdə səylərini davam etdirir. Bu barədə dünən Aİ Komissiyasının sözçüsü Paula Pino da gündəlik mətbuat konfransında danışıb.



O, jurnalistlərin ABŞ Prezidenti Donald Trampın "Miladdan əvvəl" sülh razılaşmasına nail olmaq istəyi ilə bağlı sualına cavabında deyib: "Hamımız bunu istəyirik və sadəcə arzulamırıq. Hamımız çox uzun müddətdir bu dəhşətli müharibəyə son qoymaq üçün çox konkret addımlar atırıq. Buna görə də nə qədər tez bitsə, bir o qədər yaxşıdır".

P.Pino sülh sazişi üzrə danışıqların davam etdiyinə diqqət çəkərək, Aİ nümayəndələrinin Ukrayna və ABŞ ilə danışıqlar apardığını və bu zaman Aİ-nin mövqeyinin də nəzərə alındığını qeyd edib. Onun sözlərinə görə, Ukrayna, Aİ və ABŞ-ın bu müharibəyə son qoymaqda ortaq maraqları var: "Bundan əlavə, məqsədimiz təkcə müharibəyə son qoymaq deyil, həm də həqiqətən ədalətli və davamlı sülhə nail olmaqdır. Biz bu məqsədə çatmaq üçün çox fəal şəkildə çalışırıq".

Ukrayna Prezidenti Volodimir Zelenski isə ölkəsinin ərazi güzəştlərinə getməsi ilə bağlı məsələyə münasibət bildirərək deyib ki, bu məsələ Ukrayna xalqı tərəfindən yalnız seçkilər və ya referendum yolu ilə həll edilə bilər.

V.Zelenski Kiyevin Rusiya qoşunları tərəfindən ələ keçirilmiş bəzi ərazilərdən imtina etməsini münaqişənin həlli üçün davam edən səylərdə "ən çətin" məqam adlandıraraq, sülh planının bu bəndində heç bir kompromis həll yolunun olmadığını iddia edib. O, dekabrın 11-də jurnalistlərlə görüşündə ABŞ-ın guya Donbasda "azad iqtisadi" və ya alternativ olaraq "silahsızlaşdırılmış" zona yaratmağı təklif etdiyini açıqlayıb. Həm də Ukrayna qoşunlarının bu ərazidən çıxarılması tələb olunur.

Ukrayna lideri qeyd edib ki, bu məsələ ilə bağlı dialoq davam edir və Kiyev bərabərlik və təhlükəsizlik zəmanətlərinə əsaslanan həll yolları axtarır. Ərazilərlə bağlı isə son qərar xalqın mövqeyinə əsaslanmalıdır: "İnanıram ki, Ukrayna xalqı bu suala cavab verəcək. İstər seçkilər, istərsə də referendum yolu ilə olsun, Ukrayna xalqı mövqe bildirməlidir. Amerikalılar da uyğun bir format axtarırlar".

Zelenski referendumun formatını və ya vaxtını dəqiqləşdirməyib. O, əvvəllər bildirmişdi ki, Kiyevin tərəfdaşları təhlükəsizlik məsələlərini təmin edə bilsələr, Ukraynada seçkilər 60-90 gün ərzində keçirilə bilər.

Ukrayna prezidenti qeyd edib ki, Zaporojye Atom Elektrik Stansiyasının statusu da mübahisəlidir və sülh müqaviləsinin son versiyası Ukrayna ordusunun hazırkı sayının təxminən 800 000 əsgər həddində saxlanılmasını nəzərdə tutur.

Zelenski bildirib ki, Ukrayna və ABŞ sülh müqaviləsinin bir hissəsi olaraq iqtisadi və yenidənqurma, eləcə də təhlükəsizlik zəmanətləri ilə bağlı müqavilələr imzalayacaqlar. Ukrayna tərəfi Amerika təhlükəsizlik zəmanətləri qrupu ilə konstruktiv müzakirə aparır: "Təhlükəsizlik zəmanətləri bütün gələcək addımlar üçün ən vacib məsələlərdən biridir. Biz artıq Budapeşt Memorandumunun mənfi təcrübəsini yaşamışıq. Buna görə də təhlükəsizlik zəmanətləri ilə bağlı bu sənəddə ukraynalıları ən çox narahat edən məsələlərə konkret cavabların olması vacibdir. Bunlar paralel proseslər ola bilər. Bəlkə də Ukrayna üçün Marşal Planına bənzər bir şey olacaq".

***P.ƏMİRCANOV***
***XQ***

*Xuntaçıların məhkəməsi*

# İstintaq materialları hərbi cinayətləri sübuta yetirir

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 12-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət tərkibdə keçirilən açıq məhkəmə iclasında (ehtiyat hakim Günel Səmədova) təqsirləndirilən şəxs bildiyi dildə, yəni rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.



Sonra R.Vardanyanın müdafiəçisi Emil Babışov iki vəsatət təqdim edib. Müdafiəçi birinci vəsatətində cinayət işi üzrə ibtidai istintaq zamanı ifadə verən bütün şahidlərin və məhkəmə istintaqı zamanı şahid qismində dindirilmiş Kamo Hayrapetyanın, Muşeq Qriqoryanın və digər tədqiq olunan şahid ifadələrinin mötəbər sübut hesab edilməyərək, iş üzrə təqsirləndirilən R.Vardanyanla əlaqəsinin olmaması səbəbindən sübut siyahısından çıxarılması və təqsirləndirilən şəxsə qarşı sübut kimi istifadə olunmamasını, eləcə də yekun məhkəmə qərarı qəbul edilən zaman nəzərə alınmamasını xahiş edib.

E.Babışov ikinci vəsatətlə bağlı qeyd edib ki, məhkəmə istintaqı zamanı ittihamın əsasını təşkil edən bir sıra sübutlar tədqiq olunub, yüzlərlə zərərçəkmiş şəxs, habelə zərərçəkmiş şəxslərin hüquqi varisləri ifadə verib, prosesdə iştirakı müəyyən səbəblərdən mümkün olmayan şəxslərin ifadələri, digər aidiyyəti sənədlər elan edilib, bir çox şəxslərin aldığı xəsarətlər barədə faktlar açıqlanıb. Vəkil deyib ki, buna baxmayaraq, hüquqlarını müdafiə etdiyi şəxsin mövqeyinə görə, həmin şəxslərin verdiyi ifadələrin təqsirləndirilən şəxslə heç bir əlaqəsi yoxdur.

Belə ki, zərərçəkmiş şəxslərin verdikləri ifadələrdən məlum olub ki, onların aldıqları xəsarətlər müxtəlif tarixləri əhatə edir. Həmin tarixlərin müəyyən hissəsi iş üzrə təqsirləndirilən şəxs R.Vardanyanın Ermənistan Respublikasının vətəndaşı olmadığı, yəni Rusiya Federasiyası vətəndaşı olaraq şəxsi biznesi ilə çalışdığı dövrlə üst-üstə düşür. Ona görə də məhkəmə istintaqı zamanı zərərçəkmiş şəxs və zərərçəkmiş şəxslərin hüquqi varislərinin məhkəmədə verdiyi ifadələrinin iş üzrə təqsirləndirilən şəxs R.Vardanyanla əlaqəsinin olmaması səbəbindən yekun məhkəmə qərarı çıxarılarkən təqsirləndirilən şəxsə qarşı sübut olaraq istifadə edilməməsini xahiş edib. Təqsirləndirilən şəxs vəsatətləri dəstəklədiyini bildirib.

Dövlət ittihamçısı Təranə Məmmədova vəsatətlərə münasibət bildirərək qeyd edib ki, hər iki vəsatət eyniməzmunlu xarakter daşıyır. Təqsirləndirilən şəxs Ermənistan dövləti tərəfindən formalaşdırılmış, Azərbaycan Respublikasının suveren ərazilərinin işğalı zamanı, həmçinin işğal dövründə çoxsaylı cinayətlər törətmiş cinayətkar birliyə daxil olaraq, ümumi cinayətkar niyyət və məqsədlərə uyğun fəaliyyət göstərib, zərərçəkən şəxs qismində ifadə verən şəxslər də həmin dövrdə yaralandıqlarına, öldürülmələrinə cəhd olunduğuna, eləcə də hüquqi varislərin ifadələrində göstərildiyi kimi, zərərçəkən şəxslərin öldürülmələrinə görə müvafiq ittihamlar verilib.

T.Məmmədova ikinci vəsatətlə bağlı çıxışında vurğulayıb ki, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəllənin tələblərinə əsasən, iş üzrə mühüm əhəmiyyət kəsb edən hallar barədə xəbərdar olan şəxslərin ifadələri də şahid ifadəsi hesab olunur.

Dövlət ittihamçısı bildirib ki, bunlar müşavirə otağında qiymət veriləsi xüsusatlardır. "Odur ki, hazırkı mərhələdə vəsatətlərin baxılmamış saxlanmasını xahiş edirik", - deyə o əlavə edib.

Məhkəməyə sədrlik edən yerində müşavirədən sonra bildirib ki, hər iki vəsatətdə göstərilən xüsusatlar yekun məhkəmə qərarı qəbul edilən zaman qiymət verilməli hallar olduğundan hazırda bu vəsatətlər baxılmamış saxlanılır.

Məhkəmə prosesi ittiham tərəfinin vəsatəti əsasında cinayət işi üzrə digər zəruri sənədlərin tədqiqi ilə davam etdirilib.

Tədqiq olunan sənədlərdə göstərilib ki, Xankəndi şəhərində yerləşən radioqəbuledici və radio veriliş mərkəzinə baxış zamanı tünd yaşıl rəngli 03-11 31PB qeydiyyat nişanlı hərbi təyinatlı avtomobil aşkarlanıb. Avtomobilin üzərində xüsusi radio avadanlıq və arxa hissəsində "Repellant-1" sisteminin quraşdırıldığı müəyyən edilib. Sistem pilotsuz uçan aparatların idarəetmə sisteminin siqnallarının 30-35 kilometr məsafədən susdurulması üçün nəzərdə tutulub. Avtomobilin içərisində monitor, idarəetmə sistemi, soyuducu sistem olub.

Eyni zamanda, Xocalı rayonunda yerləşən hərbi hissədə saxlanılan 7 ədəd müxtəlif ölçülü tünd yaşıl rəngli qablaşmada olan avadanlıqlara baxış zamanı avadanlığın "Polya-21" adlı radiomaneə stansiyası olduğu və həmin stansiyanın da təyyarələrin "GPS" sisteminə maneə yaratmaq üçün istifadə edilməsi müəyyənləşib.

Bundan başqa, "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən Azərbaycanın hava məkanında peyk naviqasiyası siqnallarının maneəyə məruz qalması ilə bağlı Azərbaycan Respublikasının Baş nazirinə göndərilən 2021-ci il 27 sentyabr tarixli məktubda bildirilir ki, 2021–ci ilin iyul ayının əvvəllərindən ölkənin hava məkanında uçuşlar yerinə yetirən müxtəlif aviaşirkətlərin hava gəmiləri ekipajlarından qlobal peyk naviqasiya sisteminin (GNSS) siqnallarının qeyri-sabit işi, o cümlədən bu siqnalların söndürülməsi və təhrif edilməsi halları göstərilməklə çoxsaylı şikayətlər daxil olur.

Qeyd olunan dövrdə müxtəlif hava dəhlizləri üzrə uçuşlarda, həmçinin müəyyən edilmiş qalxma, gəliş və hava limanlarına enmə uçuş prosedurları zamanı ən azı 42 şikayət qeydə alınıb. Azərbaycanın hava məkanında qlobal peyk naviqasiyasının işinin sabitliyinin itirilməsi hava gəmilərinin uçuşlarının təhlükəsizliyi üçün ciddi təhdid törədir. Belə ki, bu hava gəmilərinin əksəriyyətində uçuş trayektoriyasına əsas nəzarət vasitəsi GNSS siqnallarını qəbul edən avadanlıqdır. Peyk siqnalının olmaması və ya dəqiqliyinin təhrif edilməsi ciddi nəticələrə gətirib çıxara bilər.

Həmçinin havadan kəşfiyyat aparılaraq Ermənistan silahlı qüvvələri və qanunsuz erməni silahlı dəstələrinə məxsus radiomaneə vasitələrinin yerləri (koordinatları) pilotsuz uçuş aparatları vasitəsilə çəkiliş aparılaraq fotogörüntüləri aşkarlanıb.

Bundan sonra təqsirləndirilən şəxs R.Vardanyan bir sıra sənədlərin cinayət işinə əlavə olunmasını məhkəmədən xahiş edib. Müdafiəçi təqsirləndirilən şəxsin vəsatətini müdafiə edib. Dövlət ittihamçıları etiraz etməyiblər. Məhkəmə qərara alıb ki, təqdim olunan sənəd rus dilində olduğu üçün Azərbaycan dilinə tərcümə edilərək cinayət işi materiallarına əlavə olunsun.

Təqsirləndirilən şəxs R.Vardanyan daha sonra cinayət işi üzrə 1-15-ci cildləri nəzərdən keçirmək istədiyini, onun saxlanılması ilə əlaqədar həmin cildlərdə adı keçən şahidlərin məhkəməyə dəvət olunmasını xahiş edib. Vəkil E.Babışov vəsatətlərin təmin olunmasına etiraz etməyib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev vəsatətə münasibət bildirərək qeyd edib ki, əgər vəsatət cinayət işi üzrə hansısa materialları əldə etməklə bağlıdırsa, etiraz yoxdur.



Məhkəməyə sədrlik edən yerində müşavirədən sonra bildirib ki, təqsirləndirilən şəxsin cinayət işinin müvafiq cildləri ilə tanış olmağa dair vəsatəti təmin edilir, şahidlərin məhkəməyə dəvət olunması ilə bağlı vəsatətə isə sonra baxılacaq.

Ardınca R.Vardanyan cinayət işi ilə bağlı audio-video materialları nəzərdən keçirməyə imkan yaradılmasını da istəyib.

Məhkəməyə sədrlik edən qeyd edib ki, hansı audio-video materiallar lazımdırsa, siyahısı təqdim olunsun və ona bu şərait yaradılacaq.

Məhkəmənin növbəti iclası dekabrın 16-na təyin edilib.

***XQ***

# Ermənistan seçim qarşısında: Aİ, yoxsa Aİİ?

**"Bir məqamda Ermənistanın Avropa İttifaqı ilə Avrasiya İqtisadi İttifaqı arasında seçim etməsinə ehtiyac yaranacaq. Çünki eyni zamanda, hər iki ittifaqda birlikdə qalmaq mümkün deyil". Bu fikri jurnalistlərə açıqlamasında Rusiya Baş nazirinin müavini Aleksey Overçuk bildirib. Cənab Overçuk, eyni zamanda, ölkələr arasındakı biznes münasibətlərində dəyişikliklərin baş verdiyini də diqqətə çatdırıb. Hətta bunu da deyib ki, Rusiya biznesi Ermənistanla işləməyə ehtiyatla yanaşmağa başlayıb.**




Əlbəttə, yazımızda Rusiya-Ermənistan münasibətlərinin iqtisadi trayektoriyasındakı mətləbləri diqqətə çatdıracağıq. Amma bununla bağlı detallara getmək niyyətindən uzağıq. Nə də Ermənistan-Qərb yaxınlığının xüsusiyyətləri üzərində ətraflı dayanacağıq. Hər iki xüsus fonunda vurğulamaq istədiyimiz bir vacib məqam var ki, ondan sonda bəhs edəcəyik. Hələlik isə...

Əvvəla onu deyək ki, Overçukun timsalında bir dövlət rəsmisinin biznes strukturlarının adından danışaraq, onların hiss etdikləri məqamı qabartması, ilk baxışdan, məqbul deyil. Amma nəzərə alsaq ki, söhbət Rusiya dövlətinin təmsilçisindən gedir, bütün daşlar yerinə oturur. Yəni bu gün rus biznesi Ermənistandan əlini çəkirsə, deməli, Moskva artıq İrəvana qarşı mühüm təsir rıçaqını işə salıb. Əlbəttə, buna işə salmaq demək bir o qədər yerinə düşmür.

Hər halda, Rusiyanın Ermənistanı iqtisadi cəhətdən sıxacağını söyləmək mümkünsüzdür. Çünki birinci ikinciyə olan ümidini itirməyib. Yəni Kremldə hələ də hesab edirlər ki, Ermənistan yenidən Rusiyanın orbitinə qayıdacaq. Belə bir məqamda baş nazir Nikol Paşinyan özlərinin Aİ-yə qoşulmaq prioritetini açıqlayır. O prioritet ki, onun icrasına doğru əməli fəaliyyətin gerçəkləşməsinə başlanılmasının özü belə, İrəvanın üzvü olduğu Aİİ-dən yollarını ayırması anlamı daşıyacaq. Ona görə ki, Aİ yolçuluğu daxili qanunvericiliyə əl gəzdirməkdən keçir. Erməni qanunvericiliyi isə Aİİ prosedurlarına köklənmiş durumdadır. Buna görə də Overçuk prinsip etibarilə hansı məqamı qabartdığının fərqindədir.

A.Overçuk Ermənistan və Rusiya arasında müsbət təmasların qaldığını xatırlatsa da, 2025-ci ildə ölkələrin qarşılıqlı ticarət dövriyyəsinin həcmində nəzərəçarpacaq geriləmənin müşahidə edildiyinə diqqət çəkib: "Bu il Ermənistanla iqtisadi sahədə, konkret desək, Rusiya və Ermənistan arasında qarşılıqlı ticarət dövriyyəsində azalma müşahidə edirik. Ötən il, yadınıza gəlirsə, ölkələrimiz arasında ticarət dövriyyəsi 12,4 milyard dollar təşkil edirdi. Bu il isə aydındır ki, o, təxminən 6 milyard dollar səviyyəsində olacaq. Bu, çox nəzərəçarpan azalmadır".

Əslində, istər Overçukun açıqladığı 12,4 milyard dollar, istərsə də 2023-cü ilin göstəriciləri heç də reallığı əks etdirmirdi. Axı Ermənistanın yüksək ticarət dövriyyəsini qarşılayacaq bazasının olmadığı hər kəsə yaxşı məlumdur. O da məlumdur ki, Ermənistan sanksiya altında olan rus mallarının təkrar ixracından qazanırdı və şübhəsiz, belə bir durumun verdiyi dividend real iqtisadi mənzərəni əks etdirə bilməzdi və zamanında məsələ barədə hətta ABŞ nəşrləri də geniş məqalələr yayımlamışdılar. Ancaq necə deyərlər, alan razı, satan razı.

Rusiya ona görə razı idi ki, sanksiyadan yan keçirdi. Ermənistan o səbəbdən məmnun idi ki, faktiki olaraq, əziyyət çəkmədən gəlir əldə edirdi. Avropada, bütövlükdə dünyada isə hesab edirdilər ki, İrəvanın Rusiyanın sanksiya altındakı mallarının satmasına göz yummaqla, Ermənistanı maliyyə xərcləmədən dolandıracaqlar. Yəni təki Paşinyan kömək üçün əl açmasın. Axı kömək Ukraynaya göstərilir, Ermənistan əlavə yük olar.

Bir məsələ də var ki, Rusiya rəsmiləri çox tez-tez Ermənistanla ticarət dövriyyəsinin artmasını ikinciyə lütf kimi qiymətləndirir, minnət duyğularını əsirgəmirlər. Bu o deməkdir ki, Moskva İrəvanın, belə demək mümkünsə, körpü köməyi olmadan da ayaqda qala bilər. Hərçənd, heç kəs əlavə puldan imtina etmir. Rusiya da həmçinin. Amma indi vəziyyət başqadır. Moskva üçün çəmbər əvvəlki illərlə müqayisədə xeyli daralıb.

Əlqərəz, istər-istəməz, sual yaranır: Rusiya ilə Ermənistan arasındakı 2024-cü ildəki 12,4 milyard dollarlıq ticarət dövriyyəsinin həcminin 2025-ci ildə birdən-birə yarıbayarı azalması nə deməkdir? Aydındır ki, azalmanın kəskinliyi heç bir iqtisadi parametrə və anlayışa uyğun gələn hal deyil. Görəsən, nə dəyişdi? Prinsip etibarilə heç nə. Ermənistan həminki Ermənistandır, Rusiya da həminki Rusiya.

Heç nə dəyişməyib və bunun özü də 12,4 milyard dollarlıq rəqəmin reallığı əks etdirmədiyinin sübutudur. Ancaq dəyişən bir şey var. Məsələ ondadır ki, anti-Rusiya ovqatına köklənmiş dünya indi Ermənistana oyunbazlıq üçün imkan tanımır. Moskva ilə İrəvan arasındakı əvvəlki işbirliyinin davamına isti yanaşmır. Dedik axı, çəmbər daralıb. Buna görə də Aİ Ermənistanla tərəfdaşlıq üçün strateji gündəlik hazırlayıb. Məlumdur ki, bununla bağlı sənəd Avropa İttifaqı və Ermənistan arasında bu il dekabrın 2-də Brüsseldə keçirilmiş Tərəfdaşlıq Şurasının VI iclasında imzalandı. Nəzərə alaq ki, sözügedən gündəliyin erməni iqtisadiyyatına yardım parametri də aktualdır.

... Ardınca Paşinyanın Almaniyaya səfəri reallaşdı ki, baş nazir orada jurnalistlərlə görüşündə iddialı açıqlamalar verdi. O, ölkəsinin Aİ-yə üzvlük yolunun olduğunu, lakin Aİİ-dən çıxmaq niyyəti güdmədiyini vurğuladı, sonra isə Aİİ-nin toplantısına qatılmaq üçün Moskvaya yollandı. Əlbəttə, Paşinyan və erməni iqtidarı durumu ölkənin balans siyasəti yürütməsi, proqnatik və rasional davranması kimi qiymətləndirməkdə sərbəstdir. Ancaq həm Overçukun açıqlaması, həm də reallıq onu göstərir ki, belə balans siyasəti olmur, Ermənistan seçim etməlidir.

Qeyd edək ki, N.Paşinyan Almaniyada Aİ-yə üzvlük məsələləri haqqında ətraflı açıqlamalar da verdi. Amma onun söylədiklərinin məzmunu heç də o demək deyildi ki, Ermənistan başladığı prosesin nikbin sonluqla bitəcəyinə inanır. Hər halda, Nikol da Aİ-yə qoşulmanın asan iş olmadığından xəbərsiz deyil. O, sadəcə ölkəsinin siyasi kursunun Qərbyönümlü olduğunu açıqlayır, daha doğrusu, daim yada salır və gündəmdə saxlayır.

Nikol, eyni zamanda, subliminal mesajlar da ötürür. Elə təəssürat yaranır ki, Ermənistan həm Rusiyanı, həm də Qərbi şantaj etməklə məşğuldur. Paşinyan sanki birinciyə ikinci ilə, ikinciyə birinci ilə yaxınlaşa biləcəyinə dair siqnallar ötürür. Belə yanaşma, yəni ikili oyun olduqca təhlükəlidir və mənfi nəticələr doğura bilər. Elə isə keçək sonda vurğulayacağımızı bildirdiyimiz məqama.

Sözümüz ondadır ki, Ermənistan kimi təbii resurslara malik olmayan kiçik bir ölkənin "təhlükəli sularda üzməsinə", mürəkkəb gedişlərə baş vurmasına, qətiyyən, ehtiyac yoxdur. Eləcə də Paşinyanın özünü müdrik siyasətçi obrazında göstərməsi yersizdir. Həm onun ölkəsinin, həm də özünün hər kəsə bəlli bir tutumu var. O tutumdan kənara çıxma eybəcər görünür. Ola bilər, Nikol bunun fərqində deyil. Amma fərqində olmalıdır və eyni zamanda bilməlidir ki, müxtəlif ziddiyyətli tərəflər arasında manevr siyasətinə baş vurmaqdansa, reallığı dəyərləndirməsi daha məqbuldur.

Reallıq isə budur ki, Ermənistan ilk növbədə regiondan möhkəm tutmalı, Azərbaycanla yekun sülh müqaviləsinin imzalanmasına, ən başlıcası, regional kommunikasiyaların açılmasına iradə göstərməli, ölkəsinin qlobal TRIPP marşrutunda etibarlı tranzit statusunun formalaşmasına nail olmalıdır. Ermənistanın həm siyasi, həm də iqtisadi müstəqilliyi məhz bundan asılıdır. Belə bir status əldə olunacağı və möhkəmlənəcəyi təqdirdə, nə Aİ-yə qoşulmaq kimi məşəqqətli və nəticəsi qeyri-müəyyən yola girməyə ehtiyac qalacaq, nə də Ermənistan Rusiyanın Overçukun və digər ölkə rəsmilərinin dili ilə səslənən subliminal təhdid mesajlarından çəkinəcək. Həmçinin İrəvan sabit və leqal gəlirlərə sahiblənəcək ki, bu gəlirlər erməni əhalinin istər maddi durumunun, istərsə də sosial rifah halının yüksəldilməsini təmin edəcək.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Qərəzli təşkilat bu dəfə Paşinyanı hədəf aldı

## *"Transparency International" əvvəlki rejimlərin korrupsiya mirasını niyə "unudub?"*

**"Transparency International" ("Beynəlxalq şəffaflıq") təşkilatının açıqlamasına görə, son bir il ərzində Ermənistanda korrupsiyaya qarşı mübarizə sahəsində heç bir irəliləyiş qeydə alınmayıb. "2025-ci ilin əvvəlində dərc olunmuş məlumatlara görə, "Transparency International"ın 2024-cü il üçün Ermənistan üzrə korrupsiya qavrayış indeksi 2023-cü ildən dəyişməz qalıb – 47 bal. Bu da son bir ildə korrupsiyaya qarşı mübarizədə irəliləyişin olmadığını göstərir", – deyə təşkilatın hər il dekabrın 9-da qeyd edilən Korrupsiyaya Qarşı Beynəlxalq Mübarizə Günü münasibətilə yaydığı hesabatda bildirilib.**



Hər zaman qərəzli mövqeyi ilə tanınan təşkilatın yaydığı sənəddə deyilir ki, Beynəlxalq Respublikaçılar İnstitutunun (İRİ) 2025-ci ilin iyun ayında dərc etdiyi ictimai rəy sorğusu məlumatları əsas dövlət qurumlarına ictimai etimadın davamlı olaraq aşağı səviyyədə olduğunu təsdiqləyir. İctimai rəyin qiymətləndirməsinə görə, infrastrukturun yaxşılaşdırılması proqramları ən nəzərəçarpan sahələrdir. Lakin antikorrupsiya tədbirlərinin effektivliyini əldə olunmuş nailiyyət kimi qeyd edənlərin payı cəmi 3 faizdir. Eyni zamanda, cəmi 4 faiz respondent korrupsiyaya qarşı mübarizədə uğursuzluğu hökumətin ən böyük fiaskosu kimi qiymətləndirib: "Bu rəqəmlər cəmiyyətdə korrupsiyaya qarşı mübarizə barədə məlumatlılığın aşağı, prosesə cəlbolunmanın isə zəif olduğunu göstərir. Son illər Ermənistanda aparılan islahatların yetərincə effektiv olmadığını yalnız korrupsiya ilə mübarizə sahəsində deyil, həm də ictimai idarəetmə və demokratiya gündəliyi ilə bağlı, demək olar ki, bütün beynəlxalq göstəricilər sübut edir. Bu ümumi durğunluq mənzərəsi hakimiyyətə aydın siqnal olmalı, mövcud siyasətin problemlərinin olduğu anlaşılmalı, səbəblər təhlil edilməli və real, dayanıqlı nəticələr əldə etmək, cəmiyyətin gözləntilərini qarşılamaq üçün təsirli addımlar atılmalıdır".

Qeyd olunur ki, 2025-ci ildə ictimaiyyətin diqqəti qanunun siyasi rəqiblərə qarşı selektiv tətbiqinə, hüquqi vasitələrin qeyri-mütənasib istifadəsinə, telefon dinləmələri və sızmalarına, yüksək vəzifəli məmurların iştirak etdiyi korrupsiya ilə bağlı effektiv məhkəmə təqiblərinin olmamasına, o cümlədən qanunsuz aktivlərin müsadirə edilməsi ilə bağlı proseslərə və hökumətə yaxın şəxslərlə bağlı işlərə laqeyd yanaşmaya yönəlib. "Hakim siyasi partiyanın yüksək vəzifəli nümayəndələrinin Erməni Apostol Kilsəsinin işlərinə kobud müdaxiləsi (?), eləcə də müstəqil media və jurnalistlərə təzyiq və onların hədəfə alınması halları narahatlıq doğurur", – deyə "Transparency International" bildirib.

Təşkilat həmçinin, qeyd edib ki, 2026-cı il Ermənistanda parlament və yerli özünüidarəetmə orqanlarına seçkilərin keçirilməsi səbəbindən həlledici il olacaq: "Lakin mövcud problemlər – partiyaların maliyyələşməsində qeyri-şəffaflıq, siyasi korrupsiya riskləri, inzibati resurslardan sui-istifadə və dövlət qurumlarının mümkün pozuntulara zəif reaksiya verməsi – bu seçkilərin legitimliyini təhlükə altına qoyur".

"Transparency International" hesab edir ki, azad, ədalətli və şəffaf seçkiləri təmin etmək üçün hakimiyyət orqanları hüquqi təminatları gücləndirməli, qanunun bərabər tətbiqini təmin etməli, ədalət mühakiməsinin selektiv hərəkətlərinin qarşısını almalı və dövlət qurumlarına ictimai etimadını bərpa etməlidir. Qanunsuz aktivlərin şəffaf idarə olunması və bu proseslərə nəzarətdə ictimaiyyətin iştirakı da vacibdir.

*

Hesabat Ermənistan mediasında birmənalı qarşılanmayıb. Məsələn, analitik yazılar üzrə ixtisaslaşmış və azad media nümunəsi hesab olunan "ArmenianReport" saytında yerləşdirilmiş "Transparency International" Paşinyana meydan oxuyur" sərlövhəli məqalədə bildirilir ki, təşkilat yenidən Ermənistan reallığını özünə sərf edən prizmadan təqdim etməyi seçib: "Qurumun son açıqlamasında israrla səsləndirilən fikir budur ki, guya, Ermənistanda korrupsiyaya qarşı mübarizədə tərəqqi yoxdur, çünki indeks əvvəlki ildəki kimi – 47 bal səviyyəsində qalıb. Bu, "inkişaf yoxdur" iddiasına çevrilir, halbuki metodologiyadan başı çıxan hər kəs yaxşı bilir ki, bu indeks real proseslərin dinamikasını deyil, subyektiv qiymətləndirmələri əks etdirir. Buradan Paşinyan hökumətinin antikorrupsiya siyasətinin, guya, iflası barədə nəticə çıxarmaq – hissi təhlil edib fakt kimi təqdim etməkdir və son illər norma halına gəlmiş dəyişiklikləri qəsdən görməzliyə vurmaqdır".

Qeyd edilir ki, müstəqillik əldə olunduğu gündən 2018-ci ilin yazına qədər Ermənistan sistemli korrupsiyanın o qədər acı təcrübəsindən keçib ki, cəmiyyət o dövrü unutmağı özünə rəva görə bilməz: "Bugünkü "irəliləyiş yoxdur" tipli ittihamlar isə açıq görünən transformasiyaların fonunda xüsusilə qəribə səslənir. Son illər məmurlarla bağlı aparılan istintaqlar artıq imitasiya, əvvəlki kimi göstəri üçün açılıb dərhal bağlanan işlərdən deyil. Son 7 ildə uzun illər toxunulmaz sayılan yüksək vəzifəli şəxslərlə bağlı məhkəmə prosesləri postsarkisyan Ermənistanının siyasi-hüquqi mühitinin adi bir parçasına çevrilib".

Ölkədə rus dilində çap olunan "Qolos Armenii" qəzetində dərc edilmiş "Transparency International" faktları belə görür" sərlövhəli məqalədə isə son illərdə ölkədə dövlət satınalmaları sahəsində şəffaflığın artmasından bəhs olunur: "Şəffaflıq həqiqətən də elə bir səviyyəyə yüksəlib ki, köhnə elitalar bunu öz varlanma sistemləri üçün təhlükə hesab edirdilər. Cəmiyyət ilk dəfə qanuni gəlirlərlə izah olunmayan əmlakın müsadirəsi mexanizmini real şəkildə gördü. Ayrı-ayrı proseslərin effektivliyini tənqid etmək olar, lakin son 7 ildə korrupsiya ilə mübarizənin kütləvi xarakter aldığını inkar etmək sadəcə olaraq gözləri yummaq deməkdir".

Qəzet "Transparency International" konteksti məqsədyönlü şəkildə gizlətdiyini bildirir: "Bu kontekstsiz durğunluğun nə olduğunu, islahatların isə bəzən ağrılı və ziddiyyətli olsa da, açılmaz proses olduğunu başa düşmək mümkün deyil. Görünür, bu QHT-də Ter-Petrosyan, Koçaryan və xüsusilə Serj Sarkisyan dövrlərində Ermənistanda hökm sürən ab-havanı unudub. O zaman korrupsiya ayrıca bir problem yox, dövlət idarəçiliyinin infrastrukturu idi. Dövlət resursları hakimiyyətə yaxın dar çevrənin şəxsi kapitalına çevrilmişdi (Serj Sarkisyanı yadınıza salın – müəll.). Əsas vəzifələr peşəkarlığa görə deyil, şəxsi sədaqətə görə bölüşdürülürdü. Məhkəmə sistemi cəmiyyətin deyil, məhz hakimiyyətin sifarişlərini icra edirdi. Ölkədə kölgə iqtisadiyyatı mövcud idi və o, həm hakimiyyəti, həm də onlara yaxın oliqarxlardan tutmuş, aşağı ranqlı məmurlara, güc strukturlarındakı generallara qədər hamını varlandırırdı. Ona görə də "aşağı ictimai etimad" ifadəsi yalnız keçmişə aid ola bilər. Çünki o dövrdə etimad deyilən anlayış, ümumiyyətlə, yox idi. Etiraf edək: onilliklərin mirası o qədər ağır idi ki, yeni ictimai şüurun formalaşması vaxt tələb edir. İnsanlar korrupsiyanı təbii və demək olar ki, adi məişət hadisəsi kimi qəbul etməyə alışmışdılar".

Aysor.am saytında yerləşdirilmiş məqalədə isə "Transparency International"ın 2025-ci ildə qanunların selektiv tətbiqi, mediaya təzyiq, kilsəyə müdaxilə və səs-küylü işlər üzrə nəticələrin olmamasının xüsusi narahatlıq doğurması fikrinə münasibət bildirilib: "Bəs siz 1990–2000-ci illərin Ermənistanını unutmusunuz? Bu gün ölkədə baş verənlər o dövrlə müqayisədə "zərərsiz zarafatlar"dır. Bu QHT-nin formulları isə sanki hansısa təşviş yaratmaq üçün standart şablonlardan ibarətdir".

Göründüyü kimi, təşkilatın açıqlanan hesabatı Ermənistan cəmiyyətində və mediada ciddi müzakirə doğurub. Bir çox müəlliflər təşkilatın yanaşmasını kontekstdən qopardığı, ölkədə baş verən real dəyişiklikləri nəzərə almadığı üçün tənqid edir. Media nümayəndələri Paşinyan dövründə korrupsiya ilə mübarizədə görülən işlərin əvvəlki hakimiyyətlərlə müqayisədə olduqca fərqli olduğunu vurğulayırlar. Eyni zamanda, ölkənin ağır korrupsiya mirasının aradan qaldırılmasının zaman tələb etdiyi xüsusi qeyd olunur. Bununla belə, ekspertlər həm də bildirirlər ki, Ermənistan islahat kursunu davam etdirməli və mövcud çatışmazlıqları aradan qaldırmaq üçün daha ardıcıl addımlar atmalıdır.

***S.NAZİMOĞLU***
***XQ***

# Azərbaycan Cənubi Qafqazın ən etibarlı investisiya məkanıdır




*(əvvəli 1-ci səhifədə)*

Təsadüfi deyil ki, bu ilin yanvar-noyabr aylarında Azərbaycanda dəmir yolu nəqliyyatı ilə yük daşımaları 16 milyon 927,6 min ton təşkil edib. Qeyd edək ki, 2025-ci ildə nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektlərinin daşıdığı yüklərin həcmi 217,9 milyon ton olub. Yüklərin 7 faizi dəmir yolu ilə daşınıb.

Avrasiya İnkişaf Bankının 2030-cu il üçün proqnozu da məhz bundan xəbər verir. Qeyd olunur ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (TBNM, Orta Dəhliz) ilə yükdaşımalar 11,4 milyon ton, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi ilə yükdaşımalar isə 32 milyon ton səviyyəsində olacaq.

Məlumdur ki, son illər beynəlxalq nəqliyyat sistemində TBNM (Orta Dəhliz) və "Şimal–Cənub" marşrutlarının rolu sürətlə artmaqdadır. 2024-cü ilin nəticələrinə əsasən, Orta Dəhliz üzrə daşınan yüklərin həcmi 3,3 milyon tona yüksəlib, bu göstəricinin tərkibində 56,5 min TEU həcmində konteyner daşımaları yer alıb. Eyni dövrdə "Şimal–Cənub" nəqliyyat dəhlizi ilə yükdaşımaların ümumi həcmi, o cümlədən 50 min TEU konteyner olmaqla 20 milyon tonu ötüb.

Daşıma həcmlərinin artması dəmir yolu və avtomobil magistrallarının, limanların və logistika mərkəzlərinin genişləndirilməsini, anbar infrastrukturunun modernləşdirilməsini, eləcə də multimodal tranzitin səmərəliliyini artırmaq məqsədilə rəqəmsal texnologiyaların tətbiqini aktuallaşdırır. Bankın hesablamalarına görə, 2035-ciilədək Mərkəzi Asiyada Avrasiya nəqliyyat karkasının formalaşdırılması üçün tələb olunan investisiya ehtiyacı 52 milyard ABŞ dollarını ötür.

Digər tərəfdən, Avrasiya məkanında nəqliyyat və logistika sahəsi investorlar üçün cəlbedici mövqeyini qorumaqda davam edir. Bu marağın artmasına Orta Dəhliz və "Şimal–Cənub" kimi əsas beynəlxalq nəqliyyat marşrutlarının intensiv inkişafı mühüm töhfə verir. Proqnozlara əsasən, 2025-ci ildə Transxəzər istiqaməti üzrə daşımaların həcmi 5,2 milyon tona çatacaq ki, bunun 4,2 milyon tonu marşrutda iştirak edən ölkələrin ərazisindən tranzit keçəcək. Ümumi yük həcminin 2,5 milyon tonu quru yüklərin (96 min TEU), 1,7 milyon tonu isə neft daşımalarının payına düşəcək.

Eyni zamanda, 2027-ci ilədək Orta Dəhlizin illik ötürücülük imkanlarının 10 milyon tona yüksələcəyi gözlənilir. Bu dinamika Azərbaycanın regional tranzit mərkəzi kimi mövqeyini daha da möhkəmləndirəcək, eyni zamanda, nəqliyyat və logistika infrastrukturuna əlavə investisiyaların cəlb olunması üçün yeni imkanlar yaradacaq.

Bankın bir digər məlumatında qeyd olunur ki, Azərbaycan Avrasiya regionu ölkələri arasında birbaşa xarici investisiyaların (BXİ) ən böyük 3 alıcısından biridir. 2025-ci ilin birinci yarısının sonuna ölkə iqtisadiyyatına cəlb edilmiş BXİ-nin həcmi 2016-cı illə müqayisədə 2,4 dəfə artaraq 5,439 milyard ABŞ dollarına çatıb. Digər tərəfdən, Azərbaycan şirkətləri də fəaliyyət coğrafiyasını genişləndirir. Belə ki, Özbəkistan və Qırğızıstanda həyata keçirilən layihələrə təxminən 80 milyon ABŞ dolları yönəldilib. Bundan əlavə, Gürcüstan iqtisadiyyatının əsas investorları arasında 2025-ci ilin birinci yarısının sonuna hər biri 1,2 milyard dollar investisiya toplamış Azərbaycan və Rusiya şirkətləri də yer alır.

Ümumiyyətlə, təkcə Avrasiya İnkişaf Bankı yox, bir sıra maliyyə qurumları və şəbəkələrin Cənubi Qafqaza artan marağı birbaşa Azərbaycanın iqtisadi üstünlüyü ilə bağlıdır. Burada təkcə yükdaşımalar məsələsi prioritet deyil. Enerji daşımaları, müxtəlif iqtisadi layihələr çərçivəsində daim Azərbaycana dəstək prinsipi özünü göstərir. Bu həm də ölkəmizin güvənli yatırım meyarı faktoruna söykənir. Təsadüfi deyil ki, Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) Azərbaycanda "Yaşıl İqtisadiyyatın Maliyyələşdirilməsi" proqramı (Green Economy Financing Facility - GEFF) üçün 100 milyon ABŞ dolları (təxminən 85,6 milyon avro) ayrılmasını təsdiqləməsi də bunu göstərir.

Qeyd edək ki, sözügedən proqram yerli maliyyə institutları (PFI) vasitəsilə "yaşıl maliyyələşdirmə"ni dəstəkləməyə yönəlmiş 5 illik layihədir. Bankın yaydığı məlumata görə, ayrılan maliyyə vəsaiti enerji effektivliyi, bərpaolunan enerji mənbələri, resurslardan rasional istifadə və iqlimə davamlılıq istiqamətlərində layihələr reallaşdıran özəl sektor subyektlərinin maliyyələşdirilməsinə yönəldiləcək. GEFF proqramı Azərbaycanda "yaşıl maliyyə" alətlərinin tətbiqi baxımından pilot layihə rolunu oynayacaq və ölkənin dayanıqlı inkişaf modelinə keçidini stimullaşdıracaq.

Bank bildirir ki, proqramın əsas hədəfi yerli maliyyə institutlarının pərakəndə müştərilər, kiçik və orta sahibkarlıq subyektləri, eləcə də korporativ borcalanlar üçün ekolojiyönümlü kredit məhsullarını genişləndirməsinə dəstək verməkdir. Bu çərçivədə tərəfdaş banklar və mikromaliyyə təşkilatları həm maliyyə, həm də texniki yardım alacaq, institusional imkanların gücləndirilməsi və "yaşıl kreditləşmə"nin inkişafına mane olan məhdudiyyətlərin aradan qaldırılması prioritet kimi müəyyənləşdirilib. Eyni zamanda, qadın və kişilərin "yaşıl maliyyələşmə" imkanlarından bərabər şəkildə faydalanmasına xüsusi önəm veriləcək.

Layihə 2024-cü ilin noyabrında Bakıda keçirilmiş COP29-dan sonra Azərbaycanda "yaşıl iqtisadiyyat"a artan maraq fonunda hazırlanıb. Proqram özəl sektorda "yaşıl texnologiyalar"ın və müvafiq xidmətlərin tətbiqini təşviq edəcək, eyni zamanda ölkənin maliyyə sistemində struktur dəyişikliklərinə təkan verəcək. GEFF mexanizmi çərçivəsində maliyyələşməni həyata keçirəcək əsas tərəfdaşlar "yaşıl kreditləşmə"nin inkişafına hazır olan banklar, mikromaliyyə və lizinq şirkətləri olacaq. Bu mexanizmdən son faydalananlar isə kiçik və orta sahibkarlıq subyektləri, iri korporativ müştərilər və ev təsərrüfatları hesab olunur.

Proqramın tərkib hissəsi kimi 3 milyon ABŞ dollarınadək (2,8 milyon avro) texniki yardım paketi nəzərdə tutulub. Bu paket layihənin idarə olunması, yeni maliyyə məhsullarının hazırlanması, marketinq fəaliyyəti və təlim proqramlarını əhatə edir. Bununla yanaşı, əldə edilən nəticələrə əsasən maliyyə vasitəçilərinin təşviqi məqsədilə 4 milyon ABŞ dollarınadək (3,4 milyon avro) güzəştli maliyyələşdirmə mexanizmi tətbiq ediləcək.

Ümumiyyətlə, 2022–2024-cü illərdə regionda ən iri maliyyə dəstəyini Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD – 1,4 milyard ABŞ dolları, 47 faiz), Beynəlxalq Maliyyə Korporasiyası (IFC – 426 milyon ABŞ dolları, 14 faiz) və Asiya İnfrastruktur İnvestisiya Bankı (AIIB – 385 milyon ABŞ dolları, 13 faiz) təmin edib. Bu sərmayələrin əsas benefisiarları isə Özbəkistan (1,8 milyard ABŞ dolları), Azərbaycan (675 milyon ABŞ dolları) və Qazaxıstan (280 milyon ABŞ dolları) olub.

***Nurlan ABDALOV***
***XQ***

# Rəqəmsal bazarlara çıxış genişlənir

## *KOB-lar üçün yeni hədəflər müəyyənləşdi*

**Azərbaycanda kiçik və orta biznes subyektlərinin rəqəmsal iqtisadiyyata inteqrasiyası yeni mərhələyə keçid edir. Prezident İlham Əliyevin təsdiqlədiyi "Rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya"ya əsasən, növbəti üç il ərzində KOB-ların rəqəmsal bazarlara çıxış imkanlarının genişləndirilməsi nəzərdə tutulur. Strategiyada yer alan hədəflərə görə, 2029-cu ilə qədər rəqəmsal bazarlarda fəaliyyət göstərən KOB-ların sayı 200-ə çatdırılmalıdır.**



Qeyd edək ki, sənəddə bu prosesin mərhələli şəkildə həyata keçiriləcəyi qeyd olunur. Rəqəmsal platformalara inteqrasiya olunmuş KOB-ların sayı 2026-cı ildə 20, 2027-ci ildə 50, 2028-ci ildə isə 100 olmalıdır. Sonrakı mərhələdə isə bu rəqəmin 2029-cu ildə iki dəfə artaraq 200-ə çatdırılması planlaşdırılır. Bu dinamika ölkədə biznes mühitinin rəqəmsallaşmasını sürətləndirməklə yanaşı, KOB-ların daha geniş bazarlara çıxış imkanlarını əhəmiyyətli dərəcədə artıracaq.

Müasir iqtisadiyyatın sürətlə rəqəmsallaşdığı bir dövrdə biznes subyektləri üçün rəqəmsal bazarlara çıxış imkanları strateji əhəmiyyət kəsb edir. Rəqəmsal bazarlara çıxış dedikdə, şirkətlərin məhsul və xidmətlərini ənənəvi satış kanalları ilə yanaşı, internet və digər rəqəmsal platformalar vasitəsilə istehlakçılara təqdim etməsi nəzərdə tutulur.

Rəqəmsal bazarlara çıxış əldə etmiş şirkətlər onlayn satış platformalarından, sosial şəbəkə mağazalarından, elektron ticarət sistemlərindən və mobil tətbiqlərdən geniş şəkildə istifadə etməklə məhsullarını daha böyük auditoriyaya çatdıra bilirlər. Bununla yanaşı, rəqəmsal reklam alətləri, elektron ödəniş sistemləri, avtomatlaşdırılmış logistika xidmətləri və data analitikası kimi imkanlar biznes subyektlərinin fəaliyyətini daha çevik və səmərəli edir.

Ekspertlərin fikrincə, rəqəmsal bazarlara çıxış imkanlarının genişləndirilməsi kiçik və orta sahibkarlıq subyektlərinin rəqabət qabiliyyətini artırır, satış coğrafiyasını genişləndirir və əməliyyat xərclərinin optimallaşdırılmasına şərait yaradır. Bu proses həmçinin bizneslərin şəffaflığını təmin etməklə yanaşı, onların qlobal bazarlara inteqrasiyasını sürətləndirir.

Araşdırmalar göstərir ki, rəqəmsal bazarlara inteqrasiya KOB-ların satış coğrafiyasını genişləndirir. Həmçinin, onların əməliyyat xərclərini azaldır, müasir rəqəmsal alətlərdən istifadə hesabına məhsuldarlığı artırır. Eyni zamanda, elektron ticarət platformalarına qoşulmuş şirkətlər qlobal bazarlara çıxış imkanları əldə edir. Bu isə Azərbaycan məhsullarının beynəlxalq rəqabətliliyinin yüksəlməsinə şərait yaradacaq.

Rəqəmsal bazara çıxış əldə etmiş KOB-ların sayının artması bütövlükdə ölkə iqtisadiyyatında şəffaflığın yüksəlməsi, rəqabət mühitinin genişlənməsi və yeni iş yerlərinin yaradılması baxımından da əhəmiyyət kəsb edir. Bu strategiya Azərbaycanın rəqəmsal iqtisadiyyat sahəsində regionun aparıcı ölkələrindən birinə çevrilməsi istiqamətində atılan növbəti mühüm addımdır.

**Mövzu ilə bağlı Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumunun icraçı direktoru Fərid Kazımov XQ-yə bildirdi ki, əslində, bu strategiya Azərbaycanın gələcəyi üçün, xüsusilə də yaxın perspektivdə əsas sənədlərdən biridir:**

– Çünki məhz bu sənəd vasitəsilə ölkəmizin növbəti illər üçün prioritetləri, inkişaf trayektoriyası və rəqəmsal iqtisadiyyat üzrə hədəfləri müəyyənləşdirilib. Bu gün rəqəmsal iqtisadiyyat artıq sadəcə mümkün fəaliyyət istiqaməti yox, qlobal iqtisadi sistemdə zəruri fəaliyyət sahəsidir.

Azərbaycan bu reallığı düzgün qiymətləndirərək sənədin hazırlanmasında müasir çağırışları, rəqəmsallaşmanın əsas istiqamətlərini və strateji hədəfləri diqqətlə nəzərə alıb. Xüsusilə sənəddə aparılmış SWOT təhlilinin (güclü və zəif tərəflər, imkanlar və risklərin) açıq şəkildə göstərilməsi yanaşmanın peşəkarlığından xəbər verir və sənədin elmi-metodoloji baxımdan doğru qurulduğunu təsdiqləyir.



Fərid Kazımov güclü rəqəmsal iqtisadiyyatı qurmaq və qlobal rəqabətdə öz mövqeyimizi qorumaqla bağlı qeyd etdi ki, heç olmasa mövcud səviyyəmizdə rəqabətə davam gətirmək istəyiriksə, ölkədə kadr hazırlığının transformasiyası mütləqdir. Xüsusən rəqəmsal sahədə:

– Təəssüf ki, hazırda mövcud ali təhsil sistemi tam olaraq müasir tələblərə cavab vermir və bazarın ehtiyac duyduğu rəqəmsal mütəxəssislər üzrə hazırlıqda boşluqlar qalmaqdadır. Bu problem əmək bazarında da özünü göstərir: bizneslərin ehtiyac duyduğu rəqəmsal bacarıqlara malik kadrlar hələ də kifayət qədər deyil. Ümid edirəm ki, strategiyada əks olunan yeni yanaşmalar həm dövlət qurumlarını, həm də özəl sektoru bu istiqamətdə daha aktiv olmağa sövq edəcək və kadr hazırlığında real dönüş yaratmaq üçün ciddi təkan olacaq. Bu artıq sadəcə hədəf deyil, fəaliyyət planı səviyyəsində həyata keçirilməli olan prioritetdir.

Rəqəmsallaşmanın yalnız dövlət xidməti kimi deyil, KOB-ları da əhatə edən geniş transformasiya kimi qəbul olunması olduqca müsbətdir. Azərbaycanda rəqəmsallaşma mövzusu müzakirə edilərkən əsas vurğu çox zaman dövlət xidmətlərinin elektronlaşdırılması üzərində olur. Lakin sənəddə xüsusi olaraq göstərilib ki, rəqəmsallaşma təkcə "rəqəmsal hökumət" demək deyil. Kiçik və orta sahibkarlığın rəqəmsal transformasiyası, ənənəvi biznes proseslərinin rəqəmsal modellərə keçirilməsi də strateji hədəflər sırasındadır.

Bununla belə, burada bir məqama toxunmaq lazımdır: KOB-ların rəqəmsallaşdırılması üzrə hədəflərin hələlik kifayət qədər mühafizəkar olduğu görünür. Məsələn, ilkin mərhələdə 20 KOB-un rəqəmsallaşdırılması kimi rəqəmlər qeyd edilib. Fikrimcə, real vəziyyəti, qlobal təcrübəni və daxili potensialı nəzərə alsaq, bu proses daha sürətlə aparılmalıdır.

Son olaraq ekspert onu da vurğuladı ki, Azərbaycan sahibkarları arasında müəyyən ənənəvi düşüncə tərzi, rəqəmsal transformasiyaya qarşı ilkin müqavimət ola bilər:

– Bu, normaldır və bir çox ölkələrdə müşahidə olunub. Ola bilsin ki, strategiyanın təmkinli proqnozları da məhz bu kontekstdə formalaşdırılıb. Amma əminəm ki, sonrakı illərdə rəqəmsallaşan KOB-ların sayı göstəriləndən qat-qat yüksək olacaq. Artıq hazır həllər, proqram təminatları, texnologiyalar mövcuddur və bunların tətbiqi böyük sıçrayış yarada bilər.

***Musa BAĞIRLI***
***XQ***

# Gürcüstanda ölkəmizin yatırımı 2 dəfə artıb



**Azərbaycanın bu ilin yanvar–sentyabr aylarında Gürcüstan iqtisadiyyatına birbaşa investisiyaları 105,2 milyon ABŞ dolları təşkil edib.**

Gürcüstanın Milli Statistika Xidməti bildirir ki, 2024-cü ilin müvafiq dövründə Azərbaycanın Gürcüstana investisiyaları 55,2 milyon ABŞ dolları təşkil edib. Beləliklə, Azərbaycan 2025-ci ilin 9 ayı ərzində Gürcüstan iqtisadiyyatına investisiyalarını 1,9 dəfə artırıb. Eyni zamanda, üçüncü rübdə Azərbaycandan Gürcüstan iqtisadiyyatına birbaşa xarici investisiyaların həcmi 56,7 milyon ABŞ dolları (2024-cü ilin 9 ayı ilə müqayisədə 2,6 dəfə çox) təşkil edib.

Qurumun məlumatına görə, hesabat dövründə Azərbaycan 8,3 faiz payla Gürcüstan iqtisadiyyatına sərmayə yatıran dördüncü investor olub.

Bu ilin yanvar–sentyabr aylarında Gürcüstan iqtisadiyyatına birbaşa xarici investisiyalar ümumilikdə 1 milyard 296,9 milyon ABŞ dolları təşkil edib, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 11 faiz çoxdur.

Qeyd edək ki, 2024-cü ildə Azərbaycanın Gürcüstana birbaşa investisiyaları 83,9 milyon ABŞ dolları təşkil edib.

***XQ***

# Macarıstandan 800 milyon kubmetr qaz sifarişi alınıb

**Macarıstan və Azərbaycan arasında təbii qazın tədarükü haqqında imzalanmış saziş iki il müddətinə nəzərdə tutulub.**

Bu barədə Macarıstanın xarici işlər naziri Peter Siyarto sosial şəbəkədə yazıb. O bildirib ki, Azərbaycanla təbii qazın alınması ilə bağlı növbəti saziş 2 il müddətinə, 800 milyon kubmetr həcmi əhatə edəcək.



Xatırladaq ki, dekabrın 10-da Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə Macarıstanın "MVM ONEnergy" şirkəti arasında təbii qaz təchizatına dair yeni saziş imzalanıb. SOCAR və "MVM CEEnergy" 2023-cü ilin iyun ayında 100 milyon kubmetr qazın tədarükü haqqında müqavilə imzalayıb. Tədarükə 2024-cü ilin aprel ayında başlanılıb.

Bundan başqa, "MVM Group" "Şahdəniz" layihəsində 5 faiz, "South Caucasus Pipeline Company"də (SCPC, Cənubi Qafqaz Boru Kəməri Magistralının operatoru) 4 faiz paya malikdir.

***XQ***

*Təqvim yada salır*

# Xudu Məmmədov məktəbinin istedadlı yetirməsi

**Uzun illərdir Azərbaycandan uzaqlarda yaşayan, Vətənlə də sıx əlaqələr saxlayan dünya şöhrətli elm adamı, Dövlət mükafatçısı, Türkiyənin Bilkənd Universitetinin professoru Əmirulla Məmmədov həm də xaricdə yaşayıb fəaliyyət göstərən görkəmli soydaşlarımızı ölkəmizdə öyünclə tanıdır.**

Bugünlərdə o, daha bir məşhur alimimizdən – Hacalı Nəcəfoğludan söhbət açanda dedi ki, bu insan dünya şöhrətli kristalloqraf, yurdsevər elm xadimi unudulmaz Xudu Məmmədovun nadir yetirmələrindən biridir. Dekabrın 14-də Xudu müəllimin doğum günündə onun davamçısının hansı mərtəbələrə yüksəldiyini oxucularınıza çatdırsanız, 70 yaşlı alimimizi ölkəmizdə daha yaxından tanıyarlar, bundan onun ustadının da ruhu şad olar. Beləliklə, Hacalı Nəcəfoğlu kimdir və öz müəllimi Xudu Məmmədovun elmi məktəbini necə davam etdirib?

Professor Əmrulla Məmmədovun bu təqdimatının, akademik Rəfael Hüseynovun "sakit, dinc təbiətinə rəğmən həmişə nadinc, yenilikçi, bir qədər də sabaha baxan alim" qənaətinin izi ilə Türkiyənin Qars şəhərindəki Qafqaz Universitetinin kafedra müdiri Hacalı Nəcəf oğlu Nəcəfovun sorağına düşdük. Əvvəlcə 10 il əvvəl 60 illiyi münasibətilə Türkiyənin "Kanyılmaz" nəşrlər evində kütləvi tirajlanan "Professor Hacali Nəcəfoğluna ərməğan" kitabında Muxtar Kazımoğlu, Əziz Ələkbərli, Əli Şamil, İradə Tuncay, Vurğun Əyyub, Babək Qurbanov və çoxsaylı ziyalıların onun barəsində yazdıqları ürək sözlərini oxuduq, bu topludan kifayət qədər məlumat əldə etdik.

Kimya və kristalloqrafiya sahəsində dəyərli elmi işləri ilə tanınan Hacalı müəllim 1955-ci ildə Hacıqabulda anadan olub. 1972-ci ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinə qəbul olunması isə onun elmi yolunun əsas başlanğıcı olur. Tələbəlik dövründə həm fənlərə dərindən yiyələnir, həm də ilk elmi tədqiqatları maraqla qarşılanır. Fakültədə cəmi bir tələbəyə verilən nüfuzlu "Lenin təqaüdü"nə layiq görülməsi də onun gələcək uğurlarının ilk göstəricisi olur.

Təhsili başa vurduqdan sonra görkəmli alim Xudu Məmmədovun rəhbərliyi ilə dissertasiya müdafiə edib və 1985-ci ildən Azərbaycan Dövlət Universitetində müəllim kimi çalışıb. Sonralar ölkədə ictimai-siyasi dəyişikliklər onun həyat yolunu Türkiyəyə



aparıb. 1992-ci ildən Ərzurum Atatürk Universitetində, daha sonra isə Qars Kafkas Universitetində dosent və professor kimi fəaliyyət göstərib. Burada Qərb və Slavyan dilləri, eləcə də Çağdaş Türk Ləhcələri bölümlərinin təşkili, həmçinin Türkiyədə Azərbaycan dili və ədəbiyyatının ali səviyyədə tədrisinin başlatılması kimi mühüm təşəbbüslərin müəllifi olub.

Hacalı Nəcəfoğlu Xudu Məmmədovun rəhbəriyi ilə başlatdığı və uzun illərdir kristalloqrafiya sahəsində apardığı araşdırmalarla elmi rəhbərindən ilhamlanaraq, təkcə elmin deyil, həm də incəsənətin dərin qatlarına nüfuz edən bir alim obrazı formalaşdırmışdır. O, kristalların adi gözlə görünməyən, heyrətamiz dərəcədə harmonik və simmetrik quruluşunu rentgen şüaları vasitəsilə araşdıraraq təbiətin bu gizli nizamının insan yaradıcılığında necə əks olunduğunu incə müşahidələrlə ortaya qoyur. Rəssamlıq, toxuculuq, xalı-kilim ornamentləri və memarlıq nümunələrində kristal strukturlarına bənzər ritm, nizam və ahəng axtarışları onun elmi-mədəni düşüncəsinin ayrılmaz hissəsinə çevrilmişdir.

Bu yanaşma, şübhəsiz, akademik Xudu Məmmədovun elmi-estetik mirasının davamı kimi dəyərləndirilə bilər. Hacalı müəllimin özünün yazdığı kimi: "Xudu müəllimin seminarında müasir kimyanın aktual problemlərindən söhbət aparılırdı. Onun "Elm öyrənib sonra elmlə məşğul olmaq, həyatı öyrənib sonra yaşamağa bənzəyir" sözləri çoxumuzu hələ tələbə ikən elmi işlə məşğul olmağa həvəsləndirdi. Neçəmizin ustadı oldu".

Hacalı müəllim həm elmi-pedaqoji fəaliyyəti, həm də geniş dünyagörüşü ilə Xudu Məmmədov məktəbinin layiqincə yaşadıldığını nümayiş etdirir. Kristalloqrafiya sahəsində apardığı tədqiqatlar beynəlxalq elmi ictimaiyyət tərəfindən tanınmış, müxtəlif nüfuzlu simpozium və konfranslarda onun məruzələri elmi diskursun bir hissəsinə çevrilmiş, Türkiyənin "Yeni Şəfəq" kimi məşhur mətbuat orqanlarınn diqqətindən yayınmamışdır. Kristal quruluşlarında gizlənmiş simmetriyanı və estetik mükəmməlliyi incəsənət nümunələri ilə əlaqələndirməsi isə onun daxili harmoniyasının, yaradıcılıq duyumunun və gözəllik axtarışlarının bariz göstəricisidir.

Lakin Hacalı Nəcəfoğlunun fəaliyyəti bununla məhdudlaşmır. Xudu Məmmədovdan aldığı elmi-estetik mirası böyük məsuliyyətlə davam etdirən Hacalı müəllim klassik Azərbaycan ziyalısı obrazının müasir dövrdəki nümunəvi təzahürlərindən biridir. Öz sahəsində yüksək ixtisaslı alim olmaqla yanaşı, Azərbaycan mədəniyyətinə, ədəbiyyatına və tarixinə dərindən bələdliyi ona bu sahələrdə də əsaslı, elmi-populyar fikirlər söyləmək imkanı verir.

Onun nəşr olunmuş əsərlərinin siyahısına nəzər salmaq kifayətdir ki, bu çalışqan alimin geniş dünyagörüşü və çoxşaxəli elmi maraqları təsəvvür olunsun: kimya, siyasət, tarix, ədəbiyyat və mədəniyyət mövzularında Azərbaycan və Türkiyə türkcəsində, rus və ingilis dillərində yayımlanmış məqalələr bunun bariz nümunəsidir. İnternet resurslarında Hacalı müəllimin Azərbaycan mədəniyyəti, dil məsələləri, ədəbiyyat və ümummilli mövzularla bağlı çoxsaylı çıxış və yazılarına rast gəlmək mümkündür.

Xudu müəllimin ideyalarını yeni yanaşmalarla daha da zənginləşdirməyə çalışan alimin çoxsaylı məqalələrinin Rusiyanın, İngiltərənin, Hollandiyanın, Fransanın, İranın, Türkiyənin və digər ölkələrin nüfuzlu elmi jurnallarında çap olunması onun beynəlxalq elmi nüfuzunun göstəricisidir. Bu fakt, eyni zamanda, Hacalı müəllimin kimya və xüsusilə kristalloqrafiya sahəsində artıq öz elmi məktəbini formalaşdırmaqda olduğunu da ehtimal etməyə əsas verir.

Bununla belə, Hacalı Nəcəfoğlunun yalnız təbiət elmləri ilə məhdudlaşmayan intellektual dünyası ayrıca qeyd olunmalıdır. Onun erməni millətçiliyinin ifrat formaları, uydurma siyasi konsepsiyalar, tarixi saxtakarlıqlar haqqında qələmə aldığı məqalələr elmi arqumentlərin dəqiqliyi və mövzunun dərindən mənimsənilməsi ilə seçilir.

Hacalı müəllim hələ ötən əsrin 1970-ci illərindən Azərbaycan mətbuatında aktiv çıxış edərək günün ən mühüm məsələlərini publisist üslubda, aydın və ciddi mövqe ilə qələmə alırdı. O, Mirzə Cəlilin realist publisistika ənənəsini özünəməxsus şəkildə davam etdirərək müxtəlif imzalar altında – Əbu Əli, Tanıdım, Müsavat Kommunstoğlu, Ekstremist Nəsrəddin və başqa – cəmiyyətin ən ağrılı nöqtələrinə toxunurdu. "Türk zəkası", "Müstəqillik", "Yazıda bölücülük", "Böyük qardaş sindromu", "Dövlət dilimiz", "Türkofobiya – erməni xəstəliyi" kimi yazılarında o, dil, kimlik, milli yaddaş, siyasi şüur və mədəni özünüdərk məsələlərinə peşəkar yanaşma



sərgiləyirdi. 1990-cı illərin əvvəllərindən Türkiyədə fəaliyyətini davam etdirdiyi müddətdə də elmi-publisist istiqamətini dəyişməmişdir. Qarsda, Ərzurumda və Türkiyənin digər elmi-mədəni mərkəzlərində o, həm bir alim, həm bir mədəniyyət araşdırıcısı kimi türkçülük–azərbaycançılıq mövqeyindən çıxış etmişdir.

Hacalı müəllim Azərbaycanı tanıtmaq məsələsində hər zaman fövqəladə həssaslıq göstərən ziyalılardandır. O, Türkiyədə Azərbaycanla bağlı yayılan hər bir məlumatı diqqətlə izləyir. Qarsdakı Azərbaycan konsulluğunun müxtəlif təşəbbüslərində, qarşıya çıxan problemlərin həllində də Hacalı müəllimin müdrik məsləhətinə, nüfuzuna və savadına tez-tez ehtiyac duyulur.

Ömrünün 70-ci ilini yaşayan professor Hacalı Nəcəfoğlu bu gün də ölkəmizin adını layiqincə təmsil etməkdə davam edir. Onun Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)", "Tərəqqi", "Diaspor fəaliyyətində xidmətə görə" medalları və digər mükafatlara layiq görülməsi, illər ərzində göstərdiyi böyük zəhmət və fədakar fəaliyyətin qiymətidir. İnanırıq ki, Hacalı müəllim bundan sonra da Azərbaycan elminə və mədəniyyətinə yeni töhfələr verəcək, xalqını daha yüksək zirvələrdə təmsil edəcək.

**Sonda Xudu Məmmədovun 50 yaşının tamam olduğu gündə – 14 dekabr 1977-ci ildə tələbələrinin onunla çəkdirdikləri xatirə şəklini oxucularımıza təqdim edirik. Böyük alimin sağ tərəfində ayaqüstə dayanan isə Hacalı Nəcəfovdur.**

***Namiq ƏHMƏDOV***
***XQ***

*Günün sualı*

# Avtomobili harada və necə saxlayaq?



*Ekspert rəyi*



**Ərşad HÜSEYNOV,**
**nəqliyyat eksperti**

Prezident İlham Əliyev 2014-cü ildə Nazirlər Kabinetində keçirilən müşavirədə nəqliyyat sektorundakı problemlərdən danışarkən, Bakının gözəl, müasir, inkişafda olan şəhər kimi diqqət çəkdiyini deyib: "Əlbəttə ki, inkişaf etmiş ölkələrdə heç bir şəhərdə küçələrdə əlində çubuq parkinqlə məşğul olan tənzimləyiciləri görmək mümkün deyil. Bu, bizə yaraşmır, yaraşmaz. Özü də heç kim bilmir ki, onlar harada işləyirlər, yığdıqları pulları hara verirlər, kimə ötürürlər. Mən başa düşürəm ki, indi yerüstü parklanma olmadığı üçün bunların sürücülərə köməyi dəyir. Bunu başa düşürəm. Ona görə hesab edirəm ki, biz təmkinli olmalıyıq. Amma normal, şəffaf park avtomatları quraşdırılandan sonra, əlbəttə ki, əlində çubuq olan vətəndaşları biz gərək digər işlərlə təmin edək".

Həmin vaxtdan etibarən bu sahənin inkişafı üçün genişmiqyaslı layihələr həyata keçirilib. Nəqliyyatın idarə olunması, dayanacaq yerlərinin rəqəmsallaşdırılması və nəqliyyat axınının optimallaşdırılması istiqamətində önəmli addımlar atılıb. Parklanma infrastrukturu modernləşdirilib, mövcud istiqamətdə prosesin daha rahat, səmərəli və şəffaf şəkildə təşkili reallaşdırılıb.

Onu da qeyd edim ki, "AzParkinq" yaradılana qədər şəhərdə xaotik parklanma sistemi var idi. Sürücülərdən toplanan pulların hamısı ayrı-ayrı şəxslərin cibinə gedirdi. Nəticədə külli miqdarda vəsait dövlətdən gizlədilirdi. "AzParkinq" istifadəyə veriləndən sonra isə bu sahədə müəyyən qədər nizam yaradıldı. Ödənişlərin ünvanı bilindi. Lakin yeni parklama siyasəti isə vəsaitlərin aqibətini, başqa sözlə, toplanan ödənişlərin ümumi məbləği haqqında məlumatın açıqlanma vəziyyətini, onların hansı məqsədlə istifadə edildiyini sual altında qoydu.

Xatırladım ki, müxtəlif ölkələrdə özəl parklanma yerlərindən əldə olunan gəlirlər yalnız həmin parklanma xidmətlərinin təminatı ilə məhdudlaşmır. Toplanan vəsaitlər çox vaxt şəhər və ya bölgənin ictimai nəqliyyat sisteminin inkişafına yönəldilir. Bu, həm ictimai nəqliyyatın keyfiyyətini artırır, həm də şəhərdə nəqliyyat sıxlığının azalmasına, hava çirkliliyinin minimuma endirilməsinə xidmət edir.

Eyni zamanda, bu gəlirlər yol-nəqliyyat infrastrukturunun saxlanılması və təkmilləşdirilməsi üçün də istifadə olunur. Məsələn, yolların asfalt örtüyünün yenilənməsi, zədələnmiş hissələrin təmiri, yol nişanlarının quraşdırılması və texniki baxım işləri kimi xərclər bu vəsaitlər hesabına qarşılanır. Beləliklə, parklanma gəlirləri həm ictimai nəqliyyatın səmərəliliyini artırmağa, həm də yol infrastrukturunun davamlılığını gerçəkləşdirməyə xidmət edir. Bundan əlavə, bu yanaşma şəhər büdcəsinin yükünü yüngülləşdirir və vəsaitlərin şəffaf idarə olunmasına şərait yaradır. Vətəndaşlar da daha yaxşı nəqliyyat və təhlükəsiz yol şəraiti ilə təmin olunur, bu da ümumi həyat keyfiyyətini yüksəldir.

*(əvvəli 1-ci səhifədə)*

Xatırladaq ki, "AzParking"in əsas məqsədi şəhər daxilində parklanma idarəçiliyini mərkəzləşdirmək, sürücülərə real vaxtda boş yerlər barədə məlumat vermək və dayanma prosesini mümkün qədər sadələşdirməkdir. Sistem vasitəsilə sürücü mövcud parklanma yerlərini, onların tutumunu, qiymətlərini və doluluq səviyyəsini görə bilir. Bu, həm vaxt itkisinin, həm də küçələrdə boş yer axtarışının yaratdığı tıxac təzyiqinin azalmasını şərtləndir. Eyni zamanda, parklanma ödənişləri nağdsız, tam elektron qaydada həyata keçirilir. Bununla da şəffaflığın təmin edilməsi, insan amilindən irəli gələn sui-istifadə hallarının qarşısının alınması və hesablamaların avtomatlaşdırılması reallaşır.

Onu da deyək ki, adıçəkilən idarəetmə paneli fəaliyyət göstərənədək cərimə və xəbərdarlıq sisteminin inteqrasiyası sahəsində müəyyən problemlər yaşanırdı. Hazırda isə sürücü parketmə qaydalarını pozduqda bununla bağlı bildiriş alır, cərimələri elektron şəkildə ödəyir və prosesin hüquqi tərəfi tam rəqəmsal idarə olunur. İdarəetmə paneli vasitəsilə monitorinq də uğurla həyata keçirilir. Yəni "AzParking"in idarəetmə paneli operatorlara real vaxtda bütün dayanacaqların vəziyyətini izləməyə, texniki nasazlıqları aşkarlamağa, doluluq səviyyəsini monitorinq etməyə və məlumatlara əsaslanan qərarlar verməyə imkan yaradır.

Bununla belə, istifadəçi rəyləri, ictimai müzakirələr və ekspert yanaşmaları göstərir ki, parklanma sisteminin tətbiqi hələ də bir sıra çətinliklərlə müşayiət olunur. Məsələn, parklanma yerlərinin çatışmazlığı əsas narazılıqlardan biridir. Belə ki, tətbiq nə qədər mükəmməl olsa belə, şəhərdaxili parklanma yerlərinin real sayı sürətlə artan avtomobil parkına uyğun gəlmir. Başqa sözlə, bir sıra küçələrdə parklanma yerləri azdır və tətbiq, sadəcə, mövcud xaosu rəqəmsallaşdırır. Ödəniş sisteminə etimad məsələləri də narazılıq yaradır. Bəzən sürücülərdən ödənişlərin düzgün hesablanmaması, parkomatların bəzən işləməməsi və tətbiqlə sinxronlaşdırma problemləri barədə şikayətlər eşidilir.

Səhv qeydə alınan dayanma hallarına görə cərimələr edilməsi də narahatlıq yaradan hallardan biridir. Belə ki, bir sıra vətəndaşlar tərəfindən qeyd olunur ki, kameralar bəzən sürücünün, əslində, park etmədiyi halları "dayanma" kimi qeydə alır və bu, elektron sistemdə avtomatik cəriməyə gətib çıxarır. Belə şərait isə mübahisələrin və şikayətlərin artmasına yol açır. Bundan başqa, parklanma prosesində yaranan narazılığın bir qismi də məlumatlandırma çatışmazlığı ilə bağlıdır. Belə şəraiti yeni qaydaların tətbiqi, ödəniş metodları və parklanma zonalarının xəritəsi barədə əhalinin məlumatlılıq səviyyəsinin hələ də yetərli olmaması şərtləndirir. Bu isə mübahisəli situasiyalara və yanlış başa düşülmələrə səbəb olur.

Yuxarıda sadalananlarla bərabər, bu gün parklanma mədəniyyətinin güclənməsinə və nəzarət mexanizmlərinin qurulmasına zəruri ehtiyac duyulur. Çünki bir çox hallarda parklanma qaydalarının pozulması, məsələn, səkilərin zəbt edilməsi, ikinci cərgədə dayanma, avtobus zolaqlarına giriş hələ də mövcuddur. Texniki vasitələr və rəqəmsal sistemlər nə qədər müasirləşsə də, davranış modelləri dəyişmədikcə, nəticə tam səmərəli olmur.

Ekspertlərin fikrincə, bütün bu halların aradan qaldırılması üçün, ilk növbədə, "AzParking"in təkmilləşdirilməsi diqqətdə saxlanılmalıdır. Bu məqsədlə şəhər daxilində yeni parklanma məkanları yaradılmalı, yerüstü və yeraltı parklanmaların genişləndirilməsi, çoxmərtəbəli dayanacaq binalarının tikilməsi bu sahədə əsas prioritet olmalıdır. Eyni zamanda, səhv cərimə qeydlərinin qarşısının alınması üçün bir sıra üsullar, məsələn, süni intellekt (SI) əsaslı görüntü analizi tətbiq olunmalıdır. Çünki belə bir sistem real parketmə prosesini daha dəqiq müəyyənləşdirə bilir.

Parklanma sisteminin inkişafında dinamik qiymətləndirmə modelinin tətbiqinə də zəruri ehtiyac duyulur. Ekspertlərin bildirdiyinə görə, belə bir məsələ həllini tapdığı təqdirdə, bir sıra xarici ölkə şəhərlərində, o cümlədən Nyu-York, London və Sinqapurda olduğu kimi, yüksək yüklənmə saatlarında tariflər artsa da, boş vaxtlarda ancaq minimum ödənişin tətbiqi tıxacları azaldar.

**Ekspert Qabil Həsənovun** sözlərinə görə, Bakının parklanma prosesinin inkişafına dünya təcrübəsində özünü doğruldan "Park & Ride" sisteminin tətbiqi də müsbət təsir göstərə bilər. Belə ki, şəhərə girişdə iri dayanacaqlar yaradılaraq insanların metro və avtobus vasitələrinə keçidini gerçəkləşdirməklə mərkəzə avtomobil axını ciddi şəkildə azalar. Bundan savayı, tam avtomatlaşdırılmış sistemlə yanaşı, mobil nəzarət qruplarının fəaliyyəti insanların saxtakarlıq cəhdlərinin və qayda pozuntularının qarşısını almaqda daha səmərəli olar.

"AzParking" idarəetmə paneli respublikamızın nəqliyyat idarəçiliyində rəqəmsal transformasiyanın mühüm mərhələsidir. Bununla belə, sistemin real uğuru həm infrastrukturun genişləndirilməsindən, həm də parklanma mədəniyyətinin təkmilləşdirilməsindən asılıdır. Əhalinin məlumatlandırılması, texniki problemlərin aradan qaldırılması və dünya təcrübəsinin tətbiqi sayəsində bu sistem öz potensialını tam reallaşdıra, şəhər həyatını daha nizamlı və komfortlu edə bilər.

Beləliklə, şəhərin ən böyük problemlərindən biri olan nəqliyyat sıxlığını və parklanma çətinliklərini aradan qaldırmaq məqsədilə yaradılan "AzParking" ən son texnologiyalardan yararlanaraq, parklanma sahələrinin daha səmərəli istifadəsini gerçəkləşdirir. Bu panel sayəsində sürücü parklanma yerlərini asanlıqla tapır, vaxt itirmədən giriş-çıxış sistemindən istifadə edir və ödənişi mobil tətbiq üzərindən həyata keçirir. Parklanma sahibi isə veb-panel vasitəsilə obyektlərini tam nəzarətdə saxlaya, gəlir və xərclərini təhlil edə və müştəri məmnuniyyətini artırmaq üçün "ağıllı" həllərdən yararlana bilir.

Amma "AzParking" tərəfindən parklanmadan əldə edilən vəsaitlərin aylıq məbləği və xərclənməsi ilə bağlı ictimaiyyətə heç bir məlumat verilmir. Bununla da idarəetmədə şəffaflıq və hesabatlılıq prinsiplərinə əməl edilmir. Sadəcə, toplanan vəsaitin parklanma yerlərində kommunal, mühafizə, təsərrüfat və rabitə xərclərinə, parklanma ilə əlaqədar yol infrastrukturunun qurulmasına, tətbiqlərin yaradılması və onların saxlanılmasına və s. yönəldildiyi bildirilir.

Ekspertlərin sözlərinə görə, "AzParking"in idarəetmə fəaliyyətində şəffaflıq prinsipinə əməl etməməsi ilə bağlı iddia səsləndirilməsi, əslində, əldə olunan vəsaitin görülən işlərin miqyasına uyğun gəlməməsi ehtimalından irəli gəlir. Bu baxımdan sürücülərin adı çəkilən platformadan hesabatlılıq istəyi də aydın başa düşülür. Çünki paytaxtın ""AzParking"in mərkəzi zonalarında parklanmaya görə sürücülərdən 1 saat üçün 1 manat, kənar ərazilərdə isə 0,70 və 0,30 manat alınır. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) balansında olan yeraltı parklanma məntəqələrində isə (Hökumət evi, Qış parkı və Mərkəzi Parkda) 1 saata qədər 1 manat, 1-3 saat üçün 2, 3-6 saat üçün 3 manat, 6-12 saat üçün 5 manat, 12-24 saat üçün 10 manat ödəniş tələb olunur.

Ekspertlərin fikrincə, əksər ölkələrdə avtodayanacaqlardan gələn vəsait bələdiyyələrin hesabına daxil olur. Bu isə ərazinin inkişafı, abadlaşdırılması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi məqsədilə istifadə edilir.

***Vaqif BAYRAMOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 263 (30957) 13 dekabr 2025-ci il, şənbə

# Ağcaqanad xortumu "böyüdücü cihaz" imiş...

*Alimlər ondan ultranazik xətləri görmək üçün istifadə ediblər*

**Tədqiqatçılar laboratoriyada yetişdirilmiş ölü dişi ağcaqanadın xortumunu bioprinter üçün təbii "3D-nekrobaşlıq" kimi uyğunlaşdırıblar. Alimlərin adlandırdığı bu bioloji alət süni mikroiynələrdən həm daha dəqiq işləyib, həm də bahalı mikroskopik iynələrin hazırlanmasına xərcləri azaldıb.**

Yüksək dəqiqlikli üçölçülü çap insan saçından daha nazik detallar hazırlamağı tələb edir. Belə texnologiya tibbdə hüceyrə məhlullarından canlı toxumaların yetişdirilməsi və mikroelektronika kimi sahələrdə vacibdir. Lakin əsas problem - çap başlıqlarının baha və mürəkkəb konstruksiyaya malik olmasıdır. Diametri 50 mikrometr olan metal və ya plastik iynələr həm çox bahalıdır, həm də cüzi tıxanma zamanı yararsız hala düşür.

Təbiətdə isə mayeləri vurmaq və ya sorub çıxarmaq üçün hazır "alətlərə" malik saysız-hesabsız orqanizmlər var: əqrəblərin sancaq orqanı, ilanların zəhər dişləri, müxtəlif həşəratların sorucu strukturları. Biomühəndis yanaşması bu təbii mexanizmlərin texnologiyada istifadəsini təklif edir. Bu yanaşma həm istehsal dəyərini aşağı salır, həm də plastik tullantıların utilizasiyası problemini aradan qaldırır. Biomühəndislər müxtəlif canlıların quruluşunu təhlil edərək seçimlərini "Aedes aegypti" ağcaqanadının dişi fərdlərinə yönəldiblər. Tədqiqatın nəticələri "Science Advances"



jurnalında dərc olunub.

Araşdırmanın müəllifləri laboratoriyada yetişdirilən dişi ağcaqanadların xortumunu diqqətlə çıxararaq onu standart şprisin plastik ucluğuna yapışqan vasitəsilə bərkidiblər. Daha sonra bu hibrid qurğunu xüsusi hazırlanmış platformaya yerləşdiriblər və ona "nekroprintr" adı verilib. Ağcaqanadın xortumu mayeləri ötürmək üçün son dərəcə davamlı təbii strukturdur. Onun daxili kanalı cəmi 20 mikrometr diametrə malikdir - bu, ən incə kommersiya mikroiynələrindən iki dəfə nazik və insan saçından dəfələrlə zərifdir. Bununla belə, təbii "iynə" çap zamanı düz formasını qoruyub saxlayır və altlığa toxunduqda əyilmir.

Mühəndislər şprisi biomürəkkəblə dolduraraq ekstrüziya prosesinə (Ekstrüziya prosesi - materialın (əsasən metal, plastik, rezin və ya qida kütləsi) xüsusi formada olan dəlikdən (kalibrdən, matrisdən) yüksək təzyiq altında keçirilməsi ilə davamlı profil şəklinə salınması prosesidir. Sadə dillə desək, material "sıxılaraq" boru, çubuq, lent, profil və ya digər formalar halına gətirilir–red.) başlayıblar. İlk məqsəd bu bioloji mikroiynələrin dözümlülüyünün sərhədlərini müəyyənləşdirmək idi. Məlum olub ki, xortum təxminən 60 kilopaskal daxili təzyiqə tab gətirir. Yeni sistemin imkanlarını nümayiş etdirmək üçün tədqiqatçılar bir neçə mikroskopik obyekt hazırlayıblar: nazik arakəsməli "arı pətəyi" formasında qəfəsvari struktur və ağcaqayın yarpağı konturunu yüksək dəqiqliklə çap ediblər.

Hazır konstruksiyalarda xətt qalınlığı 18-28 mikrometr arasında dəyişib. Üstəlik hüceyrə membranları zədələnməyib. Araşdırma göstərib ki, sadə ağcaqanad xortumu mürəkkəb mühəndis detallarını əvəz edə biləcək səmərəli və ucuz alətdir. Texnologiya mikroskopik strukturların minimal xərc ilə hazırlanmasına imkan verir, çünki laboratoriya şəraitində ağcaqanadların yetişdirilməsi çox ucuz başa gəlir. Gələcəkdə bu tip yenilənə bilən bioiynələrin klinik analizlərdə, mikrotexnologiyada və hüceyrə karkaslarının yaradılmasında geniş tətbiq tapacağı gözlənilir.

***Hazırladı:***
***S.ELAY***
***XQ***

## İDMAN

### Sübhan Mamedov Dünya çempionatının finalında

**Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən boks üzrə Dünya çempionatı davam edir.**



Azərbaycan boksçusu Sübhan Mamedov (48 kq) çempionatda növbəti qələbəsini qazanıb. O, mundialın yarımfinalında Sahil Alahverdovini (Gürcüstan) məğlub edib. Hər 3 raundu xeyrinə bitirən 19 yaşlı boksçumuz yekunda 5:0 (30:27, 30:27, 30:27, 30:27, 30:27) hesabı ilə qələbə qazanıb. O, finalda Edmond Xudoyanla (Rusiya) üz-üzə gələcək. Həlledici görüş bu gün keçiriləcək.

Digər boksçularımızdan Alfonso Dominqes (92 kq) və Məhəmməd Abdullayev (+92 kq) dünya çempionatını bürünc medalla başa vurublar.

### Məhəmməd Salaha həftədə 2,5 milyon avro təklifi

**İngiltərənin "Liverpul" klubunun futbolçusu Məhəmməd Salaha Səudiyyə Ərəbistanının aparıcı klublarından biri rekord məbləğdə müqavilə təklif edib. "The Telegraph" xəbər verir ki, adı açıqlanmayan Asiya klubu Salaha həftəlik 2,8 milyon avro maaş verməyə hazırdır. Bu məbləğ ildə təxminən 137 milyon avroya bərabərdir.**



Təklif hələ ki, rəsmən təsdiqlənməsə də, ərəb klublarının misirli hücumçunu transfer etmək istəyinin davam etdiyi bildirilir.

Qeyd edək ki, Məhəmməd Salah 2017-ci ildən "Liverpul"da çıxış edir. Onun klubla müqaviləsi 2027-ci ilin yayına qədər qüvvədə qalır.

### UEFA Avropa Liqasının VI turu

**UEFA Avropa Liqasının əsas mərhələsində VI turun oyunları keçirilib.**

Türkiyənin "Fənərbağça" klubu səfərdə Norveç təmsilçisi "Brann"la qarşılaşıb. Oyun qardaş ölkə təmsilçisinin böyük hesablı qələbəsi ilə başa çatıb – 0:4. Digər qarşılaşmalarda aşağıdakı nəticələr qeydə alınıb:

"Dinamo" (Zaqreb, Xorvatiya) – "Betis" (İspaniya) 1:3, "Ferentsvaroş" (Macarıstan) – "Reyncers" (Şotlandiya) 2:1, "Yanq Boys" (İsveçrə) – "Lill" (Fransa) 1:0, "Midtyullann"



(Danimarka) – "Genk" (Belçika) 1:0, "Ludoqorets" (Bolqarıstan) – PAOK (Yunanıstan) 3:3, "Şturm" (Avstriya) – "Srvena Zvezda" (Serbiya) 0:1, "Nitsa" (Fransa) – "Braqa" (Portuqaliya) 0:1, "Ştutqart" (Almaniya) – "Makkabi" (Təl-Əviv, İsrail) 4:1, "Utrext" (Niderland) – "Nottinqem Forest" (İngiltərə) 1:2, "Portu" (Portuqaliya) – "Malmö" (İsveç) 2:1, "Lion" (Fransa) – "Qo Ehed İqlz" (Niderland) 2:1, "Seltik" (Şotlandiya) – "Roma" (İtaliya) 0:3, "Bazel" (İsveçrə) – "Aston Villa" (İngiltərə) 1:2, "Frayburq" (Almaniya) – "Zaltsburq" (Avstriya) 1:0, FCSB (Rumıniya) – "Feyenoord" (Niderland) 4:3, "Selta" (İspaniya) – "Bolonya" (İtaliya) 1:2, "Panatinaikos" (Yunanıstan) – "Viktoriya" (Çexiya) 0:0.

6 oyundan sonra turnir cədvəlinə 15 xalla "Lion", "Midtyullann" və "Aston Villa" komandaları başçılıq edirlər. 4–5 və 6-cı mövqedə yer alan "Betis", "Frayburq" və "Ferentsvaroş"un 14 xalı var. "Fənərbağça" klubu 11 xalla 12-ci pillədə qərarlaşıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

# Məcburi audit subyektləri rəhbərlərinin nəzərinə!

Azərbaycan Respublikasının Auditorlar Palatası nəzərinizə çatdırır ki, qanunvericiliyin və müvafiq nizamnamə tələblərinə uyğun olaraq aşağıda göstərilən məcburi audit subyektləri hər il maliyyə hesabatlarının düzgünlüyünü yoxlatdırmaq üçün müstəqil (kənar) auditor cəlb etməlidirlər:

| Sıra №si | Məcburi audit subyektləri | Məcburi auditdən keçmənin qanunvericilikdə təsbiti və əsası |
|---|---|---|
| 1. | İctimai əhəmiyyətli qurumlar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsi |
| 2. | Məhdud məsuliyyətli cəmiyyətlər | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1999-cu il 28 dekabr tarixli 779-IQ saylı Qanununun 91.4-cü maddəsi |
| 3. | Səhmdar cəmiyyətləri | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1999-cu il 28 dekabr tarixli 779-IQ saylı Qanununun 107.6-cı maddəsi |
| 4. | Banklar və digər kredit təşkilatları | "Banklar haqqında" Azərbaycan Respublikasının 2004-cü il 16 yanvar tarixli 590-IIQ saylı Qanununun 8, 9, 44, 45, 46-cı və s. maddələri |
| 5. | Sığorta təşkilatları və cəmiyyətləri | "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2007-ci il 25 dekabr tarixli 519-IIIQ saylı Qanununun 74-cü maddəsi |
| 6. | İnvestisiya fondları | "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının 2010-cu il 22 oktyabr tarixli 1101-IIIQ saylı Qanununun 26-cı və 48-ci maddələri |
| 7. | Maliyyə-sənaye qrupları | "Maliyyə-sənaye qrupları haqqında" Azərbaycan Respublikasının 1996-cı il 23 aprel tarixli 69-IQ saylı Qanununun 16-cı və 17-ci maddələri |
| 8. | Birləşdirilmiş (konsolidə edilmiş və icmal) hesabatlar təqdim edən hüquqi şəxslər (holdinqlər) | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.3-cü maddəsi |
| 9. | Dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12.2-ci maddəsi |
| 10. | Publik hüquqi şəxslər | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 12-ci maddəsi və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 06 iyul tarixli 173 nömrəli fərmanı ilə təsdiq edilmiş Publik hüquqi şəxslərin Nümunəvi Nizamnaməsinin 7.4-cü maddəsi |
| 11. | Siyasi partiyalar | "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının 2004-cü il 29 iyun tarixli 716-IIQ saylı Qanununun 14.6-cı maddəsi |
| 12. | Kənd təsərrüfatı kooperativləri | "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 270-VQ saylı Qanununun 5.4-cü maddəsi |
| 13. | Bələdiyyələr | "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 772-IQ saylı Qanununun 13-cü maddəsi |
| 14. | İnvestisiya şirkətləri, fond birjaları, klirinq təşkilatları və investisiya fondları | "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının 2015-ci il 15 may tarixli 1284-IVQ saylı Qanununun 61-ci maddəsi |
| 15. | Nizamnamələrində (Əsasnamələrində) auditdən keçmələri tələb olunan qurumlar | Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərman, Sərəncamları və digər sənədlər |

İzahedici qeydlər:

Qanunvericiliyin tələblərinə görə öz maliyyə hesabatlarını dərc etdirməli olan iqtisadi subyektlər, qanunvericilik aktları ilə bilavasitə nəzərdə tutulmuş hallarda və nizamnamələrində (əsasnamələrində) auditdən keçmələri tələb olunan qurumlarda həyata keçirilməli olan, habelə Səlahiyyətli Dövlət Orqanları tərəfindən aparılan audit məcburi, digər hallarda isə könüllüdür.

Yuxarıdakı siyahıda qeyd olunan məcburi audit subyektlərindən başqa digər iqtisadi subyektlər də öz təşəbbüsləri ilə maliyyə hesabatlarının düzgünlüyünü təsdiq etdirmək və digər auditor xidmətlərindən istifadə etmək üçün könüllü olaraq müstəqil (kənar) auditor cəlb edə bilər.

Auditi aparılan iqtisadi subyektin şəxsi əmlak mənafeyi, onun iqtisadi subyektinin rəhbərliyindən hər hansı şəxslə birbaşa qohumluq əlaqəsi, iqtisadi subyektin təsisçisi, mülkiyyətçisi və ya səhmdarı olduqda, həmin iqtisadi subyektdə bundan əvvəl öz peşə fəaliyyəti ilə bağlı xidmətlər göstərdikdə, auditorlara həmin iqtisadi subyektlərdə audit aparmaq qadağandır.

Yeni dövrün çağırışları nəzərə alınmaqla dayanıqlı inkişaf məqsədlərinə nail olmaq və yaşıl iqtisadiyyatın inkişafı naminə aparılan ölkə iqtisadiyyatının inkişafının müasir mərhələsində müstəqil (kənar) audit maliyyə şəffaflığının əsas təminatçısı kimi, maliyyə vəsaitlərindən səmərəli və təyinatı üzrə xərclənməsində, maliyyə və vergi intizamının möhkəmləndirilməsində, korrupsiyaya və cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə mühüm rola malik olmaqla yanaşı, auditorlar tərəfindən təqdim olunan auditor hesabatının (auditor rəyinin) iqtisadi subyektlərin maliyyə fəaliyyətində yol verilən nöqsan və çatışmazlıqların vaxtında aşkar edilməsində və aradan qaldırılmasında çox böyük əhəmiyyəti vardır;

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 11 sentyabr tarixli 262 nömrəli Qərarı ilə təsdiq edilmiş "e-mühasibat" informasiya sistemi haqqında Əsasnamənin 3-cü "Sistemin altsistemləri" bölməsinə uyğun olaraq məcburi audit subyektləri tərəfindən aşağıdakılar təmin edilməlidir:

3.2.1. kommersiya təşkilatlarının maliyyə hesabatları altsistemi vasitəsilə "Mühasibat uçotu haqqında" Qanunun 12.2-ci maddəsində nəzərdə tutulmuş kommersiya təşkilatları tərəfindən illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının qanunla müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə, habelə həmin Qanunun 12.3-cü maddəsində nəzərdə tutulmuş kommersiya təşkilatları tərəfindən illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsi barədə məlumatların, məcburi audit subyektləri tərəfindən isə maliyyə hesabatlarının məcburi auditini keçirməsi barədə auditor rəyinin elektron qaydada göndərilməsi.

3.2.2. publik hüquqi şəxslərin maliyyə hesabatları altsistemi vasitəsilə "Mühasibat uçotu haqqında" Qanunun 12-1.8-ci maddəsində nəzərdə tutulmuş publik hüquqi şəxslər tərəfindən illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının (auditor rəyi ilə birlikdə), habelə həmin Qanunun 12-1.9-cü maddəsində nəzərdə tutulmuş publik hüquqi şəxslər tərəfindən (Azərbaycan Respublikasının Mərkəzi Bankı istisna olmaqla) illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsi barədə məlumatların elektron qaydada göndərilməsi.

Hörmətli təsərrüfat subyektlərinin rəhbərləri,

İqtisadi subyektlər auditor seçimində müstəqildirlər. Auditor təşkilatları və sərbəst auditorlar barədə məlumatları Azərbaycan Respublikası Auditorlar Palatasının internet səhifəsindən əldə edə bilərsiniz:

https://audit.gov.az/Az/page/5 (auditor təşkilatları)
https://audit.gov.az/Az/page/6 (sərbəst auditorlar)

Auditorlar Palatası bu istiqamətdə Sizin hər bir sorğunuzu cavablandırmağa və zəruri dəstək göstərməyə hazırdır. (Əlaqə telefonları: (012) 564-83-66; (012) 498-28-55 (dax.:109) (050-612-04-73; E-mail: auditinteshkili@audit.gov.az - Vasif Cavadov).

**Azərbaycan Respublikasının Auditorlar Palatası**

## HAVA

# Qışın astanasında yağışlı şənbə...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi günün ikinci yarısında arabir güclənən şimal-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 6-9, gündüz 11-13 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunundan 754 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında əsasən gecə və axşam bəzi yerlərdə havanın arabir yağıntılı olacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi gündüz bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 4-9, gündüz 10-15 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 4-7 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN!

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev və ali məktəbin kollektivi Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova əzizi

**ELMAN HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

*✓ 2023-cü ildə Bakı Texniki Kolleci tərəfindən Məmmədov Tunar Ziyəddin oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.*

*✓ Quba Dövlət Aqrar İnkişaf Mərkəzi tərəfindən Baloğlanov İlqar Asəf oğlunun adına verilmiş "Belarus 892" markalı traktorun TF seriyalı, 002477 nömrəli qeydiyyat şəhadətnaməsi və 27 K 218 dövlət qeydiyyat nişanı itdiyi üçün etibarsız sayılır.*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3604
SİFARİŞ 2330
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00